İBRAHİM HƏBİBOV

# SEVƏRƏK YAŞADIĞIM HƏYATIM MƏNİM

"Şərq–Qərb"
Bakı–2011

*Müəllif kitabın çap olunmasında göstərdiyi maliyyə yardımına görə "Şərq-Qərb" ASC-nin rəhbərliyinə öz dərin təşəkkürünü bildirir.*

**İbrahim Həbibov. Sevərək yaşadığım həyatım mənim.**
Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 168 səh.

**ISBN 978-9952-34-613-8**

**© İbrahim Həbibov, 2011**

*Bu yazılar mənə həyat vermiş valideynlərim:*
*Həbibov Əbülfəz Əli oğlunun və*
*Həbibova Xədicə Qasım qızının*
*əziz xatirələrinə olan ehtiramımdır.*

# İLK SÖZ

Hər bir yazının istər məktub, istərsə də kitab, dərslik, monoqrafiya və s. olsun, mütləq şəkildə müqəddiməsi, girişi, proloqu və ya ön sözü olur. Mən də bu ənənəyə sadiq qalaraq bu yazımın başlanğıcında bir neçə kəlmə yazmaq istəyirəm. İlkin olaraq qeyd etmək istəyirəm ki, əlinizdə tutduğunuz bu kitab nə xatirə dəftəri, nə də ki, avtobioqrafik təsvirdır. Buraya uzun müddət özümdən başqa heç bir kəsə məlum olmayan, şəxsi həyatımla bağlı hadisələr, əziyyətli və çətin, şad və xoşbəxt, lakin sevərək yaşadığım anlar, məni düşündürən problemlər haqqında qeydlərim daxil edilmişdir.

Bu yazılarım ilk növbədə övladlarıma və onların övladlarına olan müraciətimdir. Onlar nə vaxtsa bu sətirləri oxuduqda və hansısa bir vəziyyətdə mənim yazdıqlarımdan yararlanacaqlarsa, deməli yaşadığım ömür hədər ötməmişdir.

Eyni zamanda qohum və qardaşlarım, dost və yoldaşlarım, mənimlə münasibətdə olan, məni tanıyan, xətrimi əziz tutan və tutmayanlara açıqlamalarımdır.

Bu yazılar bütün həyatını mənə həsr edən, hər zaman mənə arxa və dayaq olan həyat yoldaşım Nailə xanıma olan hörmətimdir.

## MƏNİM ƏZİZLƏRİM

Bu gün 1988-ci ilin fevral ayının 9-dur. Artıq beş aydan çox müddətdir ki, mən dünyanın gözəl guşələrindən biri olan Ukraynanın paytaxtı Kiyev şəhərindəyəm.


Kiyev Dövlət Universiteti

İşlədiyim ali məktəbdən, M.Əzizbəyov adına Neft və Kimya İnstitutundan məni Kiyev Dövlət Universitetinin xarici dillər fakültəsinin 10 aylıq ingilis dili kurslarına göndəriblər.

Heç vaxt evdən, anamdan, qohum-əqrəbamdan belə böyük bir müddətə ayrılmamışdım. Yarım ilə yaxın vaxt keçməsinə baxmayaraq, yenə də bütün günü fikrim yalnız Sizlərin yanındadır. Bu gözəl şəhərdə tək deyiləm. Mənimlə bir otaqda iki nəfər də var. Onlar da bizim institutdandırlar, buraya mənim kimi xarici dil kursuna – fransız dili öyrənmək üçün ezam olunublar.

Hər birinin öz xasiyyəti, mənfi və müsbət cəhətləri, problemləri olan, Bakıda ailələrini qoyub buraya, xarici dil öyrənməyə gələn və yaşı qırxa çatmış üç kişi, bir otaqda 10 ay müddətində yaşamalıdır. Olduqca çətin, təsəvvürolunmaz, bir sözlə ekstremal bir vəziyyətdə yaşayırıq. Əsas səbəb dünya görüşlərimizin müxtəlifliyidir. Çətin bir işdir bu və onun haqda danışmaq istəmirəm.

Səhərdən özümdə bir qəribçilik, tənhalıq və uyğunsuzluq hiss edirəm. Günortaya yaxın bu diskomfort vəziyyətdən çıxmaq qərarına gələrək başımda dolanan fikirləri xatirələr şəklində dəftərə yazmaq istədim. Nədən başlayım?

İlkin olaraq özüm haqqında qısa bir məlumat vermək istərdim. Ola bilsin ki, bir zaman Sizlər üçün atanızın keçdiyi

həyat yolu maraq doğursun. Bu və ya digər vəziyyət və şərait üçün onun fikir və qəbul etdiyi qərarları öyrənmək istədiniz. Bəlkə də Sizlərin də təklik və sıxıntı keçirdiyiniz anlar oldu və onda bu xatirələrə əl atıb oxumaq istədiniz. İnsanın tərcümeyi-halını, xasiyyətini, dünyaya baxışını və məhəbbətini özündən başqa heç bir kəs tam və aydın şəkildə bilə bilməz. Odur ki, özüm haqqında aşağıdakıları qeyd etməyi lazım bildim.

## QISA TƏRCÜMEYİ-HALIM

Doğum günüm 4 iyun 1951-ci il, doğulduğum məkan isə canım qədər sevdiyim, mənim üçün dünyada əvəzsiz və bənzəri olmayan, özəlliyi ilə fərqlənən, xüsusi ab-havalı Bakı şəhəridir.


Bakı Dövlət Sirki

Uşaqlığım və gəncliyim bu şəhərin tarixi yerlərindən biri olan və el arasında «Güllü dərə» kimi tanınan və Göy məscidin aşağı ətəyində, Bakı Dövlət Sirkinin ətrafındakı məhəllələrin birində keçmişdir.

1959-cu ildə Bakıdakı 44 saylı orta məktəbə getmişəm. O gün indiyə qədər xatirimdədir. Anam (Allah sənə rəhmət eləsin, Ana!) əlimdən tutub məni bu məktəbin həyətinə gətirəndə ağladım. Səbəbini yadıma sala bilmirəm. Keçirdiyim həyəcanmı, yoxsa məktəbin həyətindəki izdiham idimi məni ağladan? Dəqiqliklə xatırlaya bilmirəm. Təkcə o yadımdadır ki, anam dedi: Uşaqları özünə güldürmə və məni utandırma. On il burada oxuyacaqsan, özünü elə apar ki, mən sənə görə xəcalət çəkməyim.

Ana, sənin qurbanın olum! Sən onda bilmirdin ki, bu sözlər mənim həyatımın devizi olacaq. İstər orta məktəbdə, istərsə də ali məktəbdə oxuduğum vaxtlar və həyatımın sonrakı mərhələlərində həmişə nə edirdimsə birinci Səni düşünürdüm. Fikirləşirdim, görən anam bu hərəkətimə görə nə deyər, nəticədə o, xəcalətli olmazmı, göz yaşı tökməzmi?

Məktəb illərim çox maraqlı olub. Məktəbi fərqlənmə ilə bitirməsəm də, onun tarixində qalan şagird olmuşam. Bütün müəllimlərimlə xoş münasibətim olub və bu gün öz əmək fəaliyyətlərini davam etdirən və ya təqaüddə olanlar ilə zəngləşirəm və görüşürəm, xüsusən, sinif rəhbərim olmuş Asiya xanım Qarayeva, xarici dil müəllimlərim (ərəb dili) Balaxanım müəllimə və onun həyat yoldaşı Aslan müəllimə ilə. Məktəb müəllimlərimin əksəriyyəti dünyalarını dəyişiblər. Onların adlarını yada salmaq istərdim: İbtidai sinif müəllimim Teymur müəllim, tarixçi – Ağakərim Miskərli, Sədi müəllim, fizik – Niyazi müəllim, riyaziyyatçı – Mirqasım Əfəndiyev, Nəsrullah İsaki, musiqiçi – Nazim müəllim, kimyaçı – Ağabala müəllim, rus dili – Şəfiqə xanım, əsl ziyalılar olan və məktəbə rəhbərlik edən Mustafa müəllim, onun müavinləri Ceyhun xanım və Mirəli müəllim. Onların hər biri böyük şəxsiyyətdir. Biz onlara qürurla baxırdıq. Dünyasını dəyişənlərə Allah rəhmət eləsin!

Bizim dövrümüzdə müəllim və şagird arasında xüsusi bir münasibət yaşayırdı. Biz onlara ustad, onlar isə bizə şəxsiyyət kimi baxırdılar. Bizim problemlər onların problemi olurdu. Onlar çətinə düşəndə bizə müraciət edərdilər. Bir faktı burada qeyd etmək istəyirəm; Asiya müəllimə bizim məktəbə yenicə təyin olunmuşdu. Coğrafiya fənnini tədris edirdi. Onu bizə sinif rəhbəri təyin etmişdilər. Həyat yoldaşı Rəşid Qarayev idmançı – güləşçi idi. Hal-hazırda professordur və Azərbaycan Texniki Universitetində İdman kafedrasının müdiri vəzifəsində çalışır. Təzə ailə qurmuşdular. Məktəb illərində biz (Firəngiz, Məsmə, Esmira və mən) Asiya müəllimənin dərsləri ikinci növbədə olduqda və Rəşid müəllim imkan tapma-

yıb işdən evə tez qayıda bildikdə, biz onların uşaqlarına baxardıq. İsmət və Tələt çox balaca idilər. Bunu o, bizdən xahiş etməmişdi. Vəziyyəti biləndə biz özümüz belə qərar qəbul etmişdik. Bu sırada çoxlu misallar gətirmək olar.



III$^{b}$ sinfi – Sinif rəhbərimiz Teymur müəllim






Hamımız məhəbbət və sevgi ilə dolu həyat yaşayırdıq. Azrularımız böyük, deyərdim ki, tükənməz idi.

1968-ci ildə orta məktəbi bitirdim. Filoloq olmaq arzusunda idim. Ədəbiyyata böyük marağım var idi. O sevgi indi də ürəyimdədir. Bəlkə də səhv edirəm, o zamanlar gənclərdə oxumağa böyük həvəs var idi. Bədii ədəbiyyatı oxuyaraq bir-birimizə ötürərdik. Yadımdadır, «Dodaqdan qəlbə» romanını növbə ilə oxuyardıq. Mənə kitabı iki günlüyə vermişdilər. Gecələr yatmayıb onu oxudum. Elə bir kitab, elə bir yeni məqalə olmazdı ki, onu oxumayaq, bir-birimizə danışmayaq və müzakirə etməyək. Hamımız ali məktəbə daxil olmaq, mütəxəssis qismində həyata atılmaq arzusu ilə yaşayırdıq.

Məktəb yoldaşlarımın bir çoxu ilə indinin özündə də ailəvi əlaqə saxlayıram: – Füzuli və Rəna, Gəncəli və Firəngiz, Fuad və Məsmə, Yavər və Esmira.



X[b] sinfinin ən gözəl qızları

Sənədlərimi hazırlayıb Azərbaycan Dövlət Universitetinə vermək ərəfəsində sinif yoldaşım, sonralar isə tələbəlik və ailəvi dostum olan Füzuli Rəcəbovun qardaşları ilə söhbətimiz oldu və bu söhbətin yekunu, deyərdim ki, mənim bütün taleyimi müəyyən etdi. Onun böyük qardaşları Nadir və Sabir M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu

bitirmişdilər. El arasında bu ali məktəb AZİ adlandırılırdı və indi də belə deyirlər.



Dostum Füzuli

Sonradan qardaşlar texnika elimlər doktoru və professor kimi yüksək adlar qazandılar. Digər qardaşları Nizami və bacısı Gülnaz xanım da həmin institutun son kurslarında oxuyurdular. Onlar kiçik qardaşları Füzuliyə ali məktəb seçimində məsləhətlər verirdilər. Daha doğrusu AZİ ilə bağlı söhbətlər aparırdılar.



Azərbaycan Dövlət Neft Akademiyası

Onların sənətlərinə vurğunluğu, bu ali məktəbin adət və ənənələri haqqındakı söhbətləri, eləcə də mühəndis işinin gözəlliyilə bağlı danışıqları mənim ali məktəb və peşə seçimi ilə bağlı istəklərimin üstündən bir xətt çəkərək, başqa səmtə yönəltdi.

Həmin il neft-mexanika fakültəsinin «Maşınqayırma texnologiyası, metal kəsən dəzgahlar və alətlər» ixtisasına qəbul oldum. Füzuli ilə birlikdə 493-cü qrupa düşmüşdük. Əsl ziyalı, gözəl təbiətli və xoş rəftarlı müəllimlərimiz olub. Respublikada maşınqayırma sahəsində ilk professor və texnika elimlər doktoru olmuş Əbdüləli Mustafayev, Asif Cərrahov, Arif Rəhimov, Cahid Kərimov, Tamilla Bədəlova, Sara Ələsgərova, Elmira Ramazanova, Əhmədağa Əhmədov, Bibixanım İsmayılova, Bəhlul Əliyev və bir çoxları.

Ali məktəbin ictimai və mədəni həyatında aktiv iştirak edirdim. Qrupun komcomol katibi seçilmişdim. İnstitutun rəqs ansamblının üzvü idim. Bizim rəqs ansamblımız bir çox ölkələrdə konsert proqramları ilə çıxışlar edib. Yadımda qalanları – Moskva, Bolqarıstan, Moldova və s.





«Gənclik» mahnı və rəqs ansamblı Moskvada

Tələbə elmi cəmiyyətinin konfranslarında iştirak edirdim. Beş il müddətndə bu ali məktəbin divarları arasında baş verənlər haqda danışmağı vacib bilmirəm. Təkcə onu qeyd etmək istəyirəm ki, indiki tələbələr belə dolğun tələbə həyatı ilə yaşamırlar. Mən tələbəlik həyatımdan çox razıyam.

Birinci kursda qrupda 22 təbəbəydik, lakin kursun sonunda 10 nəfər qaldıq. Olnardan bir nəfəri qız – Sülemanova Zemfira, qalanları isə oğlandı – Rəcəbov Füzuli, Həsənov Rasim, Ağayev Rasim, Abbasov Nizami, Balazadə Şükür, Pənahov Şirzad, Əfəndiyev Mahmud, Hüseynov Məhyəddin və Həbibov İbrahim.





1973-cü ildə institutu bitirərək Xüsusi Konstruktor Bürosuna təyinat aldım. Birinci əmək haqqımı burada almışam. O zaman üçün mühəndisin ən aşağı maaşı 105 rubl idi. Bu maaşla 3-cü dərəcəli konstruktor kimi işə qəbul olundum. Bu müəssisənin əfsanəvi bir direktoru vardı – Cəfərov Şamil Talıboviç. Gözdən uzaqda biz ona ŞT deyərdik. Nə qədər sərt və tələbkar idisə də, bir o qədər də insanpərvər, zəhmətə qiy-

mət verən və birmənalı qərar qəbul edən insan idi. Respublikada hörmət və nüfuz sahibi idi. Belə insanlarla işləmək həmişə baş ucalığı gətirir. Mən həmişə fəxr etmişəm ki, Şamil müəllimin məktəbini keçmişəm. Bir il orada işlədikdən sonra bizim müəssisə ilə F.Dzerjinski adına (indiki Suraxanı) maşınqayırma zavodu əsasında «Neftemaş» elmi-istehsalat birliyi yaradıldı. Şamil müəllim bu birliyin baş direktoru vəzifəsinə seçildi. Onun təklifi ilə məni zavodun komsomol təşkilatının hesabat-seçki iclasında katib seçdilər. Mənim üçün qaynar bir həyat başlandı. Zavodun əsas işçi qüvvəsini gənclər təşkil edirdi. Onlar əsasən Əmircan, Bülbülə və Suraxanı qəsəbələrinin sakinləri idi. Mən qısa müddətdə onlarla ümumi dil tapıb, komsomol təşkilatının işini nəzərəçarpacaq dərəcədə aktivləşdirə bildim. Bir vaxtlar öz dəcəllikləri, əmək intizamını pozmaları ilə seçilən işçilərin arasından Gənclər briqadası yaratdıq. Bu briqada zavodda istehsal olunan dərinlik nasosunun hazırlanmasının bütün mərhələlərində iştirak edir və buraxılan məhsulun keyfiyyətinə tam zəmanət verirdi. Bu təşəbbüs bütün respublikada əks-səda salmışdı. Briqadanın üzvləri döş nişanları və medallarla təltif olunurdu. Onlar haqqında respublika qəzetlərində çoxlu məqalə və oçerklər nəşr olunurdu.

Zavodda işlədiyim müddətdə öyrəndiklərim mənə həyatım boyu yararlı olmuşdur. İnsanlarla rəftar, ekstremal şəraitdə qərar qəbul etmək, yaxşını yamandan seçmək və bu kimi məsələlərdə mən həmişə o illərin təcrübəsinə istinad edirəm. O illər maraqlı, yaddaqalan hadisələrlə dolu idi. Ətrafımda təmiz qəlbli, az yaşı olmasına baxmayaraq böyük çətinliklər, həyat problemləri ilə üzləşmiş gənclər var idi. Həmin illərdə bir qrup yeniyetmənin pis yollardan çəkindirilməsinə nail ola bilmişdim və bunu özümün böyük qələbələrimdən hesab edirəm. Neçə komsomolçu gənci evləndirmişdim, neçəsini ordu sıralarına yola salıb qarşılamışdım – dəqiq yadımda deyildi.



F.Dzerjinski adına maşınqayırma zavodunda iməclikdən sonra



Maşınqayırma zavodunun komsomol komitəsinin katibi (1974–1977)

Zavodda işlədiyim müddətdə institut ilə əlaqə saxlayırdım. Elmi işlər və tədrisə marağım günbəgün artırdı. İnstitut məni maqnit kimi özünə çəkirdi. Bu dövrdə mənə işimlə

əlaqədar olduqca maraqlı və perspektivli təkliflər edilirdi. Mən isə ali məktəbi seçdim və qəti əminəm ki, səhv etməmişəm.



Elmi rəhbərlərim professor S.Babayev
və professor A.Rəhimov



İnstituta gəlməyimdə mənə yardımçı olan, sonradan isə elmi işlərimə rəhbərlik edən mərhum Arif Rəhimovun ruhu qarşısında baş əyirəm. Sonrakı illərdə mənim elmi fəaliyyətimdə öz köməkliyini əsirgəməyən, daim mənə dəstək olan böyük alim və işıqlı şəxsiyyət Sabir Babayevə dərin təşəkkürümü bildirirəm.

1977-ci ildə müsabiqə yolu ilə Azərbaycan Neft və Kimya İnstitutunun «Maşınqayırma texnologiyası» kafedrasına assistent vəzifəsinə seçildim.

1983-cü ildə M. Lomonosov aldına Moskva Zərif Kimya Texnologiyası İnstitutunda namizədlik dissertasiyası müdafiə

etdim. Dissertasiya işinin təsdiqi bir az ləngidi. Hər zaman və çox yerdə olduğu kimi mənim də «xeyirxahlarım» öz işlərini görmüşdülər. Onlar haqda heç danışmaq belə istəmirəm. Mən Azərbaycandan Arif Rəhimova, Asif Cərrahova, Cahid Kərimova, Yaşar Bilalova, Feliks Məmmədova, Vahid Rəfiyevə, Eldar Şahbazova, Moskvadan V.N.Kulezneva, Q.V.Saqalayevə, S.V.Vlasova, N.L.Şembelə və Belarusdan A.V.Şerbakova öz dərin minnətdarlıqlarımı bildirmək istəyirəm. Mənim namizədlik dissertasiya işimin müvəffəqiyyətində onların böyük rolu olmuşdur və bu danılmazdır.

1973-cü ilin yanvar ayının 9-da gələcək həyat yoldaşım, övladlarımın anası, evimizin gəlini Nailə ilə tanış oldum. O, bizim institutda oxuyurdu. Tanışlığımızın xüsusi tarixi vardır. Bu haqda ayrıca yazmaq istəyirəm.

1974-cü il noyabrın 23-də toyumuz oldu. İki oğul atasıyam. Elcan – 29 sentyabr 1975, Elşən – 29 aprel 1978-ci ildə anadan olublar.

Onların hər ikisi mənim fərəhim, sevincim, dayağım və vüqarımdırlar. Özüm haqda hələlik bu qədər kifayətdir.



«Şadlıq sarayı» – kəbin günü



Mənim ailəm

## VALİDEYNLƏRİM:

Atam – Həbibov Əbülfəz Əli oğlu. 1905-ci ildə anadan olub, lakin doğum günü dəqiq deyil. Biz onun ad gününü fevral ayının biri qeyd edərdik. Əslən Cənubi Azərbaycandandır. Onun dediynə görə mənim babam Əli kişi XIX ərsin sonu, XX əsrin əvvələrində Azərbaycana gəlibdir.



Özünün savadı olmasa da bizi savadlı, hər hansı bir sənətin və ya ixtisasın sahibi görmək istəyirdi, bunun üçün hər şey edirdi. Atamı xatırlayanda ilkin olaraq onun əlləri gəlir gözlərimin qabağına.

Dünyasını dəyişəndə onun 82 yaşı var idi. O, olduqca zəhmətkeş və halal insan olmaqla bərabər, hörmətini sax-



Atam – Əbülfəz Əli oğlu

layan və hörmət gözləyən bir şəxs idi. Haqsızlığa və yalana qarşı dözümsüz idi. Sözünü açıq və birbaşa deyənə həmişə üstünlük verirdi.

Bu əməksevər insanın əlləri qabar-qabar, cadar-cadar idi. Yazmağı bacarmasa da, mütaliəni xoşlayardı. Nizaminin, Füzulinin pərəstişkarı idi. Tarixi və fəlsəfi kitablar əlinə düşəndə fasiləsiz oxuyardı onları. O dünyasını dəyişəndə mən Kiyevdə idim. Sentiyabr ayının 8-i idi. Bakıya çatana qədər onun mənə bəlli olan həyatını gözlərimin qarşısına gətirməyə çalışırdım. İlkin olaraq onun ağır baxışları, təmkinli hərəkətləri və uşaqlıqdan yaddaşıma həkk olan əlləri canlanırdı xəyalımda.

Əllərinə qurban olum, ay Ata,
Mən onları cadar-cadar görmüşəm.
Əl çəkəndə əllərimdə iz salan
Qabarların hər birindən öpmüşəm.

Bir an bekar olmayıbdır o əllər,
Haram tikə, haram para görməyib.
Dosta sarı yönəliblər hər zaman,
Namərdlərin qapısını döyməyib.

Alnının tərindən ətirləniblər,
Hərarəti alıbdılar ürəkdən.
Nə ediblər hər şey gözəl alınıb,
Söz tapmıram vəsf etməyə gerçəkdən.

Xəyalımdan əskik olmur o əllər,
Sanki taleh kitabımdır, ay Ata!
O əlləri sıxmaq üçün bağrıma,
İstərdim ki, qayıdasan həyata.

Ay Ata, Allah sənə rəhmət eləsin! Məzarın nurla dolsun! Biz hamımız sənə minnətdarıq. Sənin ruhun qarşısında baş əyirik.

Anam – Həbibova Xədicə Qasım qızı. 1923-cü il mayın 9-da Bakıda anadan olub və əslən bakılıdır. Onun valideynləri Şağan kəndindəndirlər. Böyük bir nəslin qızıdır.

Bizim tərbiyəmizdə, ümumiyyətlə həyatımızda onyn yeri və rolu əvəzolunmazdır. O, bizi bir dəqiqə də belə diqqətsiz və nəzarətsiz buraxmayıb. O zamanlar bu bizim xoşumuza gəlmirdi, tez-tez etirazımızı bildirirdik, lakin anama bunların heç bir təsiri yox idi. Mən sonradan dərk etməyə başladım ki, o, nə qədər haqlıymış.



Arxam, dayağım, qürurum və vüqarım, Ana!

Anam özünə qarşı hörmət tələb edən bir qadın idi. Haradasa özünə qarşı soyuqluq və qeyri-səmimilik görsəydi, mütləq münasibətini bildirməli idi. Sözünün yiyəsi idi Anam. Hər hansı bir qərara gəldisə, ondan dönməzdi. Mənə elə gəlir ki, anamdakı iddia və hökm tükənməzdi.

Onun üçün həll olunmaz məsələ və ya bağlı qapı yox idi. Bizə görə düşmən qapısına da getməyə hazır idi həmişə. Vəsiyyətini bizə qabaqcadan edib. Əsas sözü də o idi ki, biz həmişə mehriban və bir yerdə olaq. Bir-birimizi atmayaq, arxa və dayaq olaq. 15 ildən çox vaxt idi kı anam şəkər xəstəsi idi. Heç vədlə pəhrizini saxlamırdı...

Bu günə qədər tərcümeyi-halımla bağlı bunları vacib və maraqlı olduğundan qeydiyyata aldım. Allahın qismətiylə, taleyimə yazılan və mənim tərəfdən yaşanacaq günlər haqqında vaxt ötdükcə qeydlər edəcəyəm.

Kiyev şəhəri. Ukrayna
09.02.1988.

* * *

Hamı kimi məni də gündəlik dərslərlə məşğul olmaq və imtahanlara hazırlaşmaq çox yorurdu. Bir də qarşıda gələn Novruz bayramını evdə Sizinlə birlikdə keçirmək arzusu o qədər böyükdür ki, hər şeyi atıb Bakıya qayıtmaq istəyirəm.

Bu bayram bütün azərbaycanlılar üçün çox əzizdir. Yadıma düşür, uşaq ikən bu bayramın gəlişini səbirsizlikə gözlərdik. Məhəlləmizin arvadları bayramqabağı tədarük işləri aparardılar. Mütləq evlərimizin divarlarını əhənglə ağardardıq, qonşular yığışıb biri-birinə şəkərbura, şorqoğal və paxlava bişirməyə köməklik edərdilər. Bunu növbə ilə edərdilər. Biz də köməklik edərdik, xüsusən, şəkərburaya naxış vurmaq yarış xarakteri alardı. Valideynlərimiz mütləq nə isə təzə bir şey alardılar hər birimizə. Biz də onu geyinib öyünərək gəzərdik. Bayram günləri biri-birimizin evinə getmək, pay aparmaqdan ləzzət alardaq.



Novruz süfrəsi

Çərşənbə axşamlarının xüsusi gözəlliyi vardır. Bayram qabağı dörd həftə çərşənbə axşamları məhəllədə tonqal yandırar və onun üstündən tullanardıq.

Bu bayram uzun illər, minbir səylə qadağan edilməsinə baxmayaraq yaşayırdı və bu gün də yaşayır. Mən buna çox şadam. Adətləri qoruyub saxlamaq lazımdır.

Kiyev Dövlət Universitetinin öz qanunları vardır. Onlar bizi bu bayramda evə qayıtmağa icazə vermirlər. Birinci dəfədir ki, Novruzu sizsiz keçirəcəyəm. Məsləhət Allahdandır.

Gün ərzindəki gərginlik başımızı qatdığından vaxtın necə keçdiyini hiss etmirəm, axşamlar isə nostalji fikirlər məndən əl çəkmir. Rahatlığı yalnız yazmaqda tapıram. Hər dəfə özüm-özümə sual verərək, ona cavab axtarıram. Suallar çox, cavablar isə…



## MƏNİM ÜÇÜN MƏHƏBBƏT NƏ DEMƏKDİR?

Adətən insanlar arasındakı qarşılıqlı münasibətlər məhəbbət, hörmət, dostluq, nifrət və biganəlik şəklində təzahür olunur. Bunların sırasında məhəbbət ən böyük yaradıcı və ecazkar qüvvədir.



İnsan məhəbbətlə gəlir dünyaya

Qədim rumlardan bizə gəlib çatan bir deyim vardır. Orada qeyd olunur ki, allahların məhəbbətindən dünyalar, kişi ilə qadının məhəbbətindən isə insanlar yaranır. Bu məhəbbətin saflığından və təmizliyindən yarananın gözəlliyi və kamilliyi çox asılıdır.

Məhəbbət nədir? Onun gücünün və ömrünün ölçü meyarı varmı? Hansı əsaslara söykənir o? Tarix boyu bu suallar çoxlarını düşündürüb və onlara cavablar axtarıblar. Güman edirəm ki, bu dünya durduqca bəşər övladları bu suallarla öz-özünə və bir-birilərinə çox müraciətlər edəcəkdirlər.

Mən bu suallarla bağlı filosofların, tədqiqatçı alimlərin, məhşur yazıçı və şəxsiyyətlərin, böyük və mənalı ömür yaşamış insanların fikir və düşüncələrini təkrarlamaq və ya arqument kimi göstərmək istəmirəm. Öz həyat təcrübəm və onun əsasında qərara gəldiyim nəticələri Sizlərin diqqətinə çatdırmaq istəyirəm.

Siz hələ yeniyetməsiniz. Bir azdan bu hissiyyat, bu duyğu Sizlərin əqlinə, düşüncəsinə, ruhuna və cisminə hakim kəsiləcəkdir. Ondan qaçmaq mümkün olamyacaq və bunu etmək lazım da deyildir.

İlk andan sevmək və vurulmaq kimi iki duyğunu bir-birindən ayırmağı tövsiyə edərdim. Çox vaxt bu hisslərin düzgün qiymətləndirilməməsi səbəbindən böyük faciələr yaranır.

Sevən adam dəqiq bilməlidir ki, sevgilisi onun ömrü boyu axtardığı, həyat yolunu yalnız onunla keçirməyə hazır olan bir insandır və onu itirmək olmaz. Sevən adam sevgilisinin çatışmamazlıqlarını görə-görə onu sevir, bunlara görə sevgisindən dönmür və onun qoruması üçün qurbanlar verməyə belə hazırdır. İnsan sevdiyi andan artıq özü üçün deyil, onun üçün yaşayır və onunla birgə yaşayır. Sevən insan nəyinsə xatirinə (var-dövlət, ictimai və sosial mövqe, vəzifə və s.) və ya hər hansısa bir parametrlərə görə (gözəllik, qamət, rəng və s.) sevmir.

Əgər sevirsənsə sənin üçün onun səsinin ahəngi nə qədər məlahətlidirsə, gözləri bir o qədər cazibədar, saçlar bir o qədər ətirli və gözəl, bədən quruluşu eyni dərəcədə füsunkar olmalıdır. O ruhən və daxilən sənə ən əziz varlıq olmalıdır.

Vurğun insanda bu nəticələr hələ formalaşmayıb, burada söhbət ancaq təzahürdən, xoşa gəlməkdən gedir. Vurulmağın axırı heç də həmişə sevgi ilə nəticələnmir.

Ulu Tanrım məndən çox şeyi əsirgəmədiyi kimi, bu baxımdan da məni seçilmişlərin sırasında yaradıb.



Deyirlər ki, keyfiyyət baxımından məhəbbətin dörd növü mövcuddur: məcazi, həqiqi, əflatuni və ilahi.

**Məcazi məhəbbət** öz bəsitliyi və ötəriliyi ilə seçilərək, şəhvət hissinə və pozulmuş əxlaqa əsaslanır. O, necə yaranırsa eləcə də sona yetir. Mən bunu məhəbbət kimi qəbul etməsəm də, bu gün kitablardan, filmlərdən və televiziya proqramlarından bunu bizə məhəbbət kimi çatdırırlar.

**Həqiqi məhəbbət**, bəzən ona romantik də deyirlər – o, ailə qurmaq, istəyərəkdən və sevərəkdən dünyaya övlad gətirmək, onu tərbiyələndirmək və düzgün həyat yoluna çıxarmaq üçün əllərindən gələni edən kişi və qadın arasındakı qarşılıqlı şəkildə yaranan sevgiyə əsaslanır. Bu məhəbbətlə yaşayan

insanlarda sevgi o dərəcədə böyük və güclü olur ki, onlar həyat yollarında bütün maneələri aşaraq, bir-birilərinə dayaq olaraq, səhvlərini bağışlayaraq, təhriksiz və minnətsiz yaşayırlar. Belə ailələrdə məhəbbət sönmür. Yanbayan yaşayaraq, birgə ömür sürən və yaşa dolan ər və arvad üz cizgilərinin kobudlaşmasına, saçlarının ağarmasına və ya tökülməsinə, görkəmlərinin dəyişməsinə baxmayaraq həmişə bir-birilərinə məhəbbət dolu baxışla baxırlar. Zaman keçdikcə bu məhəbbət keyfiyyətcə dəyişsə belə ər və arvad arasındakı qarşılıqlı cazibə qüvvəsi öz tarazılığını saxlayır.

Ailədə övladın olması onun əsaslarını möhkəmlədərək, məna və əhəmiyyətini dolğunlaşdıraraq yadda qalan edir. Əlbəttə ki ailədə övlad olmadıqda da ər və arvad arasında məhəbbət yaşana bilər.

**Əflatuni məhəbbət** kişi və qadın arasında mövcud olan bir sevgidir, lakin o, özündən əvvəlkilərdən onunla fərqlənir ki, burada cismani münasibət yoxdur.

**İlahi məhəbbət.** Məhəbbətin ən yüksək pilləsi ilahi sevgisidir. Hər bir kəs üçün yolu açıq olan bu məhəbbətə çatmaq olduğca çətin bir əməldir. Ruhən zəif olan insanların çoxu bu məhəbbətin dadını duya bilmirlər. İnsanı daim daxildən didibdağıdan naqis qüvvələr bu yolda həmişə ona böyük maneədirlər. Bu qüvvələr sırasına aşağıdakılar aiddirlər: təkəbbür, hərislik, paxıllıq, tənbəllik, qisas, əxlaqsızlıq və qarınquluğuq.

Mən bunlardan hansının birinci və ya sonuncu, böyük və ya kiçik günah olması haqda danışmaq istəmirəm. Təkcə onu qeyd etmək istəyirəm ki, kamil insan olmaq üçün həmişə onlarla mübarizə aparmaq lazımdır. Kim buna nə dərəcədə nail olursa, bu onun nə dərəcədə güclü olmasını göstərir. Sevmək yalnız güclü insanlara mənsub olan bir ilahi payıdır. Sevmək ömrünü sevdiyin insana həsr etmək deməkdir. Bu sadə bir məsələ deyildir, belə ki, insanın daxilində baş qaldıran və bir-birinə ciddi əks olan qüvvəvəri düzgün istiqamətləndirməyi yalnız güclü və iradəli şəxsiyyət edə bilər.

Sevdiyin adamın ideallaşdırılmasının yaxşı hal olmadığı haqda çoxlu fikir və mülahizələrin varlığına baxmayaraq, bu həmişə böyük problemlər yaradır. Sevdiyin insan sənin idealınla tam üst-üstə düşmürsə sən onu buna məcbur etmə. Qoy o özü kimi görünsün və özü kimi olsun, əks halda o ikiləşəcək və nəticə yalana və başqa xoşagəlməz hallara gətirib çıxaracaqdır. Sevdiyin qadında bir zərrə belə şübhə yaranmamalıdır ki, sənin üçün ondan da yüksəkdə duran qadın var (anadan başqa), sən onu kimsəyə dəyişə bilərsən və ya kimsə onu əvəz edə bilər.

Heç vaxt düşünmə ki, sevdiyini çox yaxşı tanıyırsan və ya o, sənin üçün açıq və oxunmuş kitabdır. Əgər belədirsə, deməli məhəbbət ötüb keçib və sən bunu hiss etməmisən. Məhəbbətə bir gül kolu, bir ağac kimi daim qulluq etmək lazımdır, istər bu ailəliyin birinci ili, istərsə də əllinci ili olsun, fərq etməz. Mənim anam deyərdi: hiss etdin ki arvadın səni özünə cəzb etmir, çalış ki, ona yeni nəzərlərlə baxasan. Bunun üçün ona heç olmasa çit parçadan olsa belə bir paltar al, qoy geyib qabağında gəzsin. Və ya şirin bir söz tapıb de, təriflə onu gör necə pərvazlanacaq, onda sənin də fikirlərin dəyişəcək və hissiyyatın təzələnəcək, ruhun şadlanacaq. Bu sözlərdə böyük həqiqət vardır. Yaş artdıqca xoş sözə və qayğıya olan ehtiyac da artır, xüsusilə qadının.

Məhəbbət olmayan evdə min çıraq yansa belə orada zülmət hökm sürəcəkdir. Ürəkdə məhəbbət varsa o soyuq daşı əridəcəkdir. Məhəbbət ruhun istinad yeri olmalıdır.





Ruhun istinad yeri

Məhəbbəti tam açıqlayan bir formula yoxdur. Onu insan beynində baş verən kimyəvi proses, auraların uyğunluğu, ruhların bir-birini tamamlaması və sairə bu kimi fikirlərlə əsaslandırılmasını qəbul etmirəm. Mənə elə gəlir ki, məhəbbəti qarşılıqlı sevgi, hörmət, diqqət, qayğı, məsuliyyət və sədaqətin məcmusu kimi qəbul etmək olar.

Ulu Tanrım! Sən insanların ürəyində məhəbbət odunu söndürmə. Məhəbbətlə döyünən ürəkdə və bu ürəyi gəzdirən insanda qəddarlıq, zülm, satqınlıq və paxıllıq hissləri ola bilməz. Məhəbbətsiz ürəklərdə böyüklərə hörmət, kiçiklərə isə qayğı yaşana bilməz.

Kiyev şəhəri. Ukrayna
18.03.1989.

* * *

Artıq 6 aydan çox bir müddətdir ki, mən Kiyevdəyəm. Bu şəhər mənə olduqca doğmalaşıb. Mən SSRİ-nin bir çox şəhərlərində olmuşam, ən çox da Moskvada, lakin heç vaxt olduğum şəhərlər Kiyev qədər mənim üçün mehriban və əziz olmamışdır.

Bildiyiniz kimi Kiyev müasir Ukraynanın və Rusiyasının tarixi paytaxtıdır. Dnepr çayı üzərində yerləşir. Qədim kilsə və monastırlar, geniş bulvarlar, gözəl mənzərələr və müxtəlif mədəni mərkəzlərlə zəngindir. Bahar fəslində xüsusən təmtəraqlı və yaraşıqlı olur. Şəhərin bütün yolları boyu əkilən şabalıd ağaclarının çiçəklərinin ətri insanları məst edir. Hər tərəfdəki səliqə və sahman, təmizlik və gözəllik, eləcə də şəhər əhalisinin bir-birinə və qonaqlara olan xoş rəftarı buranı digərlərindən fərqləndirir.

Ukrayna adı köhnə Slavyan dilində «sərhəd ölkəsi» mənasını verir. Tarixçilərin dediyinə görə bu dövlət IV yüzilliyin sonunda formalaşıb və Avropanın təsiri bu ölkədə böyük olub. O zamanlar Kiyev şəhəri «Rus şəhərlərinin anası» adlandırılırdı.



Kiyev şəhərinin məşhur Azadlıq meydanı



Təkrarolunmaz gözəllik – şabalıd ağacının çiçəkləri

1240-cı ildə monqollar (Batı xan) bu şəhəri talan edərək, oda qərq etmişdir. Sonradan monqol əsarəti polyakların əsarəti ilə əvəz olunmuşdur. Yalnız 1648-ci ildə Boqdan Xmelnitskinin rəhbərliyi ilə Polşaya qarşı böyük üsyana qalxan yerli əhali nəticədə Ukrayna dövləti olan Kazak Atamanlığını qura

bilmişdir. I Dünya müharibəsindən sonar, 1919-cu ildə Ukrayna Sovetlər Birliyinin tərkibinə daxil olmuşdur. Ukraynanın əhalisi 50 milyon nəfərdir.

Dərslərdən yorulduqda və ya onları təkrarlamaq istədikdə mən bu şəhərin park və xiyabanlarına gəlib, sakit bir guşədə oturmağı çox sevirəm. Dneprin sahilləri, məhşur Krişşatik bulvarı, Nəbatət parkı və s. olduqca mənzərəli yerlərdir. Ümumiyyətlə Kiyevin hər tərəfi yaşıllıqdır. Mən burada yaşadığım dövrdə müxtəlif təbəqələrə mənsub olan insanlarla dostluq edirdim. Bu sırada yüksək adlı alimlər, hərbiçilər, neft sahəsində işləyən mühəndis və fəhlələr, kənd adamları və s. göstərmək olar. Hər dəfə qətiyyətim artır ki, kiyevlilər gözəl insanlardır. Qrupumuzdakı uşaqlarla tez-tez yığışıb söhtətlər edirik. Burada çoxlu azərbaycanlılar da yaşayır.

Kiyev şəhəri. Ukrayna
19.03.1989.

***

Böyüdüyüm mühit və yaşadığım həyat tərzi məndə ailə, onun təmizliyi və müqəddəsliyi kimi amillərə ciddi baxmağı öyrətmişdir.

Mən hələ ailə həyatı qurmamışdan əvvəl, orada qarşılıqlı münasibətlərin necə olacağı haqqında çox düşünür və özüm üçün müəyyən qərarlar qəbul edirdim. Mənim üçün bir fakt danılmaz və tam aydındır: Ailədə hər kəsin öz yeri olmalıdır, münasibətlər qarşılıqlı hörmət əsasında qurulmalıdır. Böyük öz böyüklyüynü başa düşməli, kiçiklər isə kimliyini dərk etməlidirlər.

Çin fəlsəfəsində göstərildiyi kimi – Ata ailənin imperatorudur. Ona münasibətlər bu yanaşmadan qurulmalıdır və ailədə əsas məsuliyyət evin böyüyü olan Atanın üzərinə düşməlidir. Ailənin sağlamlığında və xoşbəxtliyində onun rolu olduqca yüksək olmalıdır. Ana ailənin müqəddəs və əvəzolunmaz simasıdır.

## XOŞBƏXTLİYİ NƏDƏ GÖRÜRƏM?

Mövzu ilə bağlı ilkin olaraq onu demək istəyirəm ki, bu günə qədər xoşbəxtliyin nə olması haqda tam izahat yoxdur və bu sual hələ uzun müddət aktual olacaqdır.

Bəs mənim üçün xoşbəxtlik nə deməkdir, onu nədə görürəm, o hansı zamandan başlanır?

Bu sualla mənə 20 il bundan əvvəl müraciət edilsəydi, ona gəncliyə məxsus olan optimizm və maksimalizm nöqteyi-nəzərdən cavab verərdim. Bu gün isə bu sualın ağırlığını və mürəkkəbliyini hiss edirəm.

Məsələ ondadır kı, rast gəldiyim insanlarla söhbətlərimdə və oxuduğum kitablarda həmişə bu suala cavab axtarmışam. Cavabların rəngarəngliyi və ifrat dərəcədə bir-birindən fərqli olması məndə müəyyən bir çaşqınlıq yaradırdı. Kimisi xoşbəxtliyini ailəsində və sağlamlığında, sənətində və azadlığında, bəziləri isə rifahında, dünya malında, pulda və sairədə görürlər. Qeyd etməliyəm ki, xoşbəxtliyini ailə səadətində axtaranlar bu sırada dominantlıq təşkil edirdilər. Belə bir kəlam da vardır: O kəs xoşbəxtdir ki, ailəsində xoşbəxtdir. Universal bir məntiqin olmadığını müəyyən etdikdən sonra mən bu suala öz cavabımı axtarmağa başladım.

Xoşbətliyin çəki, miqyas və ya ölçü vahidi yoxdur. Bu səbəbdən onun azlığı və ya çoxluğu, tamlığı və ya yarımçıqlığı haqda danışmaq olmur. Bir şeyi dəqiq deyə bilərəm ki, o nə çox, nə də ki əbədi olmur. O, bir anlıq və qısamüddətli olur, lakin onun alovu, istisi, hərarəti bütün ömrə kifayət edir.

İnsanların böyük əksəriyyəti ömürlərini ailədə, əvvəlcə valideynləri və yaxınları ilə, sonra isə həyat yoldaşı və qismət olarsa övladları ilə keçirirlər.

Əgər valideyn və bacı-qardaşının sənə olan məhəbbətini və qayğılarını düzgün qiymətləndirə bilərsənsə və onların

bu hörmətinə məsuliyyəttlə yanaşa bilərsənsə sən onlara sevinc bəxş etmiş olarsan. Məhz bu andan sənin üçün xoşbəxt həyat tərzinin təməli qoyulur. Əgər sən özün artıq ailənin başçısısansa, onda xoşbəxliyini həyat yoldaşın və övladların qarşısında məsuliyyətin sevgi və hörmətlə icrasında axtarmalısan.

Həyatda «subaylıq – sultanlıq» deyənlər məndən inciyə bilərlər, lakin mən bir şeyi dəqiq bilərəm ki, xoşbəxtliyin bir parametri ailə qarşısında öz məsuliyyətini nə dərəcədə yerinə yetirməyindən asılıdır.

Şərqdə doğulub boya-başa çatan və İslam ənənələri ilə tərbiyə almış bir insan kimi, mənim üçün ailə həmişə müqəddəs bir ocaqdır və onun evin kişi tərəfindən idarə olunması mütləq qəbul edilmişdir. Bununla bərabər, ailədə qadınına böyük məhəbbətlə yanaşı, yüksək hörmət və ehtiram bəslənməlidir. Ailədə xoşbəxtliyin bir göstəricisi də qarşılıqlı hörmət və ehtiramla müəyyənləşir. İlkin olaraq ər və arvad, sonra isə övladlar arasında.

İran şahı Qeysəddin Keyxosrovun xanımına olan münasibətini mən Şərqdə və İslam dünyasında qadına olan münasibətin gözəl sübutu kimi qəbul edərək, həmişə yaxınlarıma danışıram.

Atasının vəfatından sonra İran taxt-tacına sahib olan Keyxosrov böyük məhəbbətlə sevdiyi xanımının şəklini özününkü ilə birlikdə, ölkədə kəsilən pulların üzərində həkk etdirir. Qeyd etmək istəyirəm ki, bu xanım millətcə gürcü olub. Bu əməlinin şəriətə zidd olduğu ona çatdırıldıqda, Keyxosrov həmin şəkli dəyişdirərək, bir pəncəsində qılınc tutan aslan və onun başının üzərində günəş rəsmilə əvəz olunması haqda əmr verir. Bunların nəyə işarə olduğunu ondan soruşduqda o, belə bir izahat verir: Pəncəsində qılınc tutan aslan mənəm, başımın üstündə işıq saçan günəş isə mənim qadınımdır.




İslam inqilabına qədər İranda dövriyyədə olan pul vahidi

Ailədə xoşbəxtliyin bir faktoru da orada stabilliyn saxlanmasıdır. Bunun üçün ən azı ailədə qarşılıqlı sevgini qoruyub saxlamaq və həyat yoldaşına qarşı sadalananlara riayət etmək lazımdır.

| | | | | |
|---|---|---|---|---|
| | | Nəzakətlilik | | |
| Aliənin | | Diqqətcillik | | Qarşılıqlı |
| stabilliyi | = | Minnətdarlıq | + | sevgi |
| | | Yerli və ya yersiz tənqid etməmək | | |
| | | Hər şeyə görə irad tutmamaq | | |
| | | Zorla xasiyyətini dəyişməyə çalışmamaq | | |

İnsan ailə həyatını bir dəfə və həmişəlik qurur. Bu səbəbdən tələsgənliyə qətiyyən yol vermək olmaz. Bəli, bu işdə məhəbbətin olması vacibdir, lakin onunla bərabər bir sıra məsələlərə geniş baxılmalıdır. Bu yerdə ataların bir sözü alternativsiz qəbul edilməsini vacib hesab edirəm: Min ölç, bir biç.

Real həyatda ikinci nikahda xoşbəxt olanlar da vardır, lakin bu çoxluq təşkil etmir və mənim fikrimcə, belə ailələrdə xoşbəxtlik tam ola bilməz.

Ailə qurduqda hər şeydən əvvəl ər və arvad arasında mənəvi prinsiplərin nə dərəcədə uyğun olması qiymətləndirilməlidir. Bizlərdə deyirlər ki, ərlə arvadın torpağı bir yerdən götürülüb. Əgər burada tarazılıq yoxdursa evlənməyə dəyməz.

Ər və arvad arasındakı münasibətlər dostluq səviyyəsinə qədər yüksəlməlidir. Belə cütlükdən yaranan övlad, gözlərini dünyaya açanda gözəllik, xoş münasibət, valideyn məhəbbəti, qarşılıqlı hörmət gördüyündən o, mütləq müsbət keyfiyyətli insan olacaq, həmişə ailəsinin, elinin və Vətənin adını üca tutacaq. L.N.Tolstoyun bir fikrilə tam razıyam – xoşbəxt o adamdır ki, evində xoşbəxtdir. Bu anda yadıma kiçik uşaqlar üçün yazılmış və böyük mənası olan bir şeir düşdü, ancaq o rus dilindədir:

Если дома папа-мама,
Лампа светит на столе,
Это значит, самый-самый
Ты счастливый на земле.

Если братья-сестры рядом,
Все с тобой до одного,
Это значит, что не надо,
В жизни больше ничего.

Bu dünyada insana şərəf gətirən heç bir şey asanlıqla əldə olunmur. Yalnız qoyulmuş məqsədə doğru inamla addımlayan, zəhmət və halallığı əldə bayraq edən insan istədiyinə nail ola bilər. Əgər ilkin olaraq ona bu işdə ata və anası, qardaş və bacısı, dost və tanışları yardım edirlərsə, ailə qurduqdan sonra onun əsas dayağı ailəsi olmalıdır. Ər və arvad, övlad və valideynlər arasında münasibətlər qarşılıqlı inam üzərində qurulmalıdır. Ailədə inam yoxdursa, deməli o ailə yoxdur. Ailənin xoşbəxtliyi inamdadır. Ümumiyyətlə inam möcüzələr yaradır.

Kiyev şəhəri. Ukrayna
21.03.1989.

## HƏYATIN MƏNASINI VƏ YAŞAMAQ PRİNSİPLƏRİNİ NƏDƏ GÖRÜRƏM?

Təbiətdə canlılar çoxdur. İnsan isə bu canlıların alisidir. İnsanı yaratmaqla Ulu Tanrı onu seçilmişlərin sırasına daxil edərək, ağıl, kamal, zəka və s. bu kimi gözəl xüsusiyyətləri bəxş edir. Bunlarla bərabər, seçilmişlərin içərisində bir daha seçilmiş olmaq üçün hər bir insana xüsusi istedad və bacarıq vermişdir. Bu bizim daxilimizdədər. Onu aşkarlamaq üçün insanda səy və bacarıq, başlıcası isə iradə olmalıdır. İradəni formalaşdırmaq isə hər bir kəsin öz öhdəsinə verilmişdir.

İnsan dünyaya müəyyən bir təyinatla gəlir və onun icrası hər bir kəs üçün həyatın mənasına çevrilir. Bu o demək deyildir ki, oğru, quldur, satqın və sairənin həyat yolu onun təyinatına və «alın yazısına» müvafiqdir. Bu səhv fikirdir. Çox zaman biz özümüzün və ya kimsənin uğursuzluğunu məhz bu cür dəlillərlə təsdiqləməyə çalışırıq. İradəsizliyimizi, onun möhkəmlənməsi istiqamətində heç bir səy göstərməməyimizi nəzərə almırıq. Halbuki, hər bir şeyin səbəbini birinci öz daxilimizdə, iradəmizin nə dərəcədə zəif və güclü olmasında axtarmalıyıq. Bunun üçün isə həyatda məqsədimizi (mənanı) və ona çatmaq üçün prinsiplərimizi müəyyən etməliyik.



Orta məktəbi bitirmək ərəfəsində hamımız «Xatirə dəftəri» tərtib edərək, orada biri-birinə olan arzu və istəklərimizi qeyd edirdik. Bu dəftər indiyə qədər durur. Çoxsaylı xatirələrin birisi də bizim $10^b$ sinfində tarix fənnini aparan Sədi müəllim tərəfindən yazılıb və orada belə yazı vardır:

Gedən birdir, gələn birdir, qalan bir.
Gedən gəlməz, gələn qalmaz, əcəb sirr.
Bir əvvəl var, bir axır var deyirlər
Yalan sözdür, nə əvvəl var, nə axır.

Zənnimcə Sədi müəllim və bu bəndin müəllifi heç də Allahın buyurduqlarının əksinə getmirdilər. Bəli, kainat və

həyat sonsuzdur. Biz varıq, gedən cismimizdir, ruhumuz isə əbədidir. Əgər öləcəyiksə nə üçün bu dünyada əziyyət çəkməliyik – fikrini tamamilə rədd edirəm. Bu dünya sınaq və imtahanlar dünyasıdır. Və bütün bu imtahanlar Ruhumuzun təmizlənməsi, paklanması və möhkəmlənməsi üçündür. Xoş söz, təmiz əməl və xeyirxahlıq bu istiqamətdə aparılan işlərin açarıdır və bütövlükdə bu bircə kəlmə sözlə ifadə olunur – AD.

İnsanın həyatının mənası bu AD-ı qazanmaq və onu şərəfli etməkdən ibarət olmalıdır. Bu AD-a çatmaq üçün insan bir sıra prinsiplərə riayyət etməlidir:

1. Bunların əsasını ona həyat bəxş edən ata və anaya hörmət, ehtiram və məhəbbət bəsləmək təşkil edir. Bu prinsip bütün dinlərin əsasıdır. Valideynləri gözləri yolda qoymaq olmaz. Sənin bir zəngin, bir gəlişin, bir xoş sözün onlara dünyada hər şeydən əziz və qiymətlidir. Ata–ana Allahın qismətidir. Ulu Tanrı üç cür insanın günahını bağışlamır: satqın hökmdarın, təkəbbürlü kasıbın və valideynlərinə zülm verən övladın.

2. İnsanın özünə və ətrafındakılara olan münasibəti həyatda yaşamaq prinsiplərinin aparıcı bəndlərindən biridir. Hər bir kəs ilkin olaraq özünü tanımalı, öz hörmətini qorumalı və artırmalıdır. Peyğəmbərimiz buyurubdur – Hər kəs özünü tanıya bilsə, öz Pərvərdigarını da tanıya bilər. Özünə hörmət və məhəbbətin həddi olmalıdır, əks halda bu eqoizmə çevrilə bilər. Bu isə sağalmaz xəstəlikdir.

3. Xeyirxahlıq insan üçün həyat tərzi olmalıdır və bu ilk növbədə onun ailəsinə, yaxınlarına və dostlarına yönəlməlidir. Xeyirxahlığı altruizmlə səhv salmadan, qohum və qonşuların işinə yararlı olan insan üçün vacib amillərdəndir.

4. Vətənə məhəbbət, milli və dini ənənələrə hörmət bəsləmək, doğma dilini və tarixini bilmək, keçmişini yad etmək, mədəni irsi qoruyub saxlamaqla bərabər, hər bir normal insanda beynəlmiləl prinsiplər yaşanmalıdır.

5. İnsan qoyduğu məqsədə doğru getmək üçün seçdiyi yolda mətinlik göstərmək, hər cür çətinlikləri qarşılayıb dəf

etməyə hazır olmaq, qorxu hissini boğmaq, mübarizlik pilləsində durmaqla kompromis təklifləri dinləmək və qiymətləndirmək kimi qabiliyyətləri özündə yaşatmalıdır.

6. Verdiyi sözə və vədə sadiq qalmaq, onları layiqincə, yüksək səviyyədə, ədəb-ərkan çərçivəsində yerinə yetirmək, bu zaman dəqiq və həssas olmaq, insanı son olaraq şərəfli etmək yolunda olduqca önəmlidir.

Düşünürəm ki, həyatda alışıb yanmadan şöləlin ib işıq saçmaq münkün deyildir. İnsan həyatını aktiv yaşamalıdır, onun ömrü axar çay kimi olmalıdır. Mənbəyi kiçik çeşmə və bulaqlar olan çay gücünü toplayıb böyük axına çevrilərək, qabağına çıxan maneələri necə dəf edirsə və bəzən buna nail olmayanda sağa-sola burulub və ya xırda qollara bölünüb axınını davam etdirərək, sonradan yenə də birləşərək istiqamətini davam etdirirsə də, insanın da həyatı belə olmalıdır. Durğun su zaman keçdikcə iyləndiyi kimi, passiv həyat boşluqla sonlanacaqdır.

Kiyev şəhəri. Ukrayna
28.03.1989.



## İNSAN ÖZÜNƏ KƏNARDAN BAXA BİLSƏYDİ, KİMLİYİNİ DƏQİQ MÜƏYYƏN EDƏRDİ

Bu bir həqiqətdir ki, insanı özü tanıdığı kimi bir kəs tanıya bilməz və onun özü haqda adekvat fikir söyləməsi mümkün deyildir. Əgər hər birimiz öz xarakterindəki və rəftarındakı çatışmamazlıqları görüb düzgün qiymətləndirə bilsəydi yer üzərində bu sayda problemlər olmazdı. Təbiətdə «yaxşı insan» və «pis insan» anlayışları nisbi xarakter daşıyır, belə ki, bu mütləq fikir deyildir. Güman edirəm ki, insanın bu kateqoriyalara yaxınlığını **səmimilik dərəcəsi** anlayışından istifadə etməklə müəyyən edə bilərik. Məsələ ondadır ki, beynində yaşayan və ürəyindən keçən hər hansı bir arzu və xəyalın,

həyatda icra olunan iş və ya əməlin, sən və cəmiyyət tərəfindən qəbul olunub olunmamasından asılı olmayaraq, onların təfsilatını ətrafındakılardan gizlətmək iqtidarında olsan da belə, heç vaxt özündən gizlədə bilməzsən. Lakin hər kəs gördüyü işində və hərəkətində, hətta bağışlanılmaz bir əməlində də özünün düzgünlüyünü qəbul edir və ya özünə haqq qazandırmağa çalışır. Bunun üçün bir sıra dəlil və əşyanı yüz faizli sübut kimi ortalığa çıxarmağa da cəhd edir. Zaman keçdikcə özünü bu uydurma faktlara inandırır, səhv hərəkətini etiraf etməkdən və səmimilikdən uzaqlaşdırır. Hər birimiz belə bir halla raştlaşmışıq. Kim buna etiraz edirsə, artıq o səmimi deyildir.

Biz səmimiliyi çox vaxt düzgün qiymətlənlirə bilmirik. Bunun üçün universal bir ölçü vahidi və yaxınlaşma metodu yoxdur. Səmimilik bir sıra faktorlardan asılıdır. Mənim aləmimdə bu sıraya şəxsiyyətin daxili dünyasının aşkarlıq dərəcəsi, onda olan yalan və düzgünlük, bədxahlıq və insanlıq, xeyirxahlıq və zülmkarlıq, yaxşılıq və pisliyin hansı nisbətdə olması, özgənin ağrısını və dərdini qəbul edə bilib-bilməməsi, sədaqətə və xəyanətə münasibət və bu kimi digərləri daxildir.

İnsanın özünü tanıması üçün (bunun üçün isə əməllərinə düzgün qiymət verməyi bacarmaq lazımdır) onun həyatında heç olmasa bir dəfə özünə kənardan baxması kifayətdir. Bu olduğca çətin bir iş olmasına baxmayaraq, zənnimcə ən vacib şərtdir. Uşaqlıq yaşımızda bunu dərk etmirik, gənclik illərində daxilimizdəki optimizm bu işdə böyük əngəlliklər yaradır, yaşlandıqca isə formalaşmış fikir və prinsiplər bizi bu addımı atmağa qoymur.

Hər kəs özünə kənardan baxa bilirsə o kamil insandır.

Kiyev şəhəri. Ukrayna
01.04.1988.

## VƏTƏN MƏHƏBBƏTİ, VƏTƏN SEVGİSİ

Evə qaytmağımıza 10 gün qalıb. Bilsəniz Sizlər üçün, bir də hər daşı, döngəsi, küncü və bucağı mənə əziz olan Bakım üçün nə qədər darıxmışam.

Qarşıda buraxılış imtahanımız olacaqdır. İngilis dilli qruplar üçün imtahanlar 25.06.88 taxirinə nəzərdə tutulmuşdur. Açığını deyim ki, böyük həyəcan keçirmirəm. Lakin imtahan– imtahandır! Əsas fikirlərim və düşüncələrim Sizlərin yanındadır. Bir də məni olduqca narahat edən bir məsələ – bizim respublikada son aylarda baş verən hadisələrdir. Ermənilər bizim üçün ən müqəddəs olan torpağa nankorcasına iddia edirlər – tarixən bizim olan bir çox şeylərə sahib çıxdıqları kimi, indi də Qarabağa göz dikiblər.



Dünyanın ən gözəl şəhəri – Bakı

Mən özüm beynəlmiləl ruhda böyümüşəm. Gözümü açandan yaşadığımız məhəllədə sağımızda və solumuzda ermənilər, ruslar, tatarlar, yəhudilər və sairələr olublar. Bir-birimizə qarşı həmişə hörmət saxlardıq. Lakin bu münasibətləri dərin-

dən təhlil edəndə və bugünkü vəziyyətlə əlaqələndirəndə nə dərəcədə avam və düşüncəsiz olduğumuzu dərk etməyə başladım. Sovetlər hakimiyyətinin bir sıra müsbət cəhətləri vardı və bu danılmazdır. Bunlardan təkcə birini qeyd etmək istərdim – güclü təhsil sistemi və onun hamı üçün münkünlü olmasıdır. Bununla yanaşı, tariximizin qapalı saxlanması, onu yeddi qıfıl arxasında gizlətməsi bizim hamımızı yarımçıq insanlara çevirmişdi. Mən, ali təhsilli, elimlər namizədi dərəcəsi almış bir şəxs nəinki uzaq, heç yaxın tariximizi belə dəqiq bilmirdim. Nənəm bizə «erməni qırğınından» danışanda təəccüblənirdim və ona inana bilmirdim. Düşünürdüm, necə ola bilər ki, 40-50 il bundan əvvəl bizi qırıb-çatan bir millət indi süfrəmizin başında əyləşir, qızlarımız onların evlərinə gəlin köçur və əksinə. Yəni bizim yaddaşımız bu dərəcədə dayazdır? Məgər bizdə milli qürur yoxdur və ya biz bir millət kimi hələ də tamamlanmamışıq? Bizim tarixçilərimiz nə ilə məşğuldurlar? Püstə xanım Əzizbəyova, İqrar Əliyev, Cəmil Quliyev və başqaları nə düşünürlər?

Yetmiş ildir bizə ancaq Sovetlər ölkəsinə məhəbbət aşılayırdılar, azərbaycançılıq yasaq edilmişdi. Ümumiyyətlə haradan yaranıb bu ad? Onu kim verib bizə? Bu suallar məni hər gün düşündürür, ruhuma və cismimə hakim kəsilibdirlər. El arasında əldən ələ ötürülən və tariximizlə bağlı yazılar da bu suallara cavab vermir. Necə maariflənək, kimdən soruşaq? Bir istinad yeri varmı? Ermənilər belə vəziyyətdə öz kilsələrinə müraciət edirlər. Qısa bir müddət ərzində dünya erməniləri İrəvanda baş verənlərdən xəbər tutur və ona dayaq olurlar. Erməni dilinin və əlifbasının qorunub saxlanmasında, dinin yayımasında, millətin birləşməsində, tarixlərinin möhkəmlənməsində bu strukturun xidmətləri böyükdür. Bəs biz kimə ümid edək? Onlardan fərqli olaraq, bizim məsçidlərdə İslam tarixində millətin yeri və rolu haqda heç bir şey deyilmir. Bizlərin yadına məsçid yalnız «Aşura günü» və dəfn mərasimində düşür. Mən güclü etiqad sahiblərini, mömin insanları

nəzərdə tutmuram. Bu gün yer üzərində insanlıq onlanın varlığı hesabına yaşayır. Allah bəlkə də onların üzünə bizlərin günahını bağışlayır. Mütləq belədir, əks halda dünya dağılmalıdır.

Dinin təbliği istiqamətində çox az iş aparılır. Bu səbəbdən Bakıda müxtəlif təriqətlər, sektalar, qurumlar inkişaf edir. Allah! Sən özün bizləri hifs elə, bizim günahları bağışla.

Kiyev şəhəri. Ukrayna
20.06.88.

* * *

İnana bilmirəm ki, 4 gündən sonra sizlərlə birlikdə olacağam. Elə darıxmışam sizlər üçün, izaha söz tapmıram. Sizləri qucaqlamaq, öpmək, istinizi hiss etmək mənim üçün müqəddəs bir arzuya dönüb. Vaxt da elə asta ötür ki, elə bil saatların əqrəblərindən ağır yük asılıb, həyat dayanıb, Yer kürəsi fırlanmır. Bu müddət təkcə mənim üçün deyil, hamımız üçün çətin olub. Xüsusən mənim sevimli Naykam üçün. Onun ağlı, səbri və qabiliyyəti qarşısında baş əyirəm.

Sənsə, Elcan, artıq imtahanları verib 7-ci sinfə keçmisən. Belə imtahanlar çox olacaq. Həyat imtahanları ilə müqaisədə bunlar heç nədir. Lakin qoxmaq lazım deyildir. Məqsədə doqru, irəli getmək lazımdır. Əgər qarşıda maneə və ya bir çətinlik varsa düşünərəkdən, təmkinlə onu həll etmək lazımdır. Əsas odur ki, çətinlikdən qorxmayasan və onun həllini bu gündən sabaha və daha sonraya ötürməyəsən. Problem varsa onu qəbul edib, mütləq axıra qədər həll etmək lazımdır! Hər bir problem ilkin olaraq çətin və həllolunmaz görünür, lakin onun həllinə tərəf addımladıqca görürsən ki, bunu da aradan qaldırmaq olarmış. Onda rahatlıq tapırsan. Bunu bir az təbiətlə əlaqəli izah etmək istəyirəm: Gözəl havada gəzintiyə çıxan, lakin qəfil yağış başlayanda islanmaqdan qorxaraq ora-bura qaçıb gizlənən adamlardan fərqli olaraq, mən həmin an üzümü

göyə tərəf tutaraq, onu yağış damcıları ilə tam isladandan sonra tələsmədən hərəkətimi davam etdirməyi xoşlayıram. Bu hal mənə, yağışda boynuna damcı düşməsin deyə onu hər vəclə örtməkdən çox rahatlıq verir. Qardaşın Elşən kiçikdir, ona qarşı diqqətli ol və bu yazdıqlarımı ona başa sal! Yaşının az olmasına baxmayaraq hərəkətlərində özünü böyüklər kimi aparmaq istəyir. Bir azda tələsgənliyi var. Ona tam formalaşana qədər həmişə nəzarət etmək lazımdır.

Kiyev şəhəri. Ukrayna
23.06.88.

## İNSANA ARXADIR, DAYAQDIR QARDAŞ

Bu gün buraxılış imtahanını verdim. İmtahan müvəffəqiyyətlə keçdi. Axşam Kiyev Universitetinin Xarici dillər fakültəsində kursu bitirməyimizlə bağlı təntənəli gecə keçiriləcəkdir. Yazılarımı bir daha nəzərdən keçirməyə vaxtım vardı.

Ulu Tanrı məni xoşbəxlərlərdən biri edərək, mənə mərd və zəhmətsevər qardaşlar bəxş etmişdir. Bizim ailədə, böyük-kiçik məsələsi ata-babalarımızdan qalan prinsiplər əsasında qurulmuşdur və bu gün də davam etdirilir.

Taleyin qisməti elə gətirib ki, mənim valideynlərimin hər biri həyatlarında iki dəfə ailə qurmalı olublar.

Atamın birinci arvadı – Varvara Vasilyevna yaşca özündən böyük və millətcə rus idi. Onların bu nikahdan bir qızı – Sara və iki oğlu: Yusif və Viktor dünyaya gəliblər. Biz hamımız atamızın birinci arvadına *Varya mama* deyərdik. Bu anamızın məsləhəti idi. Bacı və qardaşlarım arasında münasibətlərimiz həmişə səmimi və yüksəksəviyyəli olmuşdur və bu gün də onlarla əlaqədəyik.

Bacım Sara, əslən Astaradan olan Ağaqulu Hüseynovla ailə qurub, orada yaşayırlar. Onların üç oğulları vardır.

Yusif dünyasını dəyişib. Viktor isə Rostovda yaşayır. O, hərbiçidir, polkovnikdir. Onun iki qızı vardır.



Qardaşlarım və onların ailələri

Anam ilk dəfə 17 yaşında ərə gedib və Böyük Vətən müharibəsi başlayanda onun həyat yoldaşı – Ruhulla 18 yaşında ordu sıralarına çağırılıb. O, 1941-ci ildə avqustun 13-də dünyaya gələn oğlu Siyavuşu görmədən həlak olub. Onun vəfatına inanmayan anam yalnız on ildən sonra atamla ailə qurub və bu nikahdan biz – mən, Elxan (16.04.1954), Vaqif (03.03.1957) və Eldar (27.09.1959) dünyaya gəlmişik.

Siyavuş həmişə bizimlə birlikdə olub və biz ona «Qaqaş» deyə müraciət etmişik. O, bizim üçün ömrünün son gününə qədər böyük qardaş olub. Təbiətcə sakit, xeyirxah insan idi. Bizdən heç nəyi əsirgəməzdi. Bütün işlərimizdə o, qabağa düşərdi. Atasızlıq, müharibə və ondan sonrakı ağır ailə şəraiti onu erkən yaşında işləməyə məcbur etmişdi. Məktəbi tam başa çatdıra bilməmişdi. Mənim atam onu bizdən çox istəyirdi. Bir dəfə də olsun ona acı söz deməmişdi. Syavuşun toyu yadımdadır.



Qardaşım Siyavuş və xalam Mehparə

Anam onu əsgərlikdən qabaq evləndirdi. Atam hey anama deyərdi: Xədicə, Siyavuşun bütün istəklərini yerinə yetir. Qız evinə göndərilən xonçalara özü baxardı və deyərdi: Qoy xonçalar ağır olsun, gəlinə nə lazımsa mütləq al. O zamanlar indiki kimi bolluq olmasa da, xonçalara qoyulacaq konfetləri Moskvadan gətizdirmişdi. Gəlinimiz Qaxdan idi və onun dalınca rayonlarına getmişdik. Musiqiçiləri də özümüzlə aparmışdıq. Toydan sonra Qaqaş əsgər getdi və iki il Kuybışev şəhərində xidmət etdi.

Siyavuş və Sülbiyyənin bir övladı var. Qaqaş ona atasının adını qoymuşdu – Ruhulla. Əsgərlikdən sonra gecə məktəbini bitirdi və dənizçilik məktəbinə daxil oldu. Ömrünün sonuna qədər Xəzər Dənizçilik İdarəsində işləyirdi. Əlinə pul düşəndə hamımıza verərdi. Məni həmişə dəstəkləyirdi, istər subay vaxtlarımda, istərsə də evli olduğum dövrdə. Yadıma düşür, mən təzə ailə qurmuşdum, hərdən qaynana və gəlin arasında söz-söhbət olurdu. Qaqaş həmişə bizim tərəfdə olardı, onun sözü anam üçün qanun idi. Bizi tez-tez apardı öz evinə və bir neçə gün biz orada qalardıq. Ömür yoluma nəzər sa-

landa görürəm ki, onun dağılmamasında, möhkəmlənməsində və bugünkü səviyyəyə çatmasında mən Siyavuşa borcluyam. Heyiflər olsun ki, onun ömrü qısa oldu.

Qardaşım İlham – sənədlərdə onun adı Elxandır, həmişə ailədə sevilən övlad, qardaş və ata! Ürəyinin böyüklüyü və genişliyinə görə hamımızdan fərqlənir. Həyat yoldaşı – Gülnisə gəlinlərimizin içərisində ən çox istədiyimdir. Bəlkə ona görə ki, uşaqlıqdan bir-birimizi tanıyırıq. Nə isə, Allah onu və ailəsini xoşbəxt etsin. Onların üç övladı var: Emil, Elçin və Elvin.

Vaqif bizim ortancıl qardaşımızdır. Zahirən soyuq görünsə də, çox mehriban insandır. Xasiyyətcə çox danışan deyil, məhəbbət və sevgisini açıq bildirmir. Anam həmişə deyərdi: Ay Vaqif, bir məni öp, ananam axı, bir məni qucaqla. Yox, Vaqif belə hərəkətlərdən uzaqdır. Əlləri qızıldır onun. Baş açmadığı, bacarmadığı bir sənət yoxdur onun üçün. O, hamımız üçün «təcili yardımdır». Gözəl musiqi duyumu var, pianino və qarmonda çalmağı özü öyrənib. Onun həyat yoldaşı Larisa bizim qapıbir qonşumuz olub. Bu uşaqların «gözləri açılandan» bir-birlərini görüb və seviblər. İki övladları var – Emil və Lalə.



Anamın gəlinləri

Ailəmizin sonbeşiyi Eldardır. Gözəl ailə başçısıdır. Həyat yoldaşı Gülnarə çox qayğıkeş və hörmətcil insandır. Onların üç övladı var: Elgün, Elnur və Əbülfəz.

Ümumiyyətlə gəlinlərin hamısından çox razıyım, onlar mənə bacı qədər əzizdirlər. Həmişə onların müdafiəsində durmuşam. Anam həmişə deyərdi: Sənsən bu gəlinləri korlayan, onlar sənə arxalanırlar.



Qardaşlarımın övladları

Qardaşlarımın övladlarından da çox razıyam. Hər biri zəhmətkeşdir. Allahdan bir arzum var – qoy həmişə onların ailəsində mehribançılıq və əmin amanlıq olsun!

Kiyev şəhəri, Ukrayna
25.06.1988.

* * *

Bakıya qayıdandan sonra başım o qədər gündəlik işlərə qarışıb ki, dəftərimdə heç bir qeydiyyat aparmamışam. Hər gün kim isə bizi qonaq çağırır və ya bizə gəlirlər.

Bu gün avqust ayının biridir. Sizi Moskaya yola salıb evə qayıtmışıq. Elə bil ev boşdur. Ürəyimdə nələr baş verir bir

Allah bilir. Ağlamaq istəyirəm, ancaq bacarmıram. Bunu etmək olmaz. Siz yoldasınız. Həyəcanımı Nailədən gizlədirəm.

Qoy bu sizin həyatınızda ilk səfər və sərbəst, ata-anadan uzaqda yaşamaq istiqamətində ilk addımınız olsun.

Bakı
01.08.1988.

* * *

11 aydır ki, Bakıdayam. Bu müddətdə dosent diplomunu almışam. Yəmənə işləməyə göndərilməyim baş tutmadı və mənə ÇXR-na elmi ezamiyyətə göndəriləcəyim haqda məlumat verilmişdir. Hələlik isə bununla bağlı heç bir xəbər yoxdur. Professor Sabir Babayevlə olan söhbətimizdən sonra məndə doktorluq işi üzərində çalışmaq həvəsi güclənib. İşin planı tərtib olunub və təcrübə-sınaq işləri sona yetmək üzrədir. Çinə səfərim baş tutarsa orada dissertasiyamı tamamlaya biləm. Ümid Allahadır.

Nəhayət ki, 1989-cu ilin avqust ayında SSRİ Təhsil Nazirliyindən mənim Çinə elmi ezamiyyətə göndərilməyimlə bağlı məktub gəldi. Çox sevinirdim ki, deyəsən bütün tilsimlər qırılır, Allah mənim də üzümə qapılar açır. Bu ezamiyyətdən mən çox şey gözləyirdim. İnanırdım ki, həyatımda ciddi dəyişikliklər baş verəcək. Təkcə bir səbəb mənə çox əziyyət verirdi və tam qərar qəbul etməyimdə çətinlik çəkirdim. O da ailəmlə bağlı idi. Onları kimin himayəsində qoyub gedim? Onlar mənsiz necə olacaqlar? Bu qisimdən olan suallar və onlara cavab tapmamağım məni bərk narahat edirdi. Bəlkə də Nailənin gözlərindəki qətiyyəti görməsəydim, onun özünə əminliyini hiss etməsəydim, mən bu imkandan istifadə etməyəcəkdim.

Bakı
10.02.1989.

* * *

Moskvadayam. İki gün qatardakı narahatlıqlardan sonra «Univevsitetskaya» mehmanxanasında yerləşmişən. Avqustun 25-də mənə institutdan xəbər gəldi ki Çinə elmi ezamiyyətimlə əlaqədar müsbət cavab alınıb və mən təcili olaraq Mokvaya, oradan da Pekinə yola düşməliyəm.

İstər qatarda olduğum müddət, istərsə də mehmanxanada yaşadığım anlar Siz həmişə mənim düşüncələrimdə olmusunuz. Xüsusən sən – Elcan haqqında çox düşünürəm. Sən keçid yaşındasan. Belə bir vaxtda səndən uzaq düşmək nə qədər düzgündür? Sənin təmizliyinə, paklığına, ürəyinin düzlüyünə tam əminəm. Elə bunlar məni qorxudur. Səndəki xarici soyuqluğu qüsur saymıram, bunu sənin təmkinli olmağınla əlaqələndirirəm. Mən tam əminəm ki, səndə ata və anaya olan məhəbbət çox böyükdür, lakin onu aşkar göstərmək istəmirsən. Elşən səndən çox da kiçik olmasa belə bizə olan məhəbbətini gündəlik öpüşlərində və qucaqlamalarında göstərir.

Siz heç bir zərrə də təsəvvürünüzə gətirə bilməzsiniz ki, mənim üçün kimsiniz. Siz mənim qanadlarım, görən gözlərim, döyünən ürəyimsiniz. Məni Allah yaradaraq Ruh vermişdir. Siz isə bu Ruhun qidasısınız. İnsan cismin və ruhun vəhdətindən ibarət olduğunudan birincinin sağlamlığı ikincinin hansı qidadan mənbələnməyindən çox asılıdır. Deyəsən fəlsəfəyə keçdim…

Möhkəm yağış yaxır, nostalji hisslər məni boğur, sizlərdən növbəti ayrılıq mənim əhvalıma yaman təsir edir. Təsəllini ürəyimdəki bir inamda görürəm. Allahın mənim üçün açdığı bu yol hamımızın gələcək işlərinə təkan olacaqdır. Bu dəfəki ezamiyyət müddəti 6 aydır. Sabah SSRİ Təhsil Nazirliyində olmalıyam.

Moskva
30.08.1989.

## MƏNİM ÇİN SƏFƏRİM

Sentyabr ayının 3-də Moskvanın Yaroslavl dəmiryol vağzalından çıxan qatar Kirov, Perm, Sverdlovsk, Omsk, Novosibirsk və digər şəhərləri keçərək, SSRİ-nin Çinlə sərhəddində yerləşən Zabaykalsk şəhərinə çatdı. Yol boly qatar hansı böyük şəhərlərdə dayanırdısa oradan sizə məktub göndərirdim. Güman edirəm ananız məktubları sizə oxuyur. Həmin anlar ürək sıxıntılarımı, heç bir kəslə bölüşə bilmədiklərimi bir çərçivəyə salıb yazmaq istədim. Buna şeir və ya ona oxşar bir şey demək olmasa da, bunları mənim içimdən gələn, ürəyimdən axan, göz yaşlarım kimi süzülüb kağız üzərinə hopan düşüncələrim kimi qəbil etməyinizi istərdim.




Ay qatar, lənətə gələsən səni
Sən məni götürüb hara gedirsən?
Ayırıb Vətəndən, doğma ocaqdan
Ürəyi yaralı niyə edirsən?

Sürətin nə qədər böyükmüş sənin
Mən bunu təsəvvür etməzdim inan.
Bir göz qırpımında götürüb məni
Uzaq diyarlarda etmisən mehman.

Əylə sürətini, bir dayan, bir dur.
Qoy həsrət yolları daha artmasın.
Hara tələsirsən baş alıb belə
İnsaf et, könüldən can ayrılmasın.

Sənə yalvarıram – geriyə dönək
Arxanca dikilən gözlərə sarı.
Daşdan deyildir ki, ürəyim mənim
İnləyir, sızlayır, ağrıdır axı.

Bilirəm nə ürək, nə ruh var səndə
Vücudun, məzmunun soyuq bir dəmir.
Sən hardan biləsən ömrün təməli
Yalnız məhəbbətdir, yalnız sevgidir.

Qatarın sərhədi keçməyinə bir neçə saat qalıb. Üzərimizdə olan bütün pulları Zabaykalsk şəhəri dəmiryol stansiyasındakı əmanət bankında hesaba oturtmalıyam.

Moskva vaxtı ilə saat 14-də SSRİ-ÇXR sərhədini keçdik. Hamımız vaqonun pəncərələrinə sıxılıb bu mənzərəni müşahidə edirdik. Daxilimdə bir təlatüm, bir həyəcan yaşanırdı. Mən xarici ölkələrdə çox olmuşam, lakin bugünkü hisslər məndə heç vaxt olmayıb. Aşkar hiss etdim ki artıq sizlərdən uzaqdayam.

İlk dayanacaq Mancuriya stansiyasıdır. Çinlilər bizi çox mehribanlıqla qarşıladılar. Başqa-başqa irqlərə mənsub olmağımızı nəzərə alsaq belə, onlarla bizim aramızda fərq çox böyükdür. Bəlkə də bu ilk təəssüratdır. Odur ki. tələsmək lazım deyil. Qabaqda vaxt çoxdur.

ÇXR, Mancuriya
07.09.89.

***

SSRİ-nin Pekindəki səfirliyində bizim qrupun üzvlərini Çinin müxtəlif ali təhsil müəssisələrinə ezam etdilər. Mən Tsilin vilayətinin pataxtı olan Çan Çun şəhərindəki universitetə düşmüşdüm. 14 sentyabr 1989-cu ildə mən bu şəhərə gəldim. Şəhər Çinin şimalında yerləşir və dövlətin paytaxtı olan Pekindən qatarla 16 saatlıq məsafədədir.

Vilayətin ümumi əhalisi 6.0 mln., Çan Çunda isə 1.4 mln. əhali yaşayır. Şəhərin ən böyük prospekti Stalinin adını daşıyır. Olduqca gözəl məkandır. Çinsayağı bəzənmiş mağazalardakı bolluq və rəngarənglik məndə çaşqınlıq yaratmışdı. Heç cür inana bilmirdim ki, 10 il öncə burada aclıq və kasıbçılıq hökm sürürdü. Çinin görkəmli şəxsiyyətlərindən biri olan Den Siyapinin rəhbərliyi ilə 1978-ci ildə iqtisadi islahatlara başlayan Çin hökuməti, artıq 1985-ci ildə ölkədə aclığın qarşısını ala bilmişdi. Kənddə başlanan islahatlar, azad iqtisadi zonaların yaradılması və digər addımlar çox qısa bir vaxtda öz müsbət nəticələrini verməyə başlamışdı. Mağazalarda hər şeyin olmasına baxmayaraq, burada insanlar sadə geyinirlər, bizdən fərqli olaraq zinət əşyalarına və bərbəzəyə aludə deyirlər. Bütün yeməkləri bitki yağında hazırlanır. Bir aya yaxın Çində olmağıma baxmayaraq mən burada şişman, kök adam görməmişəm. İnsanlar olduqca mehribandırlar. Xarici vətəndaşlara xüsusi münasibət göstərirlər.

Universitetdə məni çox yüksək səviyyədə qarşıladılar. Rektor görüşündə bildirdi ki, tədqiqat işləriniz üçün nə lazımdırsa hər şey təmin olunacaqdır. Mən bu dəstəyi universitetdə fəaliyyətə başladığım ilk gündən hiss etməyə başladım. Mənim üçün ən dəyərli olan buradakı kitabxana idi. Orada xarici ölkələrdə nəşr edilən kitabların, keçirilən konfrans və seminarların materiallarının ingilis və rus dillərində nümunələri vardır.



Texnologiya Universitetinin rektoru ilə göüş

Mən saatlarla bu kitabxanadan çıxa bilmirəm. Kitabxananın bədii zalında SSRİ-də qadağan olunan kitablarla rastlaşdım. Heç bilmirəm hansını birinci oxuyum.

Nə isə, təssüratlarım çoxdur. Lakin bu gün mənim üçün çox əziz və əlamətdar gündür – oğlum Elcanın ad günüdür. Onun üçün hədiyyə də almışan – pleyer. Bu, Çində aldığın ilk əşyadır.

Dünən axşam Elcanın 15 yaşı olması münasibətilə bir şeir yazmışdım və onu məktubla ona göndərdim.

İldən-ilə boy atırsan, yaşa dolursan,
Ay mənim istəkli, ağıllı oğlum.
Mən sənə baxanda fərəhlənirəm,
Ay mənim qürurlu, vüqarlı oğlum.

Bu gün ad günündür, sənin əzizim,
Sən on beş yaşına qədəm qoyursan.
Qoy sənə xoşbəxtlik gətirsin bu gün,
Uşaqlıq çağı ilə vidalaşırsan.

Qarşıda çox işlər gözləyir səni
Həyatın yolları kəşməkəşlidir.
Səni qorxutmasın heç bir çətinlik
Ona qalib gəlmək insan işidir.

Həyatda heç zaman gözləmə ki sən
Nəsə özbaşına düzələcəkdir.
Qarşına məqsəd qoy, onunçun döyüş
Boş gələn, onu bil, boş gedəcəkdir.

Sözündə, işində düzgün ol, oğul!
Kişilik düzlüklə gərək tən gəlsin.
Namusu, vicdanı uca tut, qoru!
Ləyaqətli olmaq çətindir, çətin.

Qaçma arxasınca dövlətin-varın
Həyatın meyarı deyildir onlar.
Qədrin bil kəsdiyin duzun, çörəyin,
Dar gündə insana dayaqdır dostlar.

Demə ki, pulum var, hər şey mənimdir,
Çoxları bax bu cür fikirləşiblər.
Fələyin gərdişi elə gətirib,
Var-dövlət içində tənha ölüblər.

Çalış elm qazan, güc elimdədir
Səni qorxutmasın əzablı yollar.
Hər işin əvvəli çətin görünür
Zəhmətsiz gül açmaz, ağac verməz bar.

Ancaq halal zəhmət, düz söz, şirin dil,
Ömürlük həkk olsun beynində sənin.
Məhəbbətlə yaşa bütün ömrünü,
Düz ilqar, sədaqət olsun məsləkin.

Ürəyndə saxla düşündüyünü,
Büruzə verməyə onu çalışma.
Kimsənin fikrinə qalma biganə,
Ancaq deyilənlə tez razılaşma.

Məclisdə az danış, ağır otur, dur,
Özünə hörmət qoy, hörmət görərsən.
İnsanlar hamısı eyni cür deyil
Ehtiyatsız sözdən zərər çəkərsən.

Ananın hörmətin göylərə qaldır,
Yoxdur bu dünyada onun əvəzi.
Hər nəyin vardırsa, odur səbəbkar,
Qızdırsın evini onun nəfəsi.

Ondan əsirgəmə nəvazişini
Çək onun nazını, o, bir zinətdir.
Uyma yad sözlərə, fitnə-fəsada,
O bir pak məxluqdur, bəşəriyyətdir.

Qardaşa arxa ol, onu arxa bil,
Qanı qanındandır, canı canından.
O, sənə verilən Allah payıdır,
Yaxşısa, yamansa sən tut qardaşdan.

Oğul! Bu sözlərim bir nəsihətdir.
Vaxt gələr onları sən dərk edərsən.
Keçdikcə həyatın döngələrindən,
Onda bu sözlərə qiymət verərsən.

Onda anlayarsan nə üçün atan
Sənə gənc yaşında nəsihət etmiş,
Özünün qırx ildə qazandığını
Sənə ad günündə hədiyyə vermiş.

Xəyallar məni uzaqlara aparır. Yadıma sizlərin dünyaya gəlməsi, məktəbə getməyiniz, ad günləriniz və s. düşür.

Elcanın birinci sinfə getməyi tam yadımdadır. Xalası Mətanət, Nailə və mən onunla birlikdə məktəbə gəlmişdik. O birinci gündən dərslərinə ciddi münasibət bəsləyir. Elcangilin sinifləri, oradakı dostları xəyalımdadır – Abdulla, Emin, Nigar, Xumara və s. Bakının 154 saylı məktəbi tanınmış təhsil ocaqlarındandır.


Elcanın birinci dərsi

Burada nizam-intizam, təhsil yüksək səviyyədədir. Gözəl müəllim kollektivi var. Elcan ingilis dilinə xüsusi diqqət ayırır. Bu məktəbdə xarici dilin tədrisi ikinci sinifdən başlayır.

Elşənin də müəllimləri yaxşı pedaqoqdurlar. Evdə hamımız ona köməklik edirik.

Məktəb illəri yadda qalan illərdəndir. Vaxt keçəcək, siz o günlərin sorağında və həsrətində olacaqsınız.

ÇXR, Çan Çun
29.09.1989.

* * *

Mənlə yanaşı otaqda yaşayan, təhsil almaq üçün Çeçenistandan gəlmiş Məhəmmədin (Maqanın) səsinə oyandım. Saata baxdım, əqrəblər ikini göstərirdi. Maqa mənim yuxulu olduğumu görüb bir daha təkrarladı: Bakıdan zəng edirlər, məni telefon xəttində gözləyirlər. Bir göz qırpımında birinci

mərtəbəyə düşüb telefonun dəstəyini qaldırdım. İlahi, inana bilmirdim ki, bu Nailənin səsidir. Bircə o yadımdadır ki, bir-birimizi sakitləşdirmək üçün nəsə deyirdik. Həyəcanımı gizlətməyə çalışırdım. Siz yatmışdınız. 15 dəqiqəyə qədər danışdım. Dəstəyi yerinə qoyub otağıma gəldim. Yuxum qaçmışdı. Sübhü gözlərimlə açdım. Hər şeyi atıb Bakıya sizin yanınıza qayıtmaq, hər birinizi bərk-bərk qucaqlamaq, bir yerdə olmaq, bir havanı udmaq istəyirdim. Lakin hava işıqlandıqca, təlatümlü fikirlər nisbətən sakitləşdikcə başa düşürsən ki bəzən şərait sənin istəklərində güclü olur. Belə halda hissiyyata qapanmaq olmaz! Məsuliyyət hissi digərlərini mütləq üstələməlidir.

ÇXR, Çan Çun
10.10.1989.

* * *

13 oktyabrda birdən-birə üç məktub aldım. Onlardan ikisini ananız yazmışdı, digərinin içərisində isə Elcan və Elşənin xətti ilə yazılmış məktublar var idi. Kim deyir ki, kişilər ağlamır. Yalandır! Göz yaşlarımı saxlaya bilmirəm. Nailənin hər iki məktubu «Mənim canım» və «Mənim əzizim» sözləri ilə doludur. Elə hey məni sakitləşdirməyə çalışır. Hər şeyin yaxşı olduğunu, çətinlik çəkmədiyini yazır. Mən bilirəm ki, bu həqiqətdə belə deyildir.

Elşən öz məktubunda yazır ki, dərslərini çatdırır, məktəbdə sakitçilikdir, məhəllədə çox oynamır. Mənim üçün darıxdığını yazır.

Elcanın məktubunu oxudum və hiss etdim ki, o artıq böyük oğlan olub, hər sözün məsuliyyətini hiss edir. Məktəbdə böyük dəyişikliklərin baş verdiyini, sinif yoldaşlarının çoxunun getdiklərini qeyd edir. Bütövlükdə vəziyyətin gərgin olmasınıdan və mənim məsləhətimə ehtiyac duyduğunu bir neçə dəfə qeyd edir.

Elcan! Sən məktəbdəki dəyişiklikləri itgi adlandırırsan. Bu belə deyildir. Sənin həyatın hələ qabaqdadır. Orada itkilər də olacaq, nailiyyətlər də. Bu mütləqdir, lakin çalışmaq lazımdırki birinci az, ikinci isə çox olsun. Yazırsan ki, qarşına məqsəd qoymusan – məktəbi yüksək qiymətlərlə bitirmək. Çox gözəl məqsəddir. İnsanın məqsədi olmalıdır və ona doğru getmək lazımdır. Bunun üçün ilkin olaraq iradə sahibi olmaq lazımdır. Böyük Yaradan bizə hər şey verib: – ağıl, göz, qulaq, əl-ayaq və daha nələr. Bircə iradəmizi özümüzə həvalə edib.

Yalnız iradə sahibi olan insan məqsədinə çata bilər. Bu yolda – məqsədə doğru getdikdə bir şeyi itirmək olmaz – o da mənəviyyatdır. Mənəviyyatsızlıq mütləq olaraq rəhmsizlik, ədalətsizlik, vicdansızlıq və satqınlıq kimi təzadlara gətirib çatdıracaqdır. Bu isə insanın sonudur. Böyük Yaradan bizi bu dünyaya insan kimi gətirib. Biz də bu şərəfi qoruyub saxlamalıyıq. Əks halda yaşamağın mənası yoxdur.

ÇXR, Çan Çun
13.10.1989.

* * *



Bu gün Texnoloji Universitetində təcrübələrimi bitirdim. Nəticələr çox yaxşıdır. Onları buradakı elmi jurnalda çap etdirmək istəyirəm. Hava çox gözəldir. Ümumiyyətlə oktyabr ayında təbiət burada çox xoş keçir. Bütün parklardakı ağacların yarpaqları saralıb, payız güllərinin ətri insanı məftun eyləyir. İnstitutdan yataqxanaya piyada qayıdanda yol boyu sizin məktublarınızda yazdıqlarınızı bir daha beynimdən keçirməyə başladım. Yad şəhərdə, mənə doğma olmayan küçələrdə addımladıqca, qarşıma çıxan bu yad insanlara baxdıqca ürəyimdən keçən fikirləri yazmaq qərarına gəldim. Yol üstündəki parkda sakit bir yer tapıb əyləşdim. Qələmi əlimə alıb bir nəfəsə aşağıdakıları yazdım:

Sən demə dünyada ən böyük töhfə
Məktubdur – hansın ki yazıbdır Yarın.
Əlinə alanda inan ki onu
Unudulur dərdin, çəkilir ağrın.

Gördükcə xəttini gül açır çöhrən
Elə bil yenidən qayıdır bahar.
Ətrini duyursan hər bir sətrində
Siması qarşında olur bərqərar.

Həzin musiqitək yayılır cana
Onun nəvazişlə yazdığı hər söz.
Oxuduğca onu çırpınır ürək
Beyin dumanlanır, hey nəmlənir göz.

Onun hər cümləsi «Canla» başlanır.
Soruşur: Necəsən? Nə var başında?
Yeməyin necədir? İçəyin necə?
Yoxmu bir xəsarət, ağrı canında?

«Yorma çox özünü, vaxtında yat, dur.
Bizdən fikir çəkmə, yaxşıyıq» yazır.
O, bunu məndən də çox yaxşı bilir
Onlarsız yaşamaq mənə ağırdır.

Özü nələr çəkir, nələr keçirir
Heç bircə kəlmə də yazmır bu haqda.
«Hər şey çox yaxşıdır, qaydasındadır»,
Yazdığı bu olur özü öz haqda.

Bəlkə də bu düzdür, belə lazımdır
Onsuz da hər bir şey bəllidir bizə.
De, necə yaşarsan şən və firavan
Sevginlə gəlməsən hər gün üz-üzə?

De, necə yaşayım asudə, rahat?
De, gəzmək olarmı qəmsiz, fikirsiz?
De, gülmək olarmı ürəkdən, qəlbdən
Sən onsuz olasan, o, qala sənziz?

Məktub əvəzsiz bir vasitə olur
Göz gözdən, üz üzdən uzaq düşəndə.
Məktub zinətlərin zinəti olur
Təhnalıq, intizar qəlbi yeyəndə.

Məktub hər bir şeyi yerinə qoyur
Çaşqın fikirləri tar-mar edir.
Soyuq gecələri, solğun günləri
Qızdırır, isidir, laləzar edir.

Məktub gözləyənin ömür təqvimi
Məktublar arası günlə ölçülür.
Günlərin işığı, günlərin nuru
Ürəkdən yazılmış sözlə ölçülür.

ÇXR, Çan Çun
16.10.1989.

* * *

Tsilin Universitetində bu gün Sovetlər İttifaqından gəlmiş mütəxəssislər üçün bayram şənliyi təşkil olunmuşdu. Universitetin xarici dillər fakültəsinin tələbələri gözəl bir proqram hazırlamışdılar. Bu gün mənim yadımda qalan günlərdən hesab edilə bilər.

Bayram ərəfəsində çinli tələbələr bizdən xahiş etmişdilər ki, bir proqram da biz hazırlayaq. Məndən Azərbaycanla bağlı bir konsert nömrəsinin hazırlanmasını xahiş edəndə müəyyən bəhanələrlə etiraz etmək istədim və dedim ki – mahnı oxumağı və şeir deməyi bacarmıram. Rəqs edə bilərdim, lakin bunun üçün milli paltarlar, bir neçə qız və oğlanlar lazımdır. Bu söhbətdən iki gün sonra mənim otağımın qapısı döyüldü və mən qapını açanda gördüm ki, dəhlizdə həmin tələbələrdən bir oğlan və altı qız dayanıblar. Onlar bizim rəqsləri öyrənməyə hazır olduqlarını bildirdilər. Milli paltarların olmamasını israrla onlara bildirdikdə, onun da həll ediləcəyini dedilər. Dərk etdim ki, mənim geriyə çəkilməyə yolum yoxdur və

onlarla sabahdan məşq etməyə başlayacağımı bildirdim. Onları yola salandan sonra özümlə gətirdiyim kasetləri bir də nəzərdən keçirdim. Gələcək rəqs üçün gözəl bir Azərbaycan musiqisini seçdim.



Çinli qızların Azərbaycan rəqsi

Mən gənclik illərimdə səkkiz il rəqslə məşğul olmuşam, əvvəlcə «Pionerlər evində», sonra isə Xəzər Dənizçilik İdarəsinin mədəniyyət sarayında və nəhayət Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun rəqs dərnəyində incəsənətimizin bu gözəl növü ilə məşğul olmuşam. Bu mənə kömək oldu. On gün müddətində Azərbaycan musiqisi sədaları altında çinli qızların iştirakı ilə sadə hərəkətlərdən istifadə etməklə rəqs nömrəsi hazırladıq.

Bayram təntənəsinin başlanğıcı saat 17.00-da nəzərdə tutulmuşdu. Mən yarım saat tez gəlib səhnənin arxasına keçmişdim. Qızları axtarırdım. Bilirsinizmi nə gördüm?

Gözlərimə inanmadım – qızlar bizim milli paltarda idilər. Elə gözəl görünürdülər ki, onlardan göz ayırmaq olmurdu. Təşkilatçı qız bunu mənim üçün sürpriz etmişdi – məndə olan Azərbaycan haqqındakı albomdan istifadə edərək qızlarının milli geyimlərini bizim paltarlara uyğunlaşdırmışdı. Sürpriz təkcə binunla bitmirdi. Qızların birisi gəlməmişdi və mən onun yerinə səhnəyə çıxmalı oldum. Konsert çox gözəl keçdi. Həmin gecə rahat yata bildim.

ÇXR, Çan Çun
06.11.1989.

**Qeyd:** Yadıma düşür, bu konsertin videoyazısı həmin gün yerli televiziyada, sonra isə Çinin mərkəsi televiziyasında da nümayiş edildi. Qəzetlərdə Azərbaycan mədəniyyətinin bir nümunəsi haqda çoxlu məlumatlar oldu. 1990-cı ildə Novruz bayramı ərəfəsində bu videomaterial Azərbaycan televiziyasının «Yurd» və ABA-nın «Qız qalası» proqramlarında göstərilmişdi.



## ÇİNİN TƏHSİL SİSTEMİNİN FƏRQLƏNDİRİCİ XÜSUSİYYƏTLƏRİ

Çində olduğum müddətdə, bu dövlətin iqtisadi uğurlarını gördükcə, bunların səbəblərini öyrənməyə çalışırdım. Den Syapin faktoru, onun iqtisadi islahatları, çinlilərin işgüzarlığı, məişətdə aza qane olmaları kimi amilləri araşdıraraq düşünürdüm, görən təkcə bunlara görə belə bir böyük ölkə 20 ildə aclıq, səfalət və yoxsulluğa qalib gəlib dirçəlmiş, ayağa qalxıb dünya dövlətləri içərisində öz layiqli yerini tutmuşdur?

Məndə belə bir əminlik yaranıb ki, Çinin bugünkü müvəffəqiyyətində təhsil sisteminin böyük və əvəzolunmaz rolu vardır.

Bu gün Çində tədrisdən kənarda formalaşan və özünə yol tapan heç bir şey yoxdur. Tədris prosesi siyasət, iqtisadiyyat, mədəniyyət və digər sahələrlə sıx bağlıdır. Təhsil iqtisadi islahat ilə bərabər həyata keçirilir.

Əsrlər boyu bu ölkədə təhsilə yüksək hörmət və etiramla yanaşılıb. Konfusi sisteminə əsaslanan Çin fəlsəfəsində təhsil hər şeydən öndə qoyulur. Uzaq keçmişdən bu günə qədər çinlilər təhsilin dəyərini həmişə yüksək tuturlar. Valideynlər öz övladlarına təhsil vermək üçün sonuncu yuanlarını belə verməyə hazırdırlar. Burada bizlərdən fərqli olaraq ailənin büdcəsindən xərclənən pullar uşaqlarına orta və ya ali məktəbdə qiymət yazılmasına deyil, onun savad və bilik almasına xərclənir. Yer kürəsinin beşdə birindən çoxunun yaşadığı bu ölkədə hər kəs işıqlı gələcəyi, iqtisadi cəhətcə güclü ailəni, cəmiyyəti və dövləti yalnız düzgün təşkil olunmuş təhsildə görürlər.

Çində olduğum bütün vaxtlarda, istər elmi ezamiyyət və sonrakı səfərlərimdə əlaqədə olduğum çinlilərdə ilk nəzərəçarpan xüsusiyyəti onların elmə, alimə, proqresə olan böyük münasibətində olmasında gördüm. Ali məktəbə qəbul olmaq istəyən şagird, universitet tələbəsi, elmi-tətqiqat müəssisəsində və ya bizneslə məşğul olan, lakin savadını artırmaq istəyən hər bir kəs aldığı və ya alacağı təhsilin ona nə verəcəyini qabaqcadan dərk edərək bu işə başlayır. Kiminsə xatirinə və ya nəyə görəsə ali məktəbə daxil olmaq istəyən bir gəncə rast gəlməmişəm.

Çinin Çan Çun, Dalyan, Xarbin şəhərlərində, eləcə də Pekindəki ali məktəblərdə olduğum müddətdə professor-müəllim heyətinin olduqca böyük hörməti ilə rastlaşırdım. Mənə hər cür kömək etməyə çalışırdılar. Tədqiqat işlərim üçün nə lazımdırsa onu tapıb gətirir, avadanlıqların quraşdırılmasında və işləməsində mənə koməklik göstərirdilər. Hər bir yeni ideyanı qəbul edib, onun həyata keçirilməsinə yardım edirdilər. Onu qeyd etməliyəm ki, orada olduğum müddətdə

üç elmi məqaləm Çin dilində nəşr edildi və iki məqaləm isə çinli mütəxəssislərlə həmmüəllif şəklində ADNA-nın «Neft və qaz» elmi jurnalında işıq üzü gördü. Açıq etiraf etməliyəm ki, doktorluq dissertasiyamın əksər təcrübələrini burada aparmışam.

Azərbaycanda və Çindəki təhsil sistemi arasında böyük fərq vardır. Burada təhsil sisteminin dövlət tərəfindən nəzarətdə saxlanmasına baxmayaraq, özəl təhsil məktəbləri müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Peşə təhsili sisteminə xüsusi diqqət və qayğı var.

Son illərdə ölkə vətəndaşlarının savadlanması istiqamətində çoxlu işlər görülmüşdür.

Çin Xalq Respublikası 1949-cu ildə yaranmışdır və bu dövrə qədər ölkə əhalisinin 80%-ə qədəri savadsız idilər. ÇXR-da bizim üçün ənənəvi olan əlifba anlayışı yoxdur, burada heroqliflərdən istifadə edilir. Heroqliflərin ümumi sayı 50 minə yaxındır. Adətən 500 heroqlifdən az bilənlər savadsız hesab edilirlər. Hal-hazırda bu səviyyə bir az yüksəldilmişdir. Ölkədə savadsızlıqla ciddi mübarizə aparılır. Çinli gənclər təhsil almaq üçün dünyanın aparıcı ölkələrinə göndərilir. Dövlət büdcəsindən elmin, təhsilin və maarifçiliyin inkişafına küllü miqdarda vəsait ayrılır.

Ən böyük arzum Elcanın buraya gəlib təhsil almasıdır. Bu əlçatmaz bir istəkdir. Ya Rəbbim sən öz övladlarıma yol aç!

Bütün bunlara baxmayaraq mənim fikir və düşüncələrim həmişə sizlərlə bağlı olmuşdur. Mən həmişə düşünmüşəm ki, uşaqlar həmişə valideynlərinin yanında böyüməlidirlər. Böyük rus pedaqoqu V.Suxomlinskinin bir fikri ilə tam razıyam: Uşaqlar gözəllik, oyunlar, nağıllar, rəsmlər, fantaziyalar və yaradıcılıq dünyasında yaşamalıdırlar.

ÇXR, Çan Çun
10.12.1989.

## ALLAH QORXUSU VƏ YA ALLAHA OLAN MƏHƏBBƏT



Din xadimlərinin iştirak etdikləri məclislərdə olanda, müxtəlif mövzulu söhbətlər nəticə etibarı ilə bir fikirlə tamamlanır – İnsanın ürəyində Allah qorxusu olmalıdır. Əgər bu belədirsə və bunu özüm üçün açıqlamaqda günah işlədirəmsə, qoy Böyük Yaradan mənim nadanlığımı bağışlasın. Mən həqiqətən bir şeyi anlaya bilmirəm – nə üçün bizə bu dünyanı verən, ağıl-kamal sahibi edən, yaşamağımız üçün bütün naz və nemətləri yaradan, gözəlliyi duymağı, sevmək və sevilmək kimi qismətləri bacarmağı öyrədən və ən nəhayət bizi insan yaradan Varlıqdan qorxmaq lazımdır. Məgər özünü insan bilən bunların qarşısında nankorluq edib Ondan qorxmalıdırmı??? Əminəm ki, əsla yox! Ona ancaq məhəbbət bəslənməlidir.

**Nədir mənim üçün Allaha məhəbbət?**

İlkin olaraq onu deməliyəm ki, Allaha məhəbbət bəsləmək üçün ilkin olaraq Onu tanımaq gərəkdir. Peyğəmbərimizin bir kəlamı vardır – Hər kəs özünü tanıya bilsə, öz Pərvərdigarını da tanıyar. Əsil çətinlik də bundadar. İnsan o dərəcədə mürəkkəb bir vücuddur ki, o özünü dərk edib tanıya bilmir. İnsan bütün həyatı boyu böyük bir kamillik yolunu keçir. Bu yol şəriət-təriqət-həqiqət mərhələlərini keçərək, sonda ən yüksək zirvə olan məhəbbətə – Allaha olan məhəbbətə çatır. Bu insan kamil insandır. Hər kəs bu yolu keçib həmin zirvəyə çata bilməsə də şükürlü olması vacibdir. İnsan şükürlüdürsə – kifayətdir, deməli o Allahını tanıyır, onun ürəyində məhəbbət vardır. Belə halda o bir şeydən qorxmalıdır – bu məhəbbəti itirməsin, ona xəyanət etməsin.



Bizim hər bir əməlimiz daim nəzarətdədir, çünki hər zaman başımızın üzərində Allah, içərimizdə – vicdan və ətrafımızda insanlar vardır. Biz bunu qəbul edərək hərəkətlərimizi və əməllərimizi tənzimləməliyik. Lakin insan bəşər övladı olduğundan günah etmək ona xasdır. Günahın böyük və kiçiyi yoxdur və onun qiymətini biz vermirik. Kim desə ki, günahım

yoxdur, bu yalandır! Allah isə bağışlayandır. Təkcə bu kifayətdir ki, Ona məhəbbət bəsləyək. Bu dünyada yeganə istinad, ümid və inam yeri varsa – o, Allahdır. Bunu nə qədər tez dərk etsək, bir o qədər xoşbəxtlik bizə yaxın olar.

Son nəticədə hamı Haqqa tərəf gəlir. Ona inananlar və inanmayanlar da çətində Ona müraciət edirlər və ümid bağlayırlar.

Bizim evdə Allah kəlməsi həmişə səslənib. Atam və anamın hər cümləsi Pərvərdigarın adı ilə başlanırdı. Atam deyərdi bu dünyada hər birimizin Allah qarşısında borcu, valideynləri qarşısında minnətdarlığı və övladları qarşısında məsuliyyəti vardır. Bu müzakirə mövzusu ola bilməz. İndi dərk edirəm ki, öz adını yazmağı belə bacarmayan bu insan nə dərəcədə Allahı sevən idi. Mən evdə böyük övlad olduğumdan tez-tez mənimlə söhbətlər edərdi. Bütün söhbətlər təxminən eyni cür tamamlanırdı – çalışıb yaxşılıq etmək lazımdır, çünki o əbədidir və yadda qalandır, pislik – ötəri olmaqla, yalnız qəzəb, nifrət yaradır və müvəqqəti xarakter daşıyır. Allah sənə rəhmət eləsin ay Ata! Ağır təbiətli, az danışan olmağına baxmayaraq sən mənə çox şeyi öyrədə bilmişdin və bu gün də öyrədirsən. Sənin yerin həmişə görünür.

Bu yaxınlarda Peyğənbərin bir hədisini oxudum. Ondan soruşurlar: – Ya Rəsulallah! Müsəlman kimdir? Allahın Rəsulu cavab verir: - Müsəlman o şəxsdir ki, onun əlindən və dilindən kimsə inciməyib.

Kəlamın gözəlliyinə baxın. Peyğənbər burada mərhəməti, səxavəti, insanlığı hər şeydən yüksəkdə qoyur.

Bu təlimin Yaradıcısından çəkinməkmi lazımdır? Əsla yox! Və yaxud alimin qələminin mürəkkəbini şəhid qanına bərabər tutan, elm və bilik sahibini mal-dövlət, mənsəb sahibindən uca tutmağı öyrədən Varlıqdan qorxmaqmı lazımdır? Əsla yox!

Yetimə, kasıba əl tutmağı hamı üçün vacib bilən, qadının hörmətini uca tutmağı öyrədən və Behiştin qapılarının Ananın ayağının altında olduğunu göstərən Varlıqdan üz döndərmək olarmı? Əsla yox!

Böyüklərinə hörmət etməyi, kiçiklərini qorumağı öyrədən Varlıqdan qorxmaqmı lazımdır? Əsla yox!

**Yalnız və yalnız, bir daha yalnız sevmək və məhəbbət bəsləmək lazımdır!!!**

Üzümü din xadimlərinə tutub demək istəyirəm. Hörmətli cənablar! Dini mövhumatdan ayırmağın vaxtı çoxdan çatıb. İslam dini yasxanalar üçün yaranmayıb. Onun gözəlliyi və insanpərvərliyi çox yüksəkdədir.

Dövrümüz kosmos, nüvə və mütərəqqi texnologiyalarla bağlıdır. Xalqa İslamın gözəlliklərini bu səviyyədən izah etmək lazımdır, rəvayət və nağıllar baxımından olan izahatlardan uzaqlaşmaq lazımdır. Bu gün inkişaf etmiş ölkələrdə yaşayan, əvvəllər müxtəlif dini axın və cərəyanlardan olan insanlar İslama gəlirlər. Onlar İslamın gözəlliklərini anlayaraq belə edirlər. Bəs siz nədən danışırsınız?

Qorxu ilə aşılanan şey daimi olmaz, dünya məhəbbətin üzərində qurulub və bu məhəbbətin şahı Allaha olan eşqdir. Bizim hamımızın borcu dünyaya bu eşqdən, bu məhəbbətdən danışmaq və təbliğ etməkdən ibaratdir.

ÇXR, Çan Çun
14.12.1989.

## ŞƏRQİN SÖNMƏYƏN ULDUZU

Çin qədim bir dövlət olduğu qədər, çox maraqlı ölkədir. Bu ölkə tarix boyunca dəfələrlə enib, sonradan qalxa bilib. XIX əsrdə Çin dünya iqtisadiyyatının 20%-ni təmin edib. Lakin ingilis, portuqal və yapon təcavüzünə məruz qalan bu dövlət yox və heç olmaq dərəcəsinə çatdırılıb. Xalqın iradəsi və gücü nəticəsində XX əsrin ortalarında bu dövlət yenidən ayağa qalxaraq öz sözünü deyə bilib. Ümumiyyətlə son 200 ildə təcavüzkarlar bu xalqı və dövləti rəzalətin son həddinə çatdırıblar, lakin çinlilər özlərində güc, iradə tapıb ayağa qalxa biliblər.

Son dəfə aclıq və səfalətdən keçən bu ölkədə 1978-ci ildən iqtisadi islahatlar aparılır.



Pekinin ən böyük meydanı – Tyananmen



Onun yeni inkişaf yolunun nəticələrinə baxdıqca ürəyimdən bir hiss keçirdi: Görəsən bizdə də belə ola bilərmi?

Təqribən 10–12 il bundan əvvəl aclıqdan zülm çəkən bir dövlət, indi milyarddan çox əhalisini doyunca yedizdirib, geyindirə bilir. Hər tərəfdə canlanma görürsən. Bütün bunlar bir insanın zəkası, iradəsi və xalqın ona olan məhəbbəti nəticəsində baş tutmuşdur. Den Syapin!!!

İlahi, niyə bizim belə bir liderimiz yoxdur? Bəlkə Allahın qəzəbinə gəlmişik?

Azərbaycan-Çin münasibətləri çox qədim bir dövrü əhatə edir. Lakin bizə məlum olan tarix Böyük ipək yolu ilə bağlıdır.

Məlumdur ki, Böyük ipək yolu bizim eradan əvvəl ikinci yüzilliyin sonlarından başlayaraq, eramızım XVI əsrinə qədər olan müddətdə, başlanğıcını Çindən götürməklə Orta Asiya, Rusiya, Yaxın Şərq, Şərqi və Qərbi Avropa, eləcədə digər ərazilərdən keçirdi. Bir neçə marşrutu olan bu yolun bir hissəsi, o dövrdə böyük elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzləri olan Bakı, Təbriz, Şamaxı, Şabran, Gəncə və s. Azərbaycan şəhərlərini də əhatə edirdi.

Böyük Nizami «İskəndərnamə» və «Yeddi gözəl»də çinli qızı vəsf edir. Miniatür əsərlərdə Çin mövzusuna rast gəlirik, Bakıda və Azərbaycanın digər bölgələrində Çin məsçidləri var, lakin birbaşa əlaqələrimiz yoxdur. Güman edirəm ki, bu əlaqələr nə vaxtsa yaranacaq və tamamilə başqa bir müstəvidə inkişaf edəcəkdir. İnanıram ki, Çin çox yaxın bir zamanda superdövlət olacaqdır. O, özünəlayiq və dünyadakı missiyasına uyğun olan mövqeyə çatacaqdır. O, XX əsrin sonunda Şərqdə doğulan bir ulduz olub çoxlarının yoluna işıq saçacaqdır.

Elcan, çox istərdim ki, səni Çində tələbə qismində görüm. İnanıram bu dövləti və onun xalqını sən də mənim kimi sevəcəksən. Bir çox xarici ölkə vədəndaşları burada öz hesablarına təhsil alırlar.

Allahımdan bir istəyim var: Ya Rəbim, mənə elə bir imkan yarat ki, Elcanı bu ölkəyə təhsil talmağa göndərə bilim.

ÇXR, Çan Çun
21.12.1989.

* * *

Bu gün dörd ay tamam olur ki mən uzaqdayam, lakin Sizsiz yaşadığım bir gün belə olmayıb. Sabahsa ilin son gününü yaşayacayıq. Bilirəm ki, gecə saat 12.00-da hamımız bir yerdə olacayıq, çünki həmin an Sizlər məni, mən isə Sizləri düşünəcəyəm. Zaman fərqinə baxmayaraq mən həmin anı gözləyəcəyəm.

İndi isə maraqlı bir əsər oxuyuram. Əsər «Neva» jurnalının 4-cü sayında nəşr edilib. Müəllifi L.Samoylovdur – «Путешествие в перевернутый мир».

Bizim universitetin böyük kitabxanası var. Siyasi və bədii ədəbiyyat bölməsi xüsusi olaraq mənim üçün maraqlıdır. Burada respublikamızda əldə edilməsi mümkün olmayan kitablar vardır. Bu dörd ayda onların çoxusunu oxumuşam. Bu kitabların böyük əksəriyyəti Londonda, Parisdə və ya Nyu-Yorkda çap olunub. «Tayna kremlevskix sten», «Zaqadki smerti Stalina», «Kak bolşeviki zaxvatili vlast», «Vospominanie bıvşeqo sekretarya Stalina» və başqaları.

İlahi, mənim heç bir şeydən xəbərim yoxmuş. Sən demə 72 il mövcud olan bir dövlətin tarixi yalanmış. Pioner və ya komsomol sıralarına daxil olduqda and içdiyimiz rəhbərlər qəti cəllad imişlər. Onlar xəstə ideyalarını həyata keçirmək üçün milyonlarla insanı tərəddüd etmədən qurban veriblər. İstər Lenin və ya Stalin, istərsə də onlardan sonrakı rəhbərlər sadə xalqı insan yerinə qoymayıblarmış. Kitablardakı yazıları təkrarlamaq istəmirəm. Onlara bir az skeptik baxıram, lakin nə qədər yalan olsalar belə həqiqət də var. Əgər bu belədirsə – fəlakətdir.



Ulu Tanrım üç günahı bağışlamır: övladın öz valideynlərinə qarşı asiliyini, kasıbın təkəbbürünü və hökmdarın satqınlığını.

Bizim vəziyyətimizdə dövlət başında duranların satqınlığı əyanidir. İlahi sən bizləri hifs eylə.

ÇXR, Çan Çun
30.12.1989.

* * *

Əzizim Nailə, dünən sənin ad günün idi. Birgə həyatımızda bu ikinci dəfədir ki, belə bir gündə biz bir yerdə olmuruq. İlk tanışlığımızdan böyük bir vaxt keçir. Məlumdur ki, məhəbbətin ömrü ilkin olaraq kişi və qadının arasındakı qarşılıqlı

sevgi, hörmət və səmimiyyətdən çox asılıdır. Əgər bunlardan biri yoxdursa, deməli onlar arasında nə isə başqa münasibət mövcuddur və bu, məhəbbət deyildir. Ortada hər hansı bir şərtləşmə vardırsa, bu yerdə məhəbbət yaşana bilməz. Şükürlər olsun ki, bizim ailəmizdə bu günə qədər qarşılıqlı hörmət, məhəbbət və səmimiyyət 15 il bundan əvvəlki şəkildədir. Hətta ayrılıq belə bu münasibətə soyuqluq gətirə bilməz. Sənə dünən firuzə boyunbağı almışam. Çox gözəldir. İstərdim ki, onu sənin boynuna öz əllərimlə taxım...

Bu gün sənə bir şeir həsr etmişəm. Onu ürəkdən demək istədiyim, lakin edə bilmədiyim bir etiraf kimi qəbul etməyini istərdim. Ümumiyyətlə sənə etiraf məktubu yazmaq istəyirəm. Zamanını müəyyən etməmişəm. Güman edirəm ki, onu mütləq yazmalıyam. İndi isə şeri dinlə:

Bizi imtahana çəkib Yaradan
Sanki ayrı düşüb könül ilə can.
Sənsiz durammazdım ayrıca bir an
İndi bir baxışın həsrətindəyəm.

Günlər keçir sənziz mənasız, çətin
Əlim uzaq düşüb əlindən sənin,
Səhər də, axşam da onu bil yəqin
Bir səni görməyin həsrətindəyəm.

Nə qədər danışım özüm özümlə
Qarışıb mənimçün gecə gündüzlə,
Könlümü alardın bircə sözünlə
İndi o kəlmənin həsrətindəyəm.

ÇXR, Pekin
01.01.1990

## SÖZÜN HİKMƏTİ HAQQINDA

M.Füzulinin qəzəlinin bir beytilə başlamaq istərdim bugünkü yazımı:

Artırar söz qədrini sidq ilə qədrin artırar
Kim nə miqdar olsa əhlin eylər ol miqdar söz.

Ulu Tanrının insanlara bəxş etdiyi ilk və ən böyük hikmət SÖZ-dür. Deyilən sözün mənası, tonu və yeri həmişə qarşı tərəfin sözə münasibətini müəyyən edir.

Söz və onun dəyəri haqda həddindən çox yazılar mövcuddur. Onun ecazkar qüvvəsi və gücünü əks etdirən fikir və düşüncələr həmişə məni cəlb edir. Söz ürəklərin açarı, ünsiyyətin əsası və insanlığı səciyyələndirən amildir.

Mənim əzizlərim, Sizin gələcək həyatınız bilik və bacarığınızla yanaşı, danışıq mədəniyyyətinizdən də çox asılı olacaqdır. Sokratın bir kəlamı vardır: – Danış ki, səni görüm. Başqa bir kəlam da mövcuddur: – Dil insanlara onun üçün verilib ki, öz fikirlərini gizlədə bilsin.

Söhbəti düzgün aparan və düzgün quran, mənalı və az danışmağı bacaran kəs yaşından və vəzifəsindən asılı olmalaraq həmişə müdrik insan hesab olunub və ona cəmiyyətdə münasibət yüksək olub. Müdriklik yaşla yaranmır. Bəzən 15 yaşlı gənc 90 yaşlı ağsaqqaldan müdrik ola bilər.

Belə bir deyim vardır: – İnsanın yaraşığı müdriklik, müdrikliyin yaraşığı təmkinlik, təmkinliyin yaraşığı cəsarət, cəsarətin yaraşığı isə yumsaqlıqdır.

Peyğəmbərlərimiz, dünyada ad qoymuş düha sahibləri milyolnların ürəyini sözlə ala biliblər.

Məhəmməd peyğəmbər buyurub: – Təmiz və ruhu oxşayan söz ehsandır.

«Həqiqət mübahisədə yaranır» prinsipi həmişə həqiqəti üzə çıxarmır. Ümumiyyətlə söhbətlərdə mübahisəyə çox yer

ayırmaq mənim fikrimcə yaxşı hal deyildir. Mübahisə etdiyin adamın kimliyini başa düşüb söhbət aparmaq olar. Əgər onun höcətə başladığını hiss etsəniz, susmağa üstünlük vermək qənaətbəxşdir. Peyğəmbərimiz buyurub: – Axmaqların cavabı susmaqdır.

Xoş söz deməkdə xəsislik göstərməyin. İnsan könlünü alan, ürək yumşaldan söhbət həmişə şirin olur. Əgər hər hansı bir səbəbdən xoş söz demək istəmirsinizsə, pis, ürək ağrıdan sözü də deməyin.

ÇXR, Çan Çun
3.01.1990.

* * *

Bu gün yanvar ayının 9-dur. Mənim həyatımda bu, əlamətdar günlərdən biridir – Nailə ilə ilk tanış olduğum gün. Biz həmişə bu günü qeyd etimişik. Bu gündən başqa bizim ailənin tarixində daha 3 əlamətdar gün var:

– 17 sentyabr 1973 – Nişan günü
– 25 avqust 1974 – Kəbin (ZAQS) günü
– 23 noyabr 1974 – Toy günü.

Bu tarixlər və ailə üzvlərimin ad günləri bizim əziz günlərimizdir. Elcan və Elşən bu tarixlərdə səhər tezdən yuxudan duran kimi bizim yanımıza gələrək, məni və analarını təbrik edirlər.

Ailəvi dostlarımız da bu tarixləri bilirlər və ümumilikdə bizim bu bayramlara «День первого поцелуя» adı qoyublar. Ailə həyatında belə bayramların olması çox yaxşı haldır. Bu tarixlərin hər birində mən öz həyatımı yenidən yaşamış oluram. Onlar ömrümə yenilik gətirməklə yanaşı, məndə yeni ümidlər və inam yaradır. Səhv etmirəmsə Viktor Hüqo demişdir: 40 yaş gəncliyin qocalığı, 50 yaş isə qocalığın gəncliyidir. Mənim 39 yaşım var, lakin özümdə 25 yaşlı gəncin şuxluğunu və ruh yüksəkliyini görürəm. Səbəbini bu tarixlərin, bu bay-

ramların davamlığında, onların mənə bəxş etdiyi övladlarda, sevimli işimdə, qardaş və dostlarımda görürəm. Bütövlükdə isə Allahıma şükürlüyəm.

Ya Rəbbim, şükürlər olsun sənə! Sən nəzərlərini mənim və ailə üzvlərimin, qardaş və dostlarımın, qohum və əqrəbalarımın üzərindən əskik eyləmə! Hər bir kəsin qimətini ürəyincə ver!

ÇXR, Çan Çun
09.01.1990.

* * *

İlahi, nələr eşidirəm? Nələr baş verir? Dünya deyəsən ağlını itiribdir. Burdakı həmkarlarım mənə xəbər verdilər ki, Azərbaycana qoşun yeridilib. Çoxlu sayda ölən və yaralanlar var. Bakı ilə rabitə əlaqəsi yoxdur. Siz haradasınız?

Axırıncı dəfə Nailə mənə 17 yanvarda zəng edib, lakin danışa bilməmişik. Sonrakı günlər nə qədər çalışmışamsa telefon əlaqəsi yarada bilməmişəm. Bugünkü hadisədən sonra Çan Çun şəhərinin mərkəzi telefon stansiyasında 5 saat fasiləsiz dayanmağıma baxmayaraq Sizlərlə əlaqə yarada bilmədim. Sabah Pekinə yola düşmək qərarındayam. Bakıya qayıtmaq üçün icazə almaq lazımdır. Buradakı qonşular və dostlar məni sakitləşdirmək istəsələr də özümü tam toplaya bilmirəm.

Düşünürəm niyə belə bir şərait yaranıb. Cavabı birmənalı olaraq hökumətin «iflic» vəziyyətinə düşdüyündə görürəm. Kimə lazımdır belə hökumət? Əgər o öz vətəndaşlarını qoruya bilmirsə, çətində öz xalqına qarşı silah işlədirsə bu nə hökumətdir?

Mən C.Kennedinin bir kəlamı ilə tam razıyam. O deyirdi: – Heç vaxt soruşma Vətən mənim üçün nə edib, soruş – mən Vətən üçün nə etmişəm. Dövlət – dövlət olanda bu mövqedən çıxış etmək olar. Əgər o, dövlət deyilsə, bir qrup dələduzun (onlar isə həmişə qorxaq və etibarsız olublar) əlindədirsə, xalq nə etməlir?!

Bəlkə mən uzaqdayam, Bakıda baş verənlərdən xəbərim yoxdur və səhv edirəm?

Elcan və Elşən, siz nələr yaşayırsınız indi. Bu hadisələr sizin həyatınızda ilk çətin və ağır sınaqlardır. Ananızdan muğayat olun. Səhər sizinlə mütləq əlaqə yaradacağam. Ümidim sabahadır. Bircə səhər tez açılaydı.

ÇXR, Çan Çun
20.01.1990.

* * *

Bu gün yanvar ayının 26-dır. Çinlilər onlar üçün çox əziz və əlamətdar olan bayramı – Bahar bayramını qeyd edirlər. Bu bayram eyni zamanda yeni il kimi qeyd olunur. Çinlilər bu bayrama xüsusi olaraq hazırlaşırlar. Bir həftə heç bir müəssisə və ya təşkilat işləmir. Hamı səyahətə, uzaq qohumlarını və tanışlarını, xüsusən valideynlər ilə görüşmək niyyəti ilə gəzməyə çıxırlar. Mənim isə əhvalım heç də yaxşı deyildir. SSRİ-nin Pekindəki səfirliyindən mənim Bakıya qayıtmağıma qəti şəkildə etiraz etdilər. Bu müddətdə bir dəfə evlə danışa bildim. Sizlərin səsini eşitdim. Bir qədər sakitləşsəm də ürəyim yerində durmur. Mənim Bakım gözlərimin qarşısından çəkilmir. İnana bilmirəm ki, bu sakit, hörmətcil və mədəni şəhərdə indi əsgərlər əlisilahlı gəzir, tanklar əhali arasında vahimə yaradır. Doğma Bakım mənim, sən indi nələr yaşayırsan. Səni qarşıda nələr gözləyir. Belə bir çətin vaxtda səninlə olmadığıma görə məni bağışla, doğma şəhərim. Axı mən sənin hər küçəni və döngəni qarış-qarış gəzmişəm. İçərişəhərin, Qız qalasının, Göy məsçidin və yüzlərlə tarixi abidənin daşlarına əllərimi sürtmüşəm. Parklarındakı ağacların kölgəsində imtahanlara hazırlaşmışam, ilk sevgimi izah etmişəm, uşaqlarımın əlindən tutub onları qürur hissilə gəzdirmişəm. Harada olmuşamsa ürəyim həmişə səninlə olub. Sənin toz qoparan Xəzrin, mülayim Giləvarınçın burnumun ucu göynəyir.

İndi sən nələr yaşayırsan, divarlarında güllə və mərmi qəlpələrindən oyuqlar yaranıb, böyütdüyün oğul və qızları güllə-baran edirlər, tankın tırtırları altında tapdalayırlar.

İnan! Əlim çatmır sənə, Ana yurdum, doğma Bakım.
Sanma naxələf məni sən böyük olsa da günahım.
Sədaqətli oğlunam mən, uzaqda olsam da belə
Səninlədir ruhum, cismim, əqlim mənim, doğma Bakım.

Alçaq, zülmkar düşmənin bu gün əl qaldırır sənə
Ahıl bilmir, qadın bilmir, durub körpələr qəsdinə
Yırtıcı canavar kimi susayıbdır, qan istəyir
Qanımızdan doymayır heç, qan çəkilib gözlərinə.

Ulu Tanrım, kömək eylə, ümid təkcə sənə qalıb
Mənim xalqım təkcə qalıb, qaçan qaçıb, satan satıb.
Canavarın qarşısına çıxmaq üçün aslan gərək
Göndər bizə o qeyrəti, zaman keçir, vaxt daralıb.

Rəbbim mənim, bu millətdən əsirgəmə nəzərini
Qaytar bizə Babək əzmin, Koroğlunun hünərini.
Görən bizim alnımıza itirməkmi yazılıbdır?
Bizdən özgə kim çəkəcək anaların qeyrətini?

Qarşındayam dizi üstə, dönə-dönə yalvarıram,
Yad torpaqda, qərib eldə hönkür-hönkür ağlayıram.
Səndən ümid, səndən pənah istəyirəm, Ulu Tanrım!
Bugünümü, sabahımı təkcə sənlə bağlayıram.



Daxilimdə çox qəribə bir hissiyyat var. Mənə elə gəlir ki, bu hadisələr Azərbaycanı müstəqillik yoluna gətirəcəkdir. Təpərli bir oğul gərəkdir. İndi çoxlu gənc siyasətçilər yetişib. Elçibəy və onun komandası ara-sıra sözünü deyirlər. Lakin onların səviyyəsində rus hiyləsinə və qüvvəsinə qarşı çıxacağımıza inana bilmirəm. Məlumatım çox azdır…

Tsilin Universitetinin burada çalışan xarici vətəndaşlar üçün tərtib etdikləri proqrama görə biz sabah Çinin şimalında yerləşən Dalyan – rusların Dalnıy kimi adlandırdıqları keçmiş

Port-Artur şəhərinə getməliyik. Lakin həvəs yoxdur. Bakı hadisələri başımdan çıxmır. Getməyə də bilmirəm, mən qrupun başçısı olduğumdan bütün sənədlər qabaqcadan mənim adıma yazılmışdır.

ÇXR, Çan Çun
26.01.1990.

* * *

Bu gün 5-ci gündir ki, bizim qrup Dalyandadır. Rus imperiyası dövründə bu şəhər Dalnıy (Port-Artur) adlanırdı. Buraya gələndə yolda bərk soyuqladım və 3 günlük xəstəlikdən sonra bir az özümə gəlmişəm, bu gün birinci dəfədir ki, mehmanxanadan çıxdım və şəhəri gəzməyə getdim. Şəhərin gözəlliyinə söz ola bilməz. Şəhərin arxitekturasında rus nəfəsi hiss olunur. Lakin buna baxmayaraq tarixi abidələr, Çin üslubunda tikilmiş binalar, zövqlə bəzədilmiş vitrinlər bu gözəlliyi bir az da füsunkar edir.




Sovet İttifaqının Çinə ezam olunmuş mütəxəssisləri

Bizim buraya gələn və Çan Çunda rus dilini tədris edən Usenko Larisa Yuryevnanın şəhər haqda geniş məlumatı vardır.

Son hadisələr, Bakıdakı vəziyyət, sizin nigarançılığınız bu səfərdən maraqlanmağa qoymur. Fikrim və düşüncələrim, Bakı, sizlərlədir. Sabah Çan Çuna qayıdacağıq.

ÇXR, Dalyan
01.02.1990.

* * *

Bu gündən tam sağalmışam, xəstəliyim ötüb keçib. Özümü çox yaxşı hiss edirəm. Çox darıxmayın görüşməyimə lap az qalıb. 27 fevral tarixində Pekində olacağam. Artıq biletim əlimdədir. Günləri və saatları sayıram. Vaxtımı sizdən aldığım məktubların dönə-dönə oxunması ilə keçirirəm. Anam və onun sözləri tez-tez yadıma düşür. Gənclik vaxlarında evə gecikəndə və ailəli olduğum müddətdə ona gec baş çəkəndə inciyərdi. Səbəbini soruşanda isə deyərdi: – Öz balalarınızı gözləyəndə məni başa düşəcəksiniz. Sizin məktublarınızı oxuyanda bunu aydın dərk edirəm. Əgər təkcə məktubunuzu oxumaq mənə bu qədər sevinc bəxş edirsə, görən sizləri qucaqlamaq nə qədər ləzzətli və əvəzolunmaz bir şeydir. Anam məndən inciyəndə fikirləşərdim ki, İlahi, bu valideynlər nə qədər eqoistdirlər. Təkcə özlərini fikirləşirlər. Düşünmürlər ki, axı övladların işləri var, iş yerində, ailəsi qarşısında məsuliyyətləri var, hər gün ata-ananı yoxlamağa vaxt olmur. Nə qədər səhv fikir, nə dərəcədə axmaq bir izahat. Mən indi anlamağa başlayıram ki, dünyaya gətirdiyin, hər gün gördüyün, nazını çəkdiyin, nəfəsini duyduğun, səsini eşitdiyin, qoynunda bəslədiyin övladını arabir, vaxtaşırı, hadisədən hadisəyə, bayramdan bayrama görəcəksən və ya səsini eşidəcəksən. Anlamağa başlayıram ki, anamın qarşısında günahım nə qədər böyükdür və bunu dərk etdikcə özümü qınayıram. Deyirlər ki, təbiətin əsası belə qoyulub – zaman keçdikcə valideynlərə olan məhəbbət övladlara

keçir. Sonra isə nəvələrin məhəbbəti şəklində babaya və nənəyə qayıdır. İnşallah, qismət olsa bu hikməti görərik.

ÇXR, Çan Çun
06.02.1990

* * *

Artıq Pekindəyəm. Pekin Universitetinin qonaq evində yerləşmişəm. Sabah SSRİ-nin Çindəki səfirliyinə getməliyəm. Orada tam hesablaşma aparıb və geriyə qayıtmaq haqda əmrimizi və digər sənədləri almalıyam. 5 gün Pekində olacağam. Böyük planlar tərtib etmişəm. Mütləq Çin səddinə getməliyəm, İmperator sarayında, Səma məbədində, Tyananmen meydanında və başqa yerlərdə olmalıyam.

Qonaq evində bir azərbaycanlı ilə tanış oldım – Rövşən Xəlilov. ADU-nin müəllimidir, o da mənim kimi elmi ezamiyyətə gəlmişdir. Qərar gəldik ki, sabah onunla birlikdə Çin səddinə gedək. Vaxt tapsaq Səma məbədini də ziyarət etmək istəyirəm.



Rövşən Xəliliov ilə birlikdə

Pekin çox gözəl şəhərdir. Buradakı yolayrıcıları, körpülər, geniş meydanlar insanı valeh edir. Küçələr, mağazalar insanlarla doludur. Mən bu gözəlliklərə baxdıqca bircə şeyi arzulayıram – Elcan, sən burada təhsil alasan, Şərqin belə bir qüdrətli və əzəmətli ölkəsində tanınmış bir ali məktəbdə ixtisas sahibi olasan.

Geriyə biletim mart ayının ikisinədir. Sizləri bağrıma basmağa çox az vaxt qalıb. Hələlik, mənim əzizlərim. Bakıda görüşənə qədər.

ÇXR, Pekin
26.02.1990.

* * *

3 mart 1990-cı il tarixində Çin-SSRİ sərhəddini keçdik. Bu anda keçirdiyim hisslər bu ölkəyə gəldiyim zaman keçirdiyimdən daha güclü idi.

Bizim qatarımız 7 martda Moskvaya çatdı. Məni Nailə və İlham qarşıladılar. O dərəcədə həyəcanlı idim ki, o görüşü təfsilatı ilə yada sala bilmirəm. Bircə o yadımdadır ki, İlham yükümüzdən nə isə götürüb həmən gün Bakıya qayıtdı. Mən və Nailə «Universitetskaya» mehmanxanasına gəldik. Həmin gün Təhsil Nazirliyinə getdik. Bəzi təşkilati işlərdən sonra mehmanxanaya qayıtdıq. Axşam Kursk vağzalından Bakıya qayıdacağıq.

Mənə elə gəlirdi ki, mən Nailəni görəndə aramsız olaraq onunla danışacağam. Çox təəssüflənirəm ki, belə olmadı. Şok keçirən adama oxşayıram. Danışmaq istəyirəm, bacarmıram. Hey uşaqları soruşuram. Özün necəsən? Necə yaşayırsan? Bu sualları ona verə bilmirəm. Özümü çox günahkar hesab edirəm onun qarşısında. Bu ikinci dəfə idi ki, mən onu uşaqlarla tək qoyub uzaq məkana gedirdim. Özümə söz verirəm – bir də belə olmayacaq. Onu tək qoyub heç bir yerə getməyəcəyəm. Haraya getsəm, onu da özümlə aparacağam. Əgər bu münkün olmasa getməyəcəyəm.

Moskva
09.03.1990.

***

Çindən qayıtdığım vaxtdan 6 aya yaxın müddət keçib. Başım bərk qarışıqdır. Ev almaq məsələsilə məşğulam. Bir neçə evə baxmışıq. Hələlik qəti bir seçimimiz yoxdur. 4 avqust tarixində Nabrandakı istirahət zonasına getmişdik. 3 gün qaldıq orada. Elcan sarılıq xəstəliyinə tutulduğundan təcili qayıtdıq. Oradan onu birbaşa xəstəxanaya apardıq. Bu gün o xəstəxanadan çıxır. Bir il ciddi pəhriz saxlamalıdır. Onun üçün çox çətin olacaq. Onsuz da onun fiziki durumu zəifdir. O öz üzərində çox çalışır. Məktəbi əla qiymətlərlə qurtarmağı qarşısına məqsəd qoyub. Arzusu ADNA-ya daxil olmaq və xaricdə təhsilini davam etdirməkdir. Qismət Allahdandır.

Bakı
26.08.1990.

***

Yenə Çindəyəm. Bu 1990-cı ildə Çinə mənim üçüncü səfərimdir. Bundan əvvəl mən buraya Azərbaycan Dövlət Konsert Birliyinin direktoru İldırım Qasımov və onun müavini, mənim adaşım İbrahimlə gəlmişdik.

Bu səfərimizdə nümayəndə heyətinin tərkibində bizim universitetin (ali məktəbimiz Azərbaycan Sənaye Universiteti adlanır) prorektoru Eldar Mövsümzadə, xarici əlaqələr şöbəsinin müdiri Tofiq Abbasov, Rafiq Quluzadə və mən varam. Səfərimizin məqsədi Çinin Tsilin vilayətinin Texnoloji Universiteti ilə Azərbaycan Sənaye Universiteti arasında ikitərəfli əməkdaşlıq müqaviləsinin bağlanmasıdır.

Çinli həmkarlarımız bizim nümayəndə heyətini Pekində yüksək səviyyədə qarşılayaraq şəhərin ən dəyərli otellərinin birində – «Dostluq» otelində yerləşdirdilər. Axşam Pekini gəzdik. Səhərisi gün Çan Çuna uçduq. Buradakı qarşılama daha təmtaraqlı idi.

28–30 noyabr tarixlərində müqavilənin bəndləri üzərində işlədik, universitetin bazası ilə tanış olduq, dərs proseslərini və tələbələrin yaşayış tərzini öyrəndik.

Təntənəli şəraitdə müqavilənin imzalanması prosesi həyata keçirildi. Bizim nümayəndə heyətini şəhərin görməli yerləri ilə tanış etdilər. Mən bunların hamısını görmüşdüm, lakin mənim dostlarım üçün hər şey yeni və çox maraqlı idi.



ADNA-nın nümayəndə heyəti



02.12.1990 tarixində Pekinə qayıtdıq. Sabah Çin səddinə səyahətə gedəcəyik. 04.12.1990 tarixində Moskvaya, oradan isə Bakya qayıdacağıq.

Bu səfərə qədər mən Tofiqi yaxşı tanıyırdım, lakin Rafiq Quluzadəni özüm üçün kəşf etdim.

ÇXR, Çan Çun
03.12.1990.

* * *

Bu qeydləri aparmağa başlayanda düşünürdüm ki, onlar mütəmadi olacaqdır. Lakin vaxt və şərait, eləcə də gündəlik problemlər bu istəyimin həyata keçirilməsində maneələr yaratdığından sözümün üstündə dura bilmirəm. Bu səbəbdən belə

bir qərara gəlmişəm ki, vaxtaşırı qeydlər apara bilmədiyim halda il ərzində həyatımda olan önəmli hadisələri mütləq yazılı şəkildə dəftərimdə əks etdirim.

Bizim ailəmiz üçün bu ilin ən dəhşətli günü mart ayının 27-si oldu. Həmin gün Anam dünyasını dəyişdi. Həyatının son üç gününü koma vəziyyətində yaşadı. Deyə bilmədi son sözünü.

Ölümündən qorxmurdu Anam. Hər yaşadığı ili və günü Allahın töhfəsi kimi qəbul edirdi. O, mənim arxam və dayağım idi. Dünyasını dəyişəndən sonra, bu itkinin ağırlığını hiss etdim, anasızlığın nə oluğunu duydum. İndi elə hərarətdə sıxılası sinə yoxdur mənim üçün, bu geniş dünyada ağlayıbboşalası doğma qucaq yoxdur mənim üçün. 40 yaşında hiss etdim ki, arxam uçub, dayağım yoxdur.

Hər dəfə onun məzarı üstə gələndə bu təklik və itki hissləri məndə artır. Onun qəbir daşında B.Vahabzadənin anasına həsr ediyi şerin həkk olunmuş bir bəndini oxuduqca göz yaşlarımı saxlaya bilmirəm:

Ana, tapşırıldın ana torpağa
Bu ağrı sinəmə dağ çəkdi mənim.
Sən mənim arxamda bənzərdin dağa
Elə bil arxamdan dağ uçdu mənim.

Ay Ana, Allah sənə rəhmət eyləsin! Məzarın nurla dolsun! Atam və anam bir yerdə dəfn olunublar. Məzarları üstündə həmişə bütün ailə ilə yığışırıq – oğullar, gəlinlər, nəvələr və nəticələr. Siz bu gün də bizim hamımızı birləşdirirsiniz. Biz hamımız sizə minnətdarıq. Bizlərin hər birisi durduqca Sizin xatirəniz yad ediləcəkdir.

Bu il mənim üçün, eyni zamanda, çox məhsuldar olub. Çoxlu sayda elmi məqalələrlə mətbuatda, konfrans və seminarlarda iştirak etmişəm. Doktorluq dissertasiyamı tamamlamışam. Bu işdə mənə dəstək olan professor Sabir Babayevə öz minnətdarlığımı bildirmək istəyirəm. O, məndə elə həvəs

yaratmışdı ki, 11 ay müddətində dissertasiyanı tam tərtib edib oxumaq üçün ona təqdim edə bilmişdim. O da öz növbəsində işi çox diqqətlə oxudu. Akademik Azad Mirzəcanzadənin qəbuluna düşərək dissertasiya işimin vəziyyəti haqda məlumat verdim. O, mənə bir qədər gözləməyi tövsiyə etdi.

1992-ci ildə təmiri başa çatmış evimizə köçə bildik. 12 aprel tarixində ən yaxın dostlarım – Rafiq Quluzadə, Tahir və Elmira xanım, Tofiq və Lətifə xanım ailə üzvləri ilə birlikdə bizə gəlmişdilər. Mən o gün birinci dəfə hər şəraiti olan evimdə ailəmlə birlikdə gecələdim.

Bu müddətdə baş vermiş ən önəmli hadisə Elcanın birdənbirə iki instituta daxil olmasıdır: «Xəzər» Universiteti və Azərbaycan Neft və Kimya İnstitutu. Bu danılmaz bir faktdır ki, Azərbaycanın maddi və mənəvi sərvətləri çoxdur və bunların sırasında ən dəyərlisi və şərəflisi onun Neft Akademiyasıdır. Mən çox şadam ki, oğlum Elcan da bu ali məktəbi seçdi.

Oktyabr ayında ÇXR-nın Azərbaycandakı müvəqqəti işlər vəkili Lau Canla tanış olmuşam. Zaman baxımından kiçik bir dövr olsa da belə bu insan ürəyimə yaman yatıb. Tez-tez zəngləşirik. Söz verib ki, yeni ildə bizə qonaq gəlsin. Yeni ildə yeni evə diplomatın gəlişini çox uğurlu hal hesab edirəm və bu təşrifi səbirsizliklə gözləyirəm.



«Azəriqaz» Dövlət Şirkəti yaradılıb. Prezidentin sərəncamı ilə Tariyel Hüseynov ora rəhbər, dostum Azər Abdullayev isə bu təşkilata vitse-prezident təyin olunublar. O, məni də bu təşkilata işə cəlb etmək istəiyr.

Bakı
30.12.1992.

* * *

Sabah «Azəriqaz» DŞ-nin vitse-prezidenti Azər Abdullayevlə birlikdə Moskvaya, oradan isə Pekinə uçacağıq. Əsas məqsəd qaz sayğaclarının seçimi, qiymətlərin müəyyən olunması və əgər hər şey alınarsa, müqavilənin layihəsini

işləməkdir. Qeyd etməliyəm ki, bu müddətdə Çinin Tyanzin maşınqayırma zavodunun nümayəndələri Azərbaycanda olublar. Onlar qaz sayqaclarının müxtəlif nümunələrini Bakıya gətirərək şirkətin mütəxəssisləri qarşısında nümayiş etdirmişdirlər.

Hər bir şeyin tərəfdarı və istəməyənləri olduğu kimi bizim bu işimizin də opponentləri çoxdur. Əlindən iş gələn də, gəlməyən də mütləq çıxış edib nə isə deməyi hünər bilir.



Azər Abdullayevlə Çində

Bütün söhbətlərə son qoymaq üçün Tariyel müəllim ora nümayəndələr göndərməyi qərara alıb, bu işi Azər müəllim və mənə həvalə edib. Bu, işgüzar səfər olmaqla bərabər, mənə Elcanla bir həftə birlikdə olmaq şansı verdi.

Bakı
06.03.1993.

***

1993-cü ildə nəhayət ki, dissetasiya işimi müdafiə şurasına təqdim etdim. Müəyyən maneələr yaranacağını qabaqcadan bildiyimdən onlara hazıram. Əsas məsələ ondadır ki, İxtisaslaşmış Şuranın sədri akademik Azad Mirzəcanzadə bu işi dəstəkləyir. Onunla görüşəndə mənə dedi: İşinizə baxmışam və onu Şuraya göndərmişəm.

Azad müəllimi tanıyanlar bunun nə demək olduğunu başa düşürlər. Əgər onun hər hansı bir iradı olsaydı və ya işin aktuallığı və dəyəri onun tələblərinə cavab verməsəydi, o heç vaxt belə etməzdi. Bu səbəbdən bir az sakitəm və özümə tam arxayınam.

Elcan Xəzər Universitetində təhsilini dayandıraraq, bütün qüvvəsini bizim institutda oxumağa yönəltmişdi. Birinci kursu əla qiymətlərlə başa vurduğundan, onu Azərbaycan Respublikasının Təhsil Nazirliyinin xəttilə Pekinə oxumağa gondərmək qərarı qəbul edilmişdir və onlar 4 nəfər – Elcan, Misir, İsmayıl və Vlad hal-hazırda Pekindədirlər.

Azərbaycanda qaz sayğaclarının istehsalına başlamaq və bunun üçün Çin texnologiyası və mütəxəssislərindən istifadə edilməsi məqsədilə Azər Abdullayevlə birlikdə Çində olduq. Bu işdə bizə həmin dövrdə Çin Xalq Respublikasının Azərbaydandakı müvəqqəti işlər vəkili, mənim dostum Can Kuy Şi yaxından köməklik edirdi. Burada mən gözəl bir insanla tanış oldum – Li Xan Cen. O, çox işgüzar, bacarıqlı biznesmendir.

Dünya Bankı Azərbaycanın qaz təsərrüfatının reabilitasiyası istiqamətində iş aparır. Hər ay «Azəriqaza» Fransa, ABŞ, Almaniya və digər ölkələrdən mütəxəssislər gəlirlər.

Onlarla işləmək üçün «Azəriqaz»ın prezidenti Tariyel Hüseynov işçi qrupun yaradılması haqda əmr vermişdi və məni işçi qrupun tərkibinə daxil etmişlər.



Çin Xalq Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili Can Kuy Şi və onun xanımı Van



Dostum Li Xan Cen ilə Çin dənizindəyik

Önəmli hadisələrdən biri də odur ki, Elcan artıq bizim Çindəki səfirliyimizin əməkdaşıdır. O, öz əmək fəaliyyətinə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində referent vəzifəsindən başlayır. Sənə uğurlar olsun, Oğlum!

Bakı
30.12.1993.

## FRANSAYA SƏFƏRİM

Dünya Bankının dəstəyi ilə Azərbaycan Respublikasının qaz təsərrüfatının yenidən qurulması layihəsi çərçivəsində «Azəriqaz» DŞ-nin bir qrup işçisi Tariyel müəllim başda olmaqla Fransaya ezam olundu. Qrupun tərkibində mən, Bakı şəhər qaz idarəsinin rəisi Ə.İsmayılov, yüksək peşəkarlığı, bilik və təcrübəsi ilə seçilən N.Səmədzadə və bizim tərcüməçimiz Rauf da var idi. Parisə İstanbuldan uçurduq.

Mənim çoxdankı arzum gerçəkləşdi – İstanbuldayam. Paytaxtlar paytaxtı – qədim Roma, sonradan Bizans və Osmanlı İmperatorluqlarının paytaxtı olan, yuxularımda gördüyüm, həsrətində olduğum İstanbul. Səni necə sevməmək olar?



Sultan Əhmet Məscidi



İstanbuldakı müxtəlif ziyarətgahlar, muzeylər, kilsələr, saraylar, məscidlər və s. haqda çox oxumuşdum. Onları görmək isə tam başqa bir gözəllik idi. Onların hamısını görmək istəyirdim. Altı minarəsiylə İstanbulun simvolu olan «Göy Məscid" və ya Sultan Əhmet Məscidini, məşhur Ayasofya Muzeyinə getmək, oradakı pannolardan həzrəti İsanın və həzrəti Məryəmin mozaikalardakı təsvirlərinə baxmaq, «Göy

Məscid»i öz gözlərimlə görmək istəyirdim. Sahil boyu gəzmək də bu istəklərim sırasındadır.

Qərara gəldik ki, ilkin olaraq Sultan Əhmet Məscidininə və Ayasofya Muzeyinə gedək. Sonra isə Boğazın sahilinə gedək. Parisdən qayıdanda isə digər yerləri ziyarət edərik.

Şəhər çox basırıqdır. Burada 10 miliyona yaxın adam yaşayır. Küçələr insanlarla doludur.

Sultan Əhmet Məscidi Türkiyənin ən böyük məscidi hesab olunur. Onun 6 minarsəsi vardır.

Məscid Mərmərə dənizinin sahilində yerləşir. Konstantinopolun türklər tərəfindən tutulmasından sonra Osmanlı imperiyasının əsas müsəlman məbədi «Ayasofya» məscidi hesab olunurdu. 1609-cu ildə Sultan Əhməd öz monumentallığına görə Bizans imperatorlarının məbədindən geri qalmayan məscid tikdirməyi əmr edir. O zaman sultanın 19 yaşı var idi və gəncliyində törətdiyi günahının Allah tərəfindən bağışlanması üçün bu məscidi tikdirmək əmrini vermişdi. Günah da ondan ibarət olmuşdu ki, o Avstriya imperatoru ilə мüqavilə bağladığı zaman «kafirlərin hökmdarını» «Möminlərin hökmdarı» ilə bərabər tutmuşdu. Bu müqavilə İstanbulda böyük narazılıqla qarşılandı. Sultan öz «səhvini» İstanbulda möhtəşəm məscid tikdirməklə düzəltməli olmuşdur.

Məscidin memarlıq üslubu özündə klassik Osmanlı və Bizans məktəbini birləşdirir. Sultanın göstərişinə əsasən məscid dörd minarəli olmalıymış, ancaq memar sultanın əmrini unudaraq onu, altı minarli inşa etmişdi və buna yeddi il vaxt sərf etmişdi. Binanın inşası 1616-cı ildə başa çatmışdır.

İstanbulun hər bir daşının, divarının bir tarixi vardır və bu tarix olduqca maraqlıdır. Türklər öz tarixlərini bilirlər və onunla fəxr edirlər.

Vaxtım olduqca azdır. Oteldəyik və aeroporta getməliyik. Üç saatdan sonra təyyarəmiz Parisə uçacaq. Qalan təəssüratlarımı təyyarədə yazacağam.

İstanbul, Türkiyə
22.07. 1994.

***

Təyyarəmiz Parisin Şarl De Qoll hava limanında yerə endi. Çox böyük bir limandır. Bizi Fransanın «Sofreqaz» şirkətinin nümayəndələri və əslən azərbaycanlı olan Amerika vətəndaşı Robert Heyət qarşıladılar. O, dünyaşöhrətli həkim Cavad Heyətin qardaşı oğludur. Otelimiz şəhərin mərkəzindədir. Nahardan sonra bizi həftəlik proqramla tanış etdilər.

Axşam bizi şəhərin görməli yerlərinə baxmağa apardılar. Parisdə həyat axşam saat 10-dan sonra başlanır. Küçələrdə və meydanlarda insan axınının sayı-hesabı yoxdur. Kafelərin qarşısındakı oturacaqların hamısı müştərilərlə doludur. Ümumiyyətlə şəhərdəki bulvarlarda olan kafelər parislilərin ən böyük məşğuliyyət yerləridir.

Möhtəşəm Mulen Rujun yanından keçdik. Bizi müşayiət edən və «Sofreqaz»ın aparıcı mütəxəssisi olan, əslən mərakeşli Tarih bildirdi ki, 25 iyulda bizim əfsanəvi əyləncə məkanına dəvətimiz vardır. Mən iş rejimimiz haqda heç nə yazmaq istəmirəm. Bircə onu demək istəiyrəm ki, Azərbaycanın iqtisadi durumu düzələndən sonra belə texniki səviyyədə fransızlara yaxınlaşmaq üçün bizə ən azı 25–30 il vaxt lazımdır.

Paris dünyanın ən gözəl şəhərlərindəndir. Çox vaxt onu Avropanın paytaxtı adlandırırlar. 2000 ildən çox tarixi vardır. Eyfel qülləsi onun simvoludur. Ona yaxınlaşmamaq, imkan olsa, onun baxış meydançasına çıxmamaq qəbahətdir. İlk ziyarətimiş Eyfel qülləsi oldu. Sonra Monmartra getdik.

Monmartr Parisin ən yüksək nöqtəsi sayılır. Orada Fransanın ən əzəmətli və təkrarolunmaz arxitekturası olan Sakre-kör bazilikası (kilsəsi) yerləşir. Burada həvəskar rəssamlar 15 dəqiqəyə sənin portretini çəkirlər. Çoxlu suvenirlər satılır burada.

Tarix bizə danışdı ki, Salvador Dali, Teodor Russo, Jan-Batist Koro, Pyer-Oqüst Renuar, Anri Tuluz-Lotrek, Santyaqo Rusinyol, Ramon Kasas, Vinsent van Qoq və Pablo Pikasso bu yeri çox xoşlamışlar. Tez-tez buraya gəlib rəsm əsərləri çəkərmişlər.



T.Hüseynov, N.Səmədzadə, İ.Həbibov və Rauf Rəfiyev
Eyfel qülləsində

130 metr yüksəklikdə olan bu məkandan şəhərə funikulyorla və ya gözəlliyi ilə seçilən pilləkənlər silsiləsilylə düşmək olar. Biz bu gözəl şəhəri seyr etmək məqsədiylə pilləkənlərlə düşməyə üstünlük verdik.

Mulen Rujdakı konserti gördüyüm kimi yaza bilmirəm. Mənim həyatımda belə bir konsertə tamaşa etmək şansı olmamışdır. Birinci dəfə idi ki, konsert zalında masa arxasında oturub, fransa mətbəxinin təamlarını dadaraq belə bir konsertə baxırdıq.

Məşhur fransız rəssamı Anri Tuluz-Lotrek məhz bu səhnədə rəqs edən rəqqasələrin portretlərini özünəmənsub üslubda çəkməklə bütün dünyada məşhurlaşmışdır. Düzdür, bu məşhurluq səfalət və yoxsulluq içində yaşayan və ölən Lotrekə sonradan nəsib olmuşdur.

Biz «Sofreqaz»ın əməkdaşlarından xahiş etmişdik ki, treninqlərdən sonra axşamlar bizi boş buraxsınlar. Hər axşam özümüz bir marşrut seçib Parisin gecə həyatını daxildən müşahidə edirdik. Yelisey çölləri, Mare kvartalı, San Jermen bulvarı və s. bir-bir gəzdik.



Mulen Rujda konsert

İlk dəfə mağaza və restoranların vitrinlərində maniken əvəzi əyləşən və ya duran qızları gördüm. Parislə bağlı xatirələrim çoxdur, başqa bir vaxt daha geniş yazacağam. Sabah isə İstanbula, oradan da Bakıya qayıdacağıq.

Paris, Fransa
28.07.1994.



* * *

Bu il mənim üçün çox gərgin il olmuşdur. O, ailəmiz üçün xoş və ağır anlarla dolu idi. Dəftərimdə gündəlik qeydiyyat aparmadığımdan ilin sonunda qısa xülasə yazmağı qərara aldım.

1994-cü ildə mənim şəxsi həyatımda baş verən xoş hadisələrdən birisi doktorluq dissertasiyasını müdafiə edərək qısa müddətdə təsdiqimi almağım olmuşdur. Professor adı almaq üçün sənədlərimi Ali Attestasiya Komissiyasına göndərmişəm.

«Azəriqaz» və ÇXR-nın «Minmetals» şirkətləri arasında uzun müddət üzərində çalışdığımız müqavilə imzalandı. Bu çox məsul və əks-səda doğurmuş müqavilədir. Bircə o faktı

qeyd etməliyəm ki, müqavilənin əsas bəndləri Azərbaycan Respublikasının Baş nazirinin müavininin otağında müzakirə edilmişdi.

Qabaqda işlər çoxdur. Bu qeydləri Yeni il ərəfəsində edirəm. Yazmağa vaxt yoxdur.

Bakı
29.12.1994.

* * *

Bu il ailəmiz üçün ən önəmili hadisə Elşənin orta məktəbi bitirib Azərbaycan Dövlət Neft Akademiyasına qəbul olmasıdır. Onunla dörd müəllim məşğul olurdu. Böyük səylərdən sonra o öz iradəsinin sayəsində ali məktəbə daxil oldu. Qarşıda onu semestr imtahanları gözləyir.

Azərbaycanda qaz sayğaclarının quraşdırılması işi sürətlə həyata keçirilir. Mən çox fəxr edirəm ki, belə bir böyük layihənin iştirakçısı, təşkilatçılarından biriyəm. «Azəriqaz» Dövlət Şirkətinin prezidenti Tariyel Hüseynova öz dərin minnətdarlığımı bildirirəm. O, mənə çox inanır və etibar edir. Biz onunla birlikdə Çində olduq.

Ümumiyyətlə Tariyel müəllim bir mütəxəssiz kimi əvəzsiz, bir insan kimi müqayisəolunmazdır.



T.Hüseynov Tyanzin maşınqayırma zavodunda

1995-ci il yazında ADNA-nın «Mühəndis qrafikası» kafedrasına müdir vəzifəsinə seçilmişəm. Bu mənim çoxdankı arzum idi. Məsələ ondadır ki, mən əvvəllər bu kafedrada işləmişəm. 1984-cü ildə namizədlik dissertasiyasını müdafiə etməyimə baxmayaraq, kafedranın bir neçə nəfər üzvü heç cür mənim dosent vəzifəsini tutmağımla razılaşmaq istəmirdilər. Gərginlik o dərəcəyə çatmışdı ki, mən kafedradan getməli oldum. Daxilimdə elə bir ağrı, elə bir sıxıntı və inciklik var idi ki, onda özümə söz verdim – gec-tez bu kafedraya qayıdacağım və bu insanların axırına çıxacağam. Bu gün məndə o hisslər yoxdur. Nə yaxşı ki, yoxdur. Mən buna çox şadam. Ona görə şadam ki, ürəyim qüvvətlənib, lakin daşa dönməyib. Ağlım və idrakımla hisslərimi cilovlaya bilmək qabliyyətini qazana bilmişəm.

Mənim övladlarım, intiqam hissilə yaşamaq olmaz, lakin ədalətin zəfər çalması üçün mübarizə aparmaq lazımdır. Bu mübarizə əl-qol və ya güc savaşı deyil, elmin və bacarığın nümayişi olmalıdır.

Vaxtı ilə mənim əksimə səs verən insanların böyük əksəriyyəti də öz səhvlərini başa düşüblər, indi aramızda qarşılıqlı hörmət və ehtiram vardır. Başqa cür ola da bilməzdi. Onlar da mənim kimi müəllimdirlər. Əgər biz – müəllim olmaqla, səhvlərimizi başa düşüb, onları boynumuza ala bilmiriksə, bizlər necə müəllimlik edə bilərik. Nə isə işdən çox danışdım.

Çinin aparıcı təşkilatlarından biri ilə biznes əlaqəsi qura bilmişəm. Ailəmizin maddi vəziyyəti xeyli dərəcədə yaxşılaşıb.

29 sentyabr 1995-ci ildə Elcanın 20 yaşı tamam olması münasibətilə hədiyyə olaraq ona ev aldıq. Onun təmirinə başlamışıq. Böyük Yaradana şükürlər olsun.

Bakı
25.12.1995.

## İSRAİLƏ SƏFƏRİM

Bir neçə həftə əvvəl Əliseyn Camalov mənə dedi ki, Azərbaycan Sənaye-Ticarət Palatası İsrailə biznes-tur təşkil edir. «Azəriqaz» DŞ-nin prezidenti bu səfər üçün nümayəndə heyətinin formalaşmasını ona həvalə edib və mən bu işdə ona köməklik etməliyəm. O, eyni zamanda bildirdi ki, nümayəndə heyətinin tərkibinə məni daxil edib və Ticarət Palatası ilə əlaqə saxlayım, lazımi sənədləri hazırlayım.



Əl-Aska məscidi

Qədim Fələstin torpaqlarına ayaq basmaq, Qüdsü görmək, müqəddəs Əl-Aska məsçidini ziyarət etmək, dünya dinlərinin yaranma və kəsişmə nöqtələri olan bu diyarı addım-addım gəzmək hər insana nəsib olmur.

Bildiyiniz kimi Məhəmməd peyğəmbər Məkkədə yaşadığı dövrdə və Mədinəyə hicrət edəndən sonra 17 ay müddətində

üzünü Əl-Aska məscidinə tutub namaz qılarmış. Meraca da o məhz buradan yollanmışdır.



Əl-Aska məscidinin qarşısında

Yanvar ayının 3-də Bakıdan uçaraq İsrailin paytaxtı Təl-Əviv şəhərinin Ben Qurion hava livanında yerə endik.

İsrail dövləti 1948-ci ildə tarixi Fələstin torpaqlarında yaradılıb. Onun yaranması ilə böyük bir xalq öz tarixi torpaqlarında əsarətə düçar edilib. Lakin bu xalqda olan əzm, özünəinam, cəsarət və qüdrət hər bir kəsi inandırır ki, əvvəl-axır onlar öz dövlətlərini quracaqlar. Bir də ki burada böyük dövlətlərin maraqları üst-üstə düşdüyündən proseslər axır keçir. Bizim ölkədə Amerika, Rusiya, Türkiyə və Avropa Birliyinin maraqları olduğu kimidir.

Hava limanındakı təhlükəsizlik qaydaları məni valeh etdi. Hər bir insan, hər bir şey nəzarət aldındadır. Bunun subyektiv və obyektiv əsasları vardır. Bu haqda çox yazmaq olar, lakin buna nə həvəs, nə də vaxt vardır.




Ə.Camalovla Təl-Əvivin ticarət mərkəzində

Şəhərdəki təmizlik və yaşıllıq insanı valeh edir. Hər bir kolun, hər ağacın dibinə süni suvarma sisteminin köməkliyi ilə su verilir. Binaların damlarında da ağaclar və kollar əkilib. Hər bir ev fərdi qızdırıcılarla (günəş qızdıpıcısı) təchiz edilmişdir.

Bizi dəniz sahilindəki gözəl bir oteldə yerləşdirdilər. Otelin üzgüçülük hövuzu, saunası, idman və masaj zalları vardır.

Bizi iş proqramımızla tanış etdilər.

Həmin axşam otelin konfrans zalında Azərbaycandan gələn mütəxəssislərlə İsrailin iş adamlarının görüşü oldu. Qeyd etməliyəm ki, bizim nümayəndə heyəti çox geniş tərkibdə iştirak edir. «Azəriqaz»dan, Sumqayıtın müəsissələrindən (zavod «Orqsintez», Kimya kombinatı, «Sintetik kauçuk» zavodu və s.), bank və sığorta təşkilatlarından, mətbuat yayımı şirkətlərindən rəhbərlər bu görüşdə iştirak edirdilər. Görüş çox maraqlı və işgüzar oldu. Sabah bizim müəssisələrə səfərimiz olacaq.

Təl-Əviv, İsrail
03.01.1997.

***

06.01.1997-ci il tarixində Qüdsə getdik. Əvvəlcə Biblihemdə İsa peyğəmbərin doğulduğu yeri ziyarət etdik. Bu şəhər dünyanın ən qədim şəhərlərindən biridir. Əsası b.e.ə. XVII–XVI əsrlərdə qoyulub.

Qüdsün məkəzindəki «Стена Плача», sonra isə «Göy məscidi», oradan İsa peyğəmbər dəfn olunan məbədi ziyarət etdik. Möcüzəli və xüsusi bir energetikası olan yerlərdir buralar.

Qüds şəhəri dörd zonaya – yəhudilər, xristianlar, ərəblər və ermənilər arasında bölünüblər. İsa peyğəmbər dəfn olunan məbəd yunanlar, pravoslavlar və ermənilərin istifadəsindədir. Bir faktı da qeyd etmək istəyirəm ki, məbədin açarları müsəlman icmasının əlindədir.



Gümüş ulduz – İsa peyğəmbərin doğulduğu yer

Əl-Aska məscidində namaz vaxtına düşmüşdük. Məscid öz təkrarolunmaz yaraşığı ilə seçilir.

Burada olduğumuz müddətdə hər səhər yeməkdən qabaq Əliseyn, Sadıx (Tariyel müəllimin oğlu) və mən otelin hovuzunda üzürük. Bu səhər mən təklif edtim ki, dənizdə çimək. Havanın temperaturu 18–20 dərəcə olardı. Dedik və etdik. Aralıq dənizinin yanında olmaq və onun sularında üzməmək günahdır. Bir də Allah bilir buralara yolumuz düşəcəkmi? Dənizin suyu bir az soyuq idi. Ancaq bizim qərarımız qəti idi. Bu günü həyatımın xoş anlarından hesab edirəm.

Səhər yeməyindən sonra Hayfa şəhərinə yola düşdük. Şəhərdən çıxandan sonra yol darıxdırıcı idi. Daşlı-kəsəkli çöllər əhatə edirdi bizim yolları. Bizi müşayiyət edən mütəxəssis bu ölkənin tarixini çox yaxşı bilirdi. Yol boyu bizə çox maraqlı məlumatlar verirdi.



Hayfada bəhailərin mərkəzi iqamətgahı yerləşir. Bu təriqətin yaradıcısı Bəhaullahın məzarı buradadaır. El arasında bu məkan «Cənnət bağı» adlanır.

Sabah bizi Ölü dənizinə səyahətə aparacaqlar. Deyilənə görə o yer dünyanın ən aşağı coğrafi nöqtəsi sayılır və dəniz səviyyəsindən 286 metr aşağıdadır.

Hayfa, İsrail
06.01.1997.

* * *

Elcan səhər tezdən bizə zəng etdi və dedi ki, institutun sonuncu imtahanı verib. Çox sevinirdi. Diplom işinin mövzusu Konfutsi təlimi və Çin fəlsəfəsinin əsasları ilə bağlı idi.



Pekin Xarici Dillər və Mədəniyət Universitetinin tələbələri E.Həbibzadə, M.Əhmədov və onların yaxın dostu R.Qarayev

Dövlət imtahan komissiyası ona Çin dili və mədəniyyəti ixtisası üzrə bakalavr dərəcəsi verilməsi haqda qərar verib və ona təhsilini davam etdirmək təklif olunub. Sevincimizin həddi-hüdudu yoxdur. Nəhayət ki, Elcan öz proqram minimumunu yerinə yetirdi. Təhsilin davamı ilə bağlı bəzi xirda problemlər var. Səfir Tamerlan Qarayev mənimlə telefonda dedi ki, problemin həlli yolunda Elcana dəstək olacaq.

Bizim ölkənin səfiri Çindəki bütün azərbaycanlıların problemi ilə əsaslı şəkildə məşğul olur. Elcan Çində oxuyan tələbə olmaqla yanaşı, səfirliyin əməkdaşıdır. Bu səbəbdən Tamerlan müəllim məni əmin etdi ki, onun səyləri ikiqat güclü olacaqdır. Mən ona və ailəsinə öz dərin minnətdarlığımı bildirirəm.

Bakı
25.06.1997.

## ALMANİYA, FRANSA VƏ BRÜSSELƏ SƏYAHƏT

Son zamanlara qədər dünyada üç dövlət və orada yaşayan xalq süni yolla iki yerə bölünmüşdü: Azərbaycan, Koreya və Almaniya.

Sovetlər sisteminin son nəfəsə qədər qoruyub saxlamağa çalışdığı Almaniya Demokratik Respublikasının Federativ Almanıya ilə birləşməsi nəticəsində iki yerə parçalanmış bu qədim dövlət XX əsrin 90-cı illərində birləşə bildi. Gec-tez bu xoşbəxtlik Azərbaycan və Koreyaya da nəsib olacaq.

ADNA-da çalışan və dünya miqyasında tanınan alimlərdən biri Rafiq Əziz oğlu Əliyevlir. O, yüksəksəviyyəli dövlət qulluqlarında çalışmış, uzun illər Sumqayıt Sənaye İnstitutunun rektoru olmuşdur. Elmdə öz dəsti-xətti olmasına baxmayaraq müasirləri onu böyük alim Lütfi Zadənin davamçısı hesab edirlər. Lütfi Zadə isə onu elmi istiqamətinin varisi elan etmişdir.

Hər iki ildə bir dəfə Rafiq müəllim Lütvi Zadənin tələbələri və davamçıları işləyən şəhərlərdə böyük alimin adı ilə bağlı beynəlxalq konfranslar keçirir. 1998-ci ildə bu konfransın Almaniyanın Qissen şəhərində keçirilməsi planlaşdırılır. Mən həmin konfransda iştirak etmək haqda Rafiq müəllimə müraciət etdim və xahiş etdim ki, qonaqlar siyahısına Nailə xanımı daxil etməyə icazə versin.

Bir neçə söz Almaniya haqqında. Almaniya Federativ Respublikası Qərbi Avropada yerləşən dövlətdir. O 16 federal əyalətdən (Bundesləndər) ibarət parlamentli federal respublikadır. Paytaxt şəhər və inzibati mərkəz Berlin şəhəridir. Almaniya BMT, NATO, G8 və G4 təşkilatlarının üzvüdür.

Təyyarəmiz Frankfurtun hava limanında yerə endi. Rafiq müəllim bizi qarşılayırdı. Bu hava limanı dünyanın böyük aeroportlarındandır. Alman torpağı ilə tanışlığımız Visbaden şəhərindən başladı. Bu şəhər gül-çiçək, yaşıllıq və səliqə-sahman içindədir. Dərindən nəfəs alaraq onun təmiz havasını udmaqdan doymurdum. Nailə də bu gözəlikdən həzz alırdı. Mən çox şadam ki, onu bu səyahətə qata bilmişdim. Bizə təhkim olunmuş super rahat avtobus Visbadenin küçə və meydanlarından keçdikcə doğma Bakım yadıma düşürdü. Mən Bakımın tozlu küçələrini bu şəhərə dəyişmərəm. Bu mənim vətəndaş mövqeyimdir. Bəs görən bizdə niyə belə səliqə-sahman olmasın? Nə üçün biz öz şəhərimizi təmiz və yaraşıqlı edə bilmirik?

Axşamüstü avtobus Qissen şəhərinə çatdı. Bizi mehmanxanada yerləşdirdilər. Nümayəndə heyətimizin tərkibi çox genişdir: Müthət Abbasov, Ramiz Hümbətov, Rafiq Quluzadə, Rafiq Quliyev, Akif Musayev, İsa Abdullayev, Mübariz Rəşidov, o cümlədən «Odlar Yurdu» Universitetinin rektoru Əhməd müəllim, Bakı Biznes Universitetinin rektoru İbad müəllim, «Naxçıvan» universitetinin rektoru Fərahim müəllim, «Diplomatik» kollecin rektoru Nazim müəllim və başqaları.

Sabah səhər konfrans başlayır və dünyaşöhrətli Lütvi Zadə ilə görüşəcəyəm.

Qissen, Almaniya
04.10.1998.

## LÜTVİ ZADƏ İLƏ GÖRÜŞ

Bu görüş həqiqətən də arzulanan və xatirələrdən silinməyən bir görüşdür. Görəsən niyə biz özümüzünküləri qiymətləndirmirik? Lütvi Zadə, Azad Mirzəcanzadə və digərləri bu gün dünyaşöhrətli alimlərdir. Onları barmaqla saymaq olar. Onların elmə verdikləri töhvələr əvəzsizdir. Onların Azərbaycanın adını yüksəltməkdə xidmətləri böyükdür. Onların Vətən qarşısında gördüklərinin əvəzini Vətən layiqincə verə bilirmi? Güman edirəm ki, yox! Biz beləyik! Nəsrəddin Tusinin, Əcəmi Naxçıvaninin, Nəsiminin və bir çoxlarının qiyməti bir neçə əsrlərdən sonra verildiyi kimi, bu müasirlərimizin də qiyməti sonradan veriləcək. Bədnam qonşularımız isə belə etmirlər.




İbrahim Həbibov, Akif Musayev, Lütvi Zadə və Arif Quliyev

Lütvi Zadə konfrans iştirakçıları ilə bir-bir görüşdü, hal-əhvalımızı soruşdu, işlərimiz ilə maraqlandı. Rus dilində yaxşı danışırdı. Bəzi ifadələri Azərbaycanca deməyə çalışırdı və nəyi isə düz demədikdə üzr istəyirdi. Mən ona heyranlıqla baxırdım. Belə şöhrət sahibinin sadəliyi konfrans iştirakçılarını

valeh etmişdi. Sakit və amirənə səslə danışırdı. Geyimi amerikansayağı və yaşına uyğun idi. Konfrans başlananda rus dilindən ingilis dilinə keçərək bir daha bunun konfransın rəsmi dili olduğu ilə izah etdi. Mənim çıxışım günün ikinci hissəsində oldu.

Çıxışlar başa çatdıqdan sonra Rafiq müəllim Lütvi Zadəyə müraciət edərək elmin müasir problemləri və inkişaf istiqamətləri ilə bağlı çıxış etməyi ondan xahiş etdi.

Lütvi Zadə təxminən bir saat müddətində çıxış etdi. Həmən günü mən ömrümün yaxşı yaşanan günlərindən hesab edirəm.

Qissen, Almaniya
01.10.1998.

## NAİLƏ XANIMLA PARİSDƏ

Dünən proqrama uyğun olaraq biz Brüsseldəydik. O, Avropanın gözəl ölkələrindən biri olan Belçikanın paytaxtıdır.



Kral meydanı

Əhalisi təxminən 11 milyona yaxındır. Uzun illər italiyanların, sonra isə fransızların əsarətində olublar. Dövlət dili fransız dilidir. Həyat səviyyəsi çox yüksəkdir. Çinlilər kimi burada da velisoped sürməyi xoşlayırlar. Əgər Çində bu, imkan və sıxlıqla izah edilirsə, belçikalılar bunu sağlamlıq üçün edirlər. Şəhərdə gəzməli və görməli yerlər çoxdur, lakin yerli əhalinin fəxrlə hər bir qonağa göstərmək istədikləri məkan – Kral meydanıdır. Xüsusən axşamüstü bu meydana həm qonaqlar, həm də yerli əhali toplanır. Kral sarayı və ətraf binalar neon lampalarının işıqlarına qərq edilmişdir. Mən belə bir tərtibatı birinci dəfə görürdüm. Yol boyu Rafiq Quluzadə bizi darıxmağa qoymurdu. Maraqlı və ləzzətli söhbətləri ilə hamımızı əyləndirirdi. Müthət müəllim deyirdi: – Rafiqsiz belə səyahətlərin ləzzəti yoxdur.



Bu gün isə artıq Parisdəyik. İki gün burada olacağıq, sonra Frankfurta, oradan isə Bakıya dönməliyik. Mən qabaqcadan Nailəyə demişdim ki, Parisin görməli yerlərini gəzdikdən sonra mağazalara baxacağıq.

Qrupumuzdan Rafiq Quluzadə, Rafiq Quliyev, mən və Nailə bir dəstə təşkil edib şəhəri gəzməyi qərara aldıq.



R.Quluzadə, R.Quliyev və Nailə xanım Parisdə

Mən çox istəyirdim ki, Nailə Monmartrı görsün, Rlast-Peqalda gəzsin, mənim burada gördüklərimi qismən də olsa müşahidə etsin.

Birinci Eyfel qülləsinin yanına gəldik. Növbə böyük olduğundan və vaxtın azlığından qülləyə çıxmadıq. Parisin əfsanəvi yelləncəyinə mindik, sonra Monmartra tərəf yollandıq. Mən bu şəhərdə olmağıma baxmayaraq, hər gördüyüm tarixi abidə, bina və saraylara Nailə qədər heyranlıqla baxırdım.



Nailə xanım Parisdə Eyfel qülləsinin yanında

Notrdam de Parinin qarşısından keçərkən, avtomobili dayandırdıq. Bu tarixi məbədə yaxından baxdıq, Esmiralda və Kvazimodanın sevgi macərasını yadımıza saldıq. Məbədin qarşısında yerləşən və parislilərin dünyanın mərkəzi saydıqları nöqtəyə ayaq basdıq.

Nailəyə söz vermişdim ki, mağazaları gəzəcəyik. İlkin olaraq TATI ticarət mərkəzinə gəldik. Bu ticarət mərkəzində satıcı olmur. Hər kəs istədiyini seçib götürür və çıxışda pulunu ödəyir. Bizim üçün bu çox təəccübli idi.

Axşam yenidən Parisin küçələrini seyr etməyə çıxacağıq.

Paris, Fransa
07.10.1998.

* * *

Məni həmişə bir sual çox düşündürüb: Görəsən nə üçün eyni valideynlərin uşaqları müxtəlif xarakterli və əqidəli olurlar?

Bəzən eyni atmosferdə yaşayan və eyni tərbiyəni alan övladlar bir-birindən polyar fərqli düşüncə tərzində və həyata münasibətlərdə böyüyürlər.

Fərdin yerişməsində, xarakteri və əqidəsinin formalaşmasında irsiyyət, mühit və şəxsi iradənin rolunu qəbul edirəm, lakin övladlar arasındakı bu fərqin ciddi dəyişməsini heç cür başa düşmürəm.

İrsiyyət uzaq keçmişlərə gedir, bununla yanaşı, valideynlərin rolunu nəzərə alaraq, övlarlarımın hərəkətlərinin çatışmazlıqlarında özümü kənarda qoymaq istəmirəm.

Tez-tez özümə suallar verirəm: Mən hansı anda səhv etmişəm? Nəyi düzgün etməmişəm? Və ya hansı böyük günah sahibiyəm ki, zaman əvəz olaraq məni beləcə imtahana çəkir?

Erkən yaşlarından övladlarıma, eləcə də tələbələrimə həmişə Peyğəmbərimizin bir kəlamını xatırladıram: Ataya itaət

Allaha itaət deməkdir. Vaideynlərinə asi olan övladın günahları bağışlanmaz.

Övlad səndən sonra qalan Addır. Bunu başa düşərəkdən hər bir valideyn öz övladını düzgün yolda görmək istəyir və bu işdə əlindən gələni edir.

Elcan və Elşən bir-birindən ciddi fərqli xarakrerlidirlər. Əgər Elcan açıq düşüncə tərzinə malik, təmkinli, ölçüb-biçərək və məsləhətləşərək qərar qəbul edirsə, Elşən onun tam əksi olaraq hərəkət edir. Onunla çoxlu söhbətlərimiz olub. Hər dəfə o, diqqətlə məni dinləyir, lakin sonrada görürsən ki, tamam başqa istiqamətdə hərəkətdədir. Bəlkə cavanlıq dövrünü yaşadığından belə işlər görür. Yaşı da az deyildir.

Elşənin sevgi macəraları məni çox yorduğundan, nişanlanmaq istədiyini bildirdikdə çox tez razılaşdım. Murad adlı dostunun xalası qızı – Əzizə ilə görüşürdülər. Yazın əvvəlində onu nişanladıq.

İyun ayında Elşən maqistraturada təhsilini başa vurdu. Açıq etiraf etməliyəm ki, müdafiədə çox gözəl çıxış etdi. Bu münasibətlə ona maşın aldım.

24 oktyabrda onun toyunu etdik. Elcan toya gələ bilmədi. Elşən və Əzizəni yeni ailə qismində köhnə məhəlləmizdəki evimizdə yerləşdirdim.

Nailə və mən onları hər cür dəstəkləyirik. Bütün işlərdəköməklik edirik.

Allah qismətlərini vermiş olsun!

Deyirlər ki, yeni ili xoş arzularla, fikirlərlə qarşılamaq lazımdır. Mən də bu fikirlə bütün ağrı və fəsadları mənim üçün ağır keçən 2001-ci ildə qoymaq istəyirəm.

2002-ci ili səbirsizliklə gözləyirəm. Yeni ilə böyük ümidlə baxıram.

Bakı
29.12.2001.

* * *

Bu gün mən dünyanın ən xoşbəxt adamıyam. Mənim nəvəm olub, o, özü bilmədən məni şərəfli bir adın – BABA adının sahibi etmişdir. O, dünyaya göz açana qədər bir dəqiqə belə doğum evindən uzaqlaşmamışdım. Hər saatdan bir həkim mənə vəziyyət haqda məlumat verirdi. 23 iyul 2002-ci il axşam $23^{20}$-də bizə nəvəmizin doğulduğu haqda məlumat verəndən təqribən 20–25 dəqiqədən sonra palataya gəlib onu gördüm. Həmən an hiss etdim ki, o mənim ruhumun və cismimin bir hissəsidir.

Daxilimə yayılan xoş hərarət məni real həyatdan ayırıb səmanın ucu-bucağı görünməyən dərinliklərinə aparırdı. Mənə elə gəlir ki, öz övladlarım dünyaya gələndə mən bu hissləri keçirməmişəm. Gözləri bağlı idi, lakin dodaqlarında yüngül bir təbəssüm vardı. Yaxınlaşıb əlimə götürmək istədim. Tibb bacısı dedi ki, içəriyə girmək olmaz və mən onu ilk dəfə şüşə arakəsmənin arxasında gördüm.



İlk nəvəmiz – Fazil

Nəvənin şirin olması haqqında çox eşitmişəm, lakin bu dərəcədə olacağına inanmırdım. Mənə elə gəldi ki, gözləri bağlı yatmış olsa da o, məni hiss edirdi. Hiss etməsəydi bu təbəssüm nə idi onun üzündə?

Nailə də mənimlə idi. O da çox kövrəlmişdi, lakin mənim vəziyyətimi görüb sakitləşdirməyə çalışırdı. Mənə dedi ki, uşağa ana babasının adını qoymaq istəyirlər – FAZİL. Hiss etdim ki, Nailə heç cür bununla razılaşmaq istəmir. O, nəyi isə mənə başa salmağa çalışırdı. Onu başa düşürəm, elin adət-ənənəsi var, lakin nə etməli? Körpənin ilk gününü söz-söhbətli etmək istəmirəm.

Bir azdan, özümü ələ alandan sonra dedim: O, mənim nəvəm yox, kiçik qardaşım olacaq və mən ona «Qaqaş» deyərək müraciət edəcəyəm. Bir də ki, mən Qaqaşımı gördüm, kimin adını daşıyacağından asılı olmayaraq, körpənin üzündə – HƏBİBOV İBRAHİMİN NƏVƏSİ kəlmələri aydın yazılıb. O, 100% mənim qanımdan və canımdandır. Bu isə mənə kifayətdir. Necə olacaqsa qoy olsun, adı ilə böyüsün, əsil oğul olsun. Qismətini Allah vermiş olsun. Bir şeyi dəqiq bilirəm: heç bir münasibətdən asılı olmayaraq mən bu uşağı çox sevirəm. Məni ondan bir Allah ayıra bilər.

Ey Ulu Tanrı, məni ona, onu mənə çox görmə. Ya Rəbbim imkan ver onu bir yola çıxarım!



Bakı
24.08.2002.

* * *

Bu gün şənbədir. ADNA-da bu istirahət günü hesab edilir. Mən həmişə olduğu kimi işdəyəm. Belə gündə işləmək mənə ləzzət verir. Adətən aspirant, dissertant və maqistrlərlə işlərimi şənbə gününə salıram.

Artıq saat 11-dir. Heç kəs yoxdur. Tam sakitlikdir. Bir az otağıma əl gəzdirmək qərarına gəldim. Adətən kafedradakı

qızlar bu işi mən olmayanda edirlər. Şkafımdakı artıq kitab və dəftərləri araşdırmağa başlayanda dəftərçəm əlimə keçdi. Yarım ildən çox vaxtdır ki, qeydlər etmirəm. Onu vərəqləməyə başladım. Ötən günlər bir-bir yada düşdü, kövrəldim. İtirdiyim doğma və yaxınlar, yaşadığın günlər bir-bir xatirimdə canlandı. Akif İslamzadənin ifa etdiyi gözəl bir mahnısı – «Kimlər gəldi, kimlər getdi bu dünyadan» ürəyimdən keçdi.

Bu il ailəmizdə çox mürəkkəb və ağır problemlər yaşanıb. Onları açıqlamaq istəmirəm. Bircə onu qeyd etmək istəyirəm ki, gələcəyə olan inamım qırılmayıb, hər şeyin yaxşı olacağına inanıram.

Bakı
12.04.2003.

## ÇİNDƏKİ SOVETLƏR İTTİFAQINDAN OLAN DOSTLARIM

Çində olduğum zaman yaxınlıq etdiyim insanlar çox idi, lakin bunlardan 4 nəfəri ilə münasibətim digərərindən fərqlənirdi. Bunlar – Ukraynadan olan Larisa Usenko, qazaxstanlı Roza Baişeva və Qaliyə, bir də çeçenistanlı Maqa (Məhəmməd). Bizi burada «İbrahimin ailəsi» kimi tanıyırdılar. Həmişə bir yerdə olurduq, hara dəvət etsəydilər, mütləq birlikdə gedirdik.

Çindən qayıdandan sonra da biz bu xoş münasibətləri saxlamışıq. Bir-birimizə zəng edirik və məktublaşırıq. Roza və Qaliyə indi Kazaxstandadırlar. Larisa da Kiyevə qayıdıb. Təkcə Maqa Çindədir – o, təhsilini davam etdirir. Larisa məni Nailə ilə birlikdə oğlunun toyuna dəvət edəndə çox şad olduq. Dəqiq tarix yadımda deyil. Yaz fəsli idi. Biz Kiyevdə olanda şabalıd ağacları gül açmışdı.




Çindəki "Sovetlər diasporu"

Onların nişanı Vladimir məbədində keçiriləcəkdi. Təyyarəmizin gecikməsi səbəbindən Nailə və mən aeroportdan birbaşa məbədə gəldik və bu gözəl nişan mərasiminin iştirakçısı ola bildik. Düzünü desək Larisa və onun həyat yoldaşı gəlişimizə tam əmin deyildilər. Bizim gəlişimiz onlar üçün çox sevincli olmuşdu. Toyda məni tamada seçdilər. Toy da nişan kimi yüksək səviyyədə keçdi. Mən birinci dəfə idi ki, belə bir tədbirdə iştirak edirdim.

Roza Baişeva Qazaxstanda tanınmış bir ailədəndir. Həyat yoldaşı bu respublikanın təhsil nazirinin müavinidir. Çan Çunda onunla görüşə bilmədim, belə ki, mən geriyə qayıdandan sonra o Pekinə ezamiyyətə gəlmişdi.

Roza bizim «Çin ailəmizdə» yaşca ən böyüyü idi. Çox xanım bir qadındı. Sonralar tez-tez onunla zəngləşərdik. Aspirant və dissertantlara rəy almaqda, məqalələrimizin nəşrində köməklik edərdik.

Qaliyə ilə əlaqəmiz olmadı. Onun bizə yaxınlığı Roza xanıma görə idi.

Maqa mənə bayramlarda zəng edərdi. Birdən birə əlaqəmiz itdi.

Sovetlər İttifaqının dağılması və sonrakı proseslər, eləcə də özümlə bağlı problemlər bu zənglərin və görüşlərin inten-

sivliyini azaltdı. Çeçenistan hadisələri başlayandan Maqanı itirdim. Düzü onun sağ olub-olmamasındandan da xəbərim yoxdur. Bircə onu bilirəm ki, Maqa heç bir zaman Vətənindəki hadisələrdən uzaqda qala bilməzdi və onları biganəliklə izləməzdi.

Bakı
09.05.2003.

* * *

Çoxdan arzuladığım və həvəslə gözlədiyim gün nəhayət ki, gəlib çatdı. Dünən oğlum Elcanın toyu oldu. Toy «Dan ulduzu» şadlıq evində keçirildi. Bunun mətləbə nə dəxli var? Toyun harada olması yox, kiminlə ailənin qurulması əsasdır.

Gəlinimin adı Nigardır, dostum Müstəcəbin qardaşı qızıdır. Allah onları xoşbəxt etsin.

Elcan halal oğul olduğundan onun xoşbəxt gələcəyinə inanıram. O, fırıldaq, yalan, oğurluq və əyrilik kimi naqis işlərdən çox uzaqdır və heç zaman bu yolların yolçusu olmayacaq. Çünki onun ürəyində Allah məhəbbəti və valideyn hörməti yaşanır.



Elcan və Nigar

3–4 aya onlar Çinə getməlidirlər. Öz evləri tikilib başa çatmadığına görə dostum Raufun boş olan evində yaşayırlar. Hicran və Rauf mənə çox yaxın insanlardırlar. Mən onlara minnətdarlığımı bildirirəm.



Rauf və Hicran Məlikovlar

Rauf mənim tələbəm olub, bir yerdə Macarıstanda tələbə təcrübəsində olmuşuq. İndi bizim kafedrada dosent vəzifəsində çalışır. Gözəl ailə münasibətləri vardır, çox tərbiyəli övladları var. Mən bu ailəyə xoşbəxtlik arzulayıram.

Bakı
19.06.2004.

* * *

15.04.2004 tarixində Elcan və Nigarı Pekinə yola saldıq. Onlar əvvəlcə İstanbul və oradan Pekinə uçacaqlar.

Bu il evlənməyimizin 30 ili tamam olur. Bu illəri xatırladıqda onların mənim üçün əziz və qiymətli olduğunu bir daha anlayıram.

Köhnə məhəllədə və Ü.Bünyatov (köhnə Anaşkina) küçəsindəki evimizdə sizinlə birgə yaşadığımız günlər bir-bir ya-

dıma düşür. Hər yaşadığım günə şükürlu olmağıma baxmayaraq, mənə elə gəlir ki, ən yaxşı günlərimi orada yaşamışam. Nostalji xatirələrə dalmaq istəmirəm. Bu gün ananıza bir şeir həsr etmişəm.

Gözlərinə qurban olum, baxışına döndər məni.
Gülüşünə qurban olum, gülüşünə döndər məni.

Döndər məni qəlbindəki min arzuna,
Döndər məni xəyalına, umuduna.
Könlündəki ən müqəddəs istəyinə döndər məni
Vüqarına döndər məni, qüruruna döndər məni.

Göydən yerə nur ələyən günəşinə döndər məni.
Gözlərindən şölə saçan atəşinə döndər məni.
Döndər məni baxçandakı şehli gülə, tər çiçəyə.
Ətirinə döndər məni, nəfəsinə döndər məni.

Sənsiz mənə həyat yoxdur, yaşamağın nə faydası.
Sənsiz səndə həvəs yoxdur, vücudumun nə faydası.
Varlığımın cəfası çox, ağrısı çox, yox səfası.
Həyatına qaytar məni. Həyatıma döndər məni.

Bakı
23.11.2004.

* * *

Dünən İlhamgildəydik. Evlərində qonaqları vardı. Şən bir məclis idi. Müxtəlif mövzularda zarafatlar edirdik və söhbətlərin birində İlham Nailəni qızışdırmaq məqsədilə mənə söz ataraq dedi ki, səndə sakitləşmirsən, elə hey cavanlıq edirsən. Nailə ona cavab olaraq dedi: – Bundan sonra o kimə gərəkdir. Nə edir qoy etsin. Düzü bu söz zarafat da olsa mənə toxundu və söhbətin təsirindən aşağıdakı şeri yazdım:

Sənin bir sözündən yaman incidim
Başım dumanlandı, döyündü ürək.
Sən özün bilmədin necə söylədin:
Sən kimə gərəksən, mən kimə gərək?

Dedinki, uzun bir yol da keçmişik,
Hərdən ağlamışıq, hərdən gülmüşük,
Oğul böyütmüşük, nəvə görmüşük.
Bununçun Tanrıdan şükür diləyək
Sən kimə gərəksən, mən kimə gərək?

Zaman saçımızda izlər salıbdır,
Alnımız, üzümüz «naxışlanıbdır»,
Rahat yuxular da bizdən qaçıbdır,
Artıb qanda təzyiq, çoxalıb şəkər,
Sən kimə gərəksən, mən kimə gərək?

O günkü söhbətdən çox yazmaq olar,
Dedikcə qurtarmaz bu giley, güzar,
Onu bil! Dünyada əbədi, yaşar
Sevgidir. Həyata açılmış çiçək,
Sən mənə gərəksən, mən sənə gərək!

Bakı
20.12.2004.



* * *

«Sən mənə gərəksən, mən sənə gərək» şerim çoxunun xoşuna gəlib. Əsas odur ki, Nailə bu şeirdən sonra bir daha bu kəlmələri işlətməyəcəyinə söz verib. Şerin bu eciazkar qüvvəsi bu mövzuda yeni birisinin yazılmasına səbəb oldu və onu sizin diqqətinizə çatdırmaq istəyirəm.

Məndən sənə çox söz deyə bilərlər,
Hər deyilən sözdə həqiqət olmaz.
O yerdə ki, məhəbbət var, inam var,
Tanrım ordan uzaq gəzib dolanmaz.

Çoxlarının biz gəlmirik xoşuna
Danışırlar qaramızca, boşuna
Rast gəlməsək namərdlərin tuşuna
Vaxt-vədəsiz saçlarımız ağarmaz.

Fikir vermə boş sözlərə, çalış döz.
Qürurunu heç sındırma, dayan düz.
Yalan, tənə eşitdinsə gözün süz
Ürəklərdə qubar yoxsa sızlamaz.

Qəm etmə ki, ömrüm, günüm keçibdir.
Xoş anlarım, məqamlarım ötübdür.
Sevin, gül ki, o günlərin olubdur.
Bu məntiqlə yaşayanlar qocalmaz.

Bircə onu bil ki, bəxtim səndədir
Ötən günüm, sabahım da sənlədir.
Yaşadığım bu günüm də sənlədir
Sən olmasan səhər mənçün açılmaz.

Bakı
30.12.2004.

* * *

Bu yazımın tarixi haqda heç bir şey qeyd etmək istəmirəm. Təkcə onu deməliyəm ki, daxilimdə baş verən anlaşılmazlıqlar, azalmaq bilməyən problemlər və sairə qurtarmır. Optimist təbiətli olmağıma baxmayaraq, hesab edirəm ki, həyatda çətin günlərin sayı heç də az deyildir.

Gəlindən qız olmaz, gəlin gələndir.
O, sənin dərdinə ürəkdən yanmaz.
Dediyi sözündə, hərəkətində
Gözəllik olsa da, hərarət olmaz.

Mindən biri olur «yaxşı» gəlinin
Hörmət saxlayanın, yerin bilənin.
Qayına, baldıza qiymət verənin,
Göz üstə qaşın var, deyəni olmaz.

Gəlin seçilərsə təmkini ilə
Mənalı söhbəti, məntiqi ilə
Danışmazsa hədər, ibarə ilə
Qohum, dost yanında əvəzi olmaz.

Qaynata hörmətin daim saxlayan,
Qaynana şərəfin göyə qaldıran,
Qohuma, qonşuya ehtiram qoyan
Gəlinin talehdən gileyi olmaz.

Bakı
25.02.05.

* * *

Elcan səhər mənə zəng edərək təbrik etdi – Papa, gözün aydın olsun, dünən nəvən olub! Mən ona ardı-arası kəsilməyən suallarla Nigarın, balaca qızımızın və özünün vəziyyətini soruşdum. Elcan hamının yaxşı olduğunu dedi və qızın adını N A İ L Ə qoymaq istədiyini bildirərək məndən icazə aldı.

Mən nə deyə bilərəm belə bir müraciətin qarşısında. Bax budur Elcanın təbiəti, budur onun əxlaqı. O, bilirdi ki, mən buna etiraz etməyəcəyəm, əksinə sevinəcəyəm. O, bu icazəsi ilə bir daha məni və özünü hörmətli etdi.



Nənə Nailə ilə nəvə Nailə

Biz bu xəbəri gözləyirdik. Nailə ilə mənim sevincimin həddi-hüdudu yoxdur. Nailə Pekinə uçmağa hazırlaşırdı. Artıq 06.06.2005-ci il tarixinə bilet də almışıq.

Ya Rəbbim, şükür sənin məsləhətinə!

Bakı
30.05.2005.

* * *

Bu gün Nailəni Pekinə yola saldım. O, Daşkəndə, oradan isə Pekinə uçacaq. Daşkəndə onu yaxın dostumun qardaşı qarşıyalıb səfərini davam etdirməkdə köməklik göstərəcəkdi.

Hava limanından qayıdanda hiss etdim ki, artıq Nailə üçün darıxıram. Ürəyim partlamaq dərəcəsinə çatıb. Özümə heç bir vəchlə yer tapa bilmirəm. Maşını qardaşlarımın iş yerinə sürdüm. Bir az burada vaxt keçirmək istədim, lakin yenə də sakitləşə bilmədim. Yenə ayrılıq, yenə həsrət, yenə də kimsəsizlik. Axı mən söz vermişdim onu bir daha tək qoymayacağam.

Evə qayıtdım. Doğma evim də yad və kimsəsiz görünür. Tənhalıq hissi məni tərk etmək bilmir. Gözüm saatda, qulaqlarım isə telefon zənginin səsini gözləyir. Nailə Daşkənddən zəng etməlidir. Elcan artıq zəng edib və anasının vaxtında uçması ilə maraqlanıb. Nailə ilə hava limanında ayrıldıqda ikimizin də gözü yaşlı idi. Bir-birimizi sakitləşdirməyə çalışırdıq. Belə anlarda ürəyimi bu dəftərə boşaltmaqdan başqa heç nə edə bilmirəm.

İstərdim bir daha yadına salam
Sən məndən ayrılıb getdiyin zaman
Səsindəki ahəng, gözündəki nəm
Darıxma deyirdi, tez dönəcəyəm.

Dedin: Otuz gündür ömrü bir ayın
O, kiçik bəndidir vaxtın, zamanın
Üzsə belə səni iztirabların
Səbr elə, azca döz, tez dönəcəyəm.

Tənhalıq çalış ki, səni üzməsin
Çöhrəndən təbəssüm heç əskilməsin
Düşmənlər baxanda qoy sevinməsin
Təmkinin dəyişmə, tez dönəcəyəm.

Məhəbbət nə zaman, nə məkan bilir
Vüsalla sonlanan həsrət şirindir.
Hicran alovunda sevgi yetişir
Tanrıdan qismətsə, tez dönəcəyəm.

Bakı
06.06.2005.

## NƏVƏM NAİLƏNİN İLK AD GÜNÜ

İki həftəyə yaxındır ki, Elcan ailəsi ilə Bakıya məzuniyyətə gəlib. Mən birinci dəfə nəvəm Nailəni gördüm. Necə də o Elcanın uşaqlığına oxşayır. Dünən Nailənin bir yaşı tamam oldu. «Çanaqqala» restoranında onun ad gününü qeyd etdik. Qonaqlarımız çox idi. Nailəni əlimdən yerə qomaq istəmirdim.





Dövlətdə dəvə, övladda nəvə

Daha doğrusu o özü mənim qucağımdan yerə düşmürdü. Fazil bir tərəfdə mənə sıxılırdı, güman edirəm ki, bir az özündə sıxıntı hiss edirdi. O, başa düşə bilmirdi ki, necə olur babasının qucağında başqa uşaq oturub. Dünənə qədər balaca Nailə tam sərbəst gəzə bilmirdi, ad günü səhər tezdən durandan gəzir və gəzməyindən ləzzət alır. Bir yerdə dayanmaq bilmir. Musiqi səsinə əl qaldırıb oynayır.



Nailənin ilk addımları

Nailənin nənəsi onu o qədər istəyir ki, mənim paxıllığım tutur. O da mənə iradla gileylənir – Sən Qaqaşı çox istəyirsən. Allahın işinə bax, gör nəyin söhbətini aparırıq. Kim hansı nəvəsini çox istəyir? Hər ikimiz yəqin bilirik ki, onlar bizim əzizimiz, sevincimiz və fərəhimizdirlər.

Bakı
30.05.2006.

* * *

Bir neçə həftə bundan əvvəl əlimə bir sorğu vərəqəsi düşmüşdü. Orada çox maraqlı suallar vardı və bəziləri məndə böyük maraq doğurdu. Düşündüm ki, əgər bir jurnalist belə suallarla mənə müraciət etsəydi onları necə cavablandırardım.

Sabah mənim 55 yaşım tamam olacağını nəzər alıb bu sualların sırasından aşağıdakılarla özümə müraciət etməyi qərara aldım.

55 il gözəl tarixdir, yaş da pis yaş deyildir. Ömrün böyük bir hissəsi yaşanıb. Güman edirəm ki, yarım əsrdən çox ömür sürmüş atanızın bu hesabatı bəlkə də sizlər üçün də maraqlı olacaqdır.

Beləliklə, suallar, suallar bir də suallar:

**Həyatınızdan razısınızmı?** – Müqəddiməsiz və girişsiz deməliyəm – Bəli. Ulu Tanrım mənə həyatda hörmətli, ədalətli, zəhmətkeş və sevimli valideynlər, qeyrətli və səmimi qardaşlar, pak və sevənürəkli həyat yoldaşı, tərbiyəli və qayğıkeş övladlar vermişdir. Bunlardan əlavə istədiyim məqsədə çatmaq üçün ağıl, iradə və səbir kimi keyfiyyətləri məndən əsirgəməmişdir, getdiyim yolu həmişə işıqlandırmışdır.

Mən həyatımdan çox razıyam.



**Xoşbəxtsinizmi?** – Bir tanınmış şəxsiyyətdən soruşurlar (kimliyi dəqiq yadımda deyil) – İnsanın xoşbəxt olması üçün nə lazımdır. O isə cavabında deyir: Ürəyincə istədiyin işin, sevdiyin və səni sevən qadının, tərbiyəli və sənə minnətdar olan övladların, hörmətini saxlayan dost və qohumların varsa xoşbəxtsən. Mən bu fikirlə 100% razıyam.

**Seçdiyiniz peşə ürəyinizcədirmi?** – Məktəbin sonuncu sinfində oxuyanda mən özümü gələcəkdə filoloq, müəllim görmək istəyirdim. Lakin bir günün içində fikirlər dəyişdi və neft mühəndisi olmaq qərarına gəldim. Ali məktəbi bitirdikdən sonra öz gələcək karyeramı ictimai-siyasi işlər və elmi axtarışlar sırasından sonuncuya üstünlük verməklə müəyyən etdim. Tale məni ilkin istədiyim peşəyə çatdırdı, belə ki,

1977-ci ildən ADNA-da həm tədris, həm də elmi-tədqiqat işləri ilə məşğulam. Tələbələrlə işləmək mənə xüsusi zövq və ləzzət verir. Tədrisə maraq göstərən, seçdiyi ixtisası sevən, savadlı tələbəyə rast gələndə elə bilirəm ki, dünya mənimdir. Çox heyfsilənirəm ki, belə tələbələr bu gün üstünlük təşkil etmirlər. Çalışıram ki mühazirələrimdə tədris etdiyim fənnin gözəlliyi ilə bərabər, həyat və yaşamağın dəyərlərindən də danışım. İxtisasca pedaqoq olmasam da, bu gün peşəkar müəlliməm. Təvazökarlıqdan uzaq olsa da belə güman edirəm ki, tələbələrim mənə hörmət bəsləyirlər. Bu, mənim üçün ən böyük mükafat və qiymətdir.

**Sizcə həyatda uğurlu olmağa nə mane olur?** – İlkin olaraq insan həyatda aktiv mövqedən çıxış etməlidir. Ulu Tanrı insana olan kəramətindən heç bir şey əsirgəməmişdir. Görmək və eşitmək, duymaq və düşünmək, sevmək və sevilmək, bunlardan başqa digər gözəl xüsusiyyətlər bəxş edib. Lakin hər kəsə iradəsini formalaşdırmağı tapşırıb. Odur ki, hər bir uğuru öz ağlınla və əlinlə qazanmalısan. Həyatdan küsmək, incimək olmaz! «Niyə belə oldu? Kimdir günahkar?» sualları ilə özünü yormamalısan. Konfutsinin bir kəlamı vardır: – Əxlaqlı insan bütün günahların səbəbini özündə, əxlaqsız insan isə başqalarında axtarır». Problemdən qaçmaq lazım deyil. Onu dərk etməli və çıxış yollarını axtarmaq lazımdır. Yaşadığın günün hər dəqiqəsindən, hər saatından ləzzət almaq lazımdır. Bu təkcə yeyib-içmək, gəzib-dolanmaq deyildir. Xeyirxahlıq prinsipi həyat tərzin olmalıdır. Xoş işlər və əməllər etməkdən həzz almaq lazımdır. Bütün həyatınız boyu sağlamlığınıza fikir verməlisiniz, bunun üçün heç nəyi əsirgəməməlisiniz.

**Həyatınızda hansı günlər və aylar üstünlük təşkil edib – yaxşı və ya pis?** – Əvvəldə dediyim kimi mən həyatımdan razıyam. Günləri yaxşı və pisə ayırmıram, belə ki bu anlayışlar nisbidir. Nə olubsa və necə yaşanıbsa, fərqi yoxdur, bunların hamısı mənimdir. Bu işdə mənim başqa bir mövqeyim

vardır və bu sualın cavabını başqa cür redaktədə axtarardım: Yaşadığım gündən razıyam və ya razı deyiləm?

Əgər yaşadığım gün özümə, ailəmə və məni sevənlərə rahatlıq, sakitlik, stabillik gətiribsə, deməli bu, razılıqla qəbul olunan, xoşbəxt yaşanan günlərdəndir.

Yaşadığım gündə kimsəyə məsləhətimlə və ya xoş sözlə, konkret əməllə dəstək olmuşamsa, köməklik edə bilmişəmsə, o günü həyatımdan razı qaldığım günlərdən hesab edirəm.

Hər hansı bir məsələnin həllində mənim sözümə və ya qərarıma ehtiyac olubsa, bunun üçün obyektivlik və subyektivlik amillərinə istinad etdikdə, haqlının haqqını müdafiə edə bilmişəmsə, deməli o gün yaşamışam.

İblis ürəyimə girib, ağlıma hakim kəsilmək istəyəndə Allahın mərhəməti və məhəbbətilə onu qova bilmişəmsə də, deməli insan kimi yaşamışam.

Vicdan və ya pul, aza qane olmaqla şərəfimi, ləyaqətimi saxlamaq və yaxud rütbə xatirinə satqınlığı və alçaqlığı qəbul etmək, çətin anda verdiyim sözə sadiq qalmaq və ya ondan qaçmaq dilemmasında birinciyə üstünlük vermişəmsə, həmin gün mənim üçün yaşanan gün olubdur.

Kiçiyi kiçik bilib ona rəhm edəndə, böyüyü böyük kimi qəbul edib ona hörmət bəsləyəndə rahatlıq tapmışamsa, deməli insan həyatı yaşamışam.

Əgər bunları edə bilməmişəmsə də həmin gün mənim üçün qəbul olunmayan günlərdən hesab edilməlidir. Boş keçən günlərimin səbəbini özümdə axtarmışam və özümü günahlandırmışam.

**Keçən günlərinizi qaytarardınızmı?** – Birmənalı olaraq cavab verərdim: – Xeyr! Mən həmişə fikirləşmişəm ki, keçmişə əl vurmaq olmaz, onu vaxtsız və vədəsiz narahat etməyə dəyməz. Keçmiş keçmişliyində qalmalıdır. Çalışıram ki, yaşadığım gün gözəl və mənalı olsun və gələcəyə böyük ümidlə baxıram.

**Gözəlliyi nədə görürsünüz?** – Mənim üçün gözəllik heç də insanın xarici görünüşü deyildir. Belə ki, həddən artıq xarici

cazibədarlıq soyuqluq gətirir. Şirin çayda şəkərin çoxluğu ürək bulanmasına səbəb olduğu kimi sırf zahiri gözəllik də uyğun hisslər yaradır. Belə gözəllik qarşı tərəfdə məhəbbət deyil, şəhvət oyada bilər.

İnsanın daxili dünyasına bələd olduqdan sonra, hansı dərəcədə ağıl və kamal, hərəkət və davranış, nitq və əxlaq sahibi olduğunu bilərəkdən onun gözəlliyi haqda danışmaq olar.

**Ölümdən qorxursunuzmu?** – Ölüm – haqdır. Ondan qaçmaq mümkün deyildir. Odur ki, qorxmaq lazım deyildir, onu qəbul etmək lazımdır. Lakin ölüm şərəfli və şərəfsiz olur. Şərəfli ölümdən qorxmuram.

Ulu Tanrı insanın taleyinə iki tarix yazır: – Dünyaya gəldiyi gün və dünyadan köçdüyü gün. Bu iki tarix arasındakı yol ömrün uzunluğu adlanır. Biz onu heç cür dəyişə bilmərik. Ömür yolunun enini isə onu necə yaşadığım kimi qiymətləndirirəm. Bax bu ölçü məhz hər birimizdən asılıdır. İnsanlığın keyfiyyəti, ömrün mənası bu olçü ilə müəyyən olunur. Yana-yana yaşamaq və ya yandıra-yandıra yaşamaq hər bir kəsin özündən asılıdır. Yaradıcı insan həyat sürmək, həşərat kimi yalnız yemək haqda düşünməmək, yaxşılığı qiymətləndirmək, gözəlliyini duymaq, kin və küdurətdən uzaq olmaq, həyatını hörmətli və şərəfli yaşamaq – budur insan ömrünün əsas təyinediciləri.

Körpə dünyaya göz açanda ağlayır, lakin ətrafındakılar sevincdən gülürlər. Həyatı elə yaşamaq lazımdır ki, öləndə sən güləsən, ətrafındakılar ağlasınlar.

**Həyatda qorxduğunuz bir şey varmı?** – Mən qeyri-müəyyənlik, biganəlik və tənhalıqdan çox qorxuram.

Qeyri-müəyyənlik şəraitində çox vaxt səhv addımlar atıram. Sonradan onların aradan qaldırılmasına böyük qüvvə və vaxt sərf etdiyimdən bundan qorxuram.

Özümə qarşı biganəlik hiss etdikdə yaman əziyyət çəkirəm. Dost və yaxın adamların biganəliyi ikiqat təsir edir. Özüm isə çalışıram ki, bu çatışmazlıqdan uzaq olum.

Tənhalıq və ya unudulmaq ən çox qorxduğum hisslərdir.

**Gələcək həyatınızı nəyə sərf etmək istərdiniz?** – Ulu Tanrıdan bəxş edilən həyatı hərə bir cür yaşayır. Kimisi ömrünü təkcə özü üçün, eqoizm prinsipləri əsasında, kimisi pislik və nifaq törətməkə, qeyri-insani tərzdə, kimisi də xeyirxahlıq üzərində qurur. Birincilər çox vaxt özünü və ətrafındakıları inandırmağa çalışırlar ki, həyat hamıya bir dəfə verilir və onun sonu eynidir. Bədbəxtlər bilmirlər ki, cismani sonluqla əbədiyyət arasında böyük fərq vardır.

Mənim fikrimcə İnsan xeyirxah olmalıdır. Bu günə qədər belə yaşamışam, bundan sonra da belə yaşayacağam.

Bakı
03.06.2006.

* * *

## DÜNYA SƏNİN VƏFAN YOXDUR, HEY DEYİRLƏR ƏZƏLDƏN

Ümumən optimist adamam. İlin bütün fəsillərinin gözəlliklərini duymaq və bu duyğudan aldığım ləzzəti ürək dolusu yaşamaqa çalışıram. Çoxluq təşkil edən mənfi emosiyalar içərisində azacıq da olsa belə müsbət halı tapıb sevinməyi bacaran olmağıma baxmayaraq, 2007-cı ilin sonlarından tez-tez depressiya vəziyyətinə düşürəm. Son iki həftədə isə özümü heç cür cəmləşdirə bilmirəm. Ətrafımda hər nə varsa mənə təsir edir və bu təsir məndə pessimist fikirlər yaradır. Bu ildə çətinlik və ürək ağrısı ilə yaşadığım günlər çox olub. Bəlkə də bu səbəbdən dünyada baş verən bir çox şeyləri qəbul edə bilmirəm.

Səhərdən şair dostum Mirsəyyaf Zamanlının «Deyirlər ki, təzələnib bu dünya» şerinin təsiri altındayam. Bu insanın çox qəribə taleyi vardır. Böyük Yaradan bu insana əsil şair təbi vermişdir. Onun şeirlərini əzbərləmək lazım deyildir, eləcə

bir dəfə onları dinləmək kifayətdir ki, əbədi yaddaşına yazılsın. Bər-bəzəkli, dəbdəbəli həyat sürən şair xalqın həyatından yazdığını heç cür başa düşməz, çünki uyğunsuzluq və soyuqluq hər bir cümlədən hiss edilər.

Yaxşı ki, bu torpaq yeməli deyil
Biz nəyin üstündə gəzə bilərdik?
Çoxunun tamahı deyilən deyil
Yoxsa süd gölündə üzə bilərdik.

İş otağımdakı kitab şkafındakı mənə müəlliflər tərəfindən bağışlanan kitablar sırasından şair dostum Mürvət Qədimoğlunun kitabını götürdüm. Gözəl söz ustası həyatı boyu çoxlu zərbələrə məruz qalmış və itkilər vermişdir. Onun «Dünya» mövzusunda şeirləri çoxdur. Şeirlərinin birində yazır:

...Mən dünyanın dərd daşıyam.
Bu dünyaya gəlmişəm ki,
O dünyaya dərd daşıyam.

Dəfələrlə oxuduğum, oxuduqca yorulmadığım bu kitabları bir daha nəzərdən keçirdim.

Bilmirəm, təsadüfdənmi və ya başqa bir səbəbdən kitab rəfimdə Şəhriyarın və Məmməd Arazın əsərlərinin toplusu yan-yana durmuşdu. Əl uzadıb M.Şəhriyarın «Yalan dünya» kitabını götürdüm. Bu böyük şairin kitabında tərtibçilər onun Xəstə Qasımdan seçdiyi epiqraf kimi «Yalan dünya» şerini veriblər.

Bu dünya fanidir, fani
Bu dünyada qalan hanı?
Davud oğlu Süleymanı
Qızıl taxtdan salan dünya.

Şeir bir neçə benddən ibarətdir. Hamısını yazmağı vacib bilmirəm. Bu bircə bənd kifayət edir ki, dünyanın və həyatın

mənasını dərk edəsən. Mən Məmməd Araz qədər Azərbaycan şeriyyatında Dünya mövzusunda şeir yazan şair tanımıram.

Özümün 20.08.2004-cü ildə bu mövzuda yazdığım şeir yadıma düşdü. Mən onda bu qədər sıxıntı keçirmirdim.

Dünya, sənin vəfan yoxdur, hey deyirlər əzəldən
Həqiqəti, ədaləti haqsızlığa satansan.
Eli üçün ağlayanı kor etmisən gözündən
Mərdi qovub, namərdlərin qapısına atansan.

Düz danışıb, düz deyənin sən kəsmisən dilini
Zülmə baş əyməyənlərin qatlamısan belini
Xeyirxahın, səxavətin hey üzmüsən əlini
De nə üçün gücə dəstək, zora dayaq olansan?

Kin-küdurət ayaq tutur, azalmayır qəm, kədər
Göz yaşları tükənməyir, sel tək axır sərasər.
Ehtiyacla ömür sürür alın təri tökənlər
Qan tökənə, baş kəsənə arxa olan, hayansan.

Oğurluqla pul qazanıb, haram mal yeyənlərin
Min fitnəyə əl ataraq, fəsad törədənlərin
Xalqın varın-dövlətini talaıyb didənlərin
Adın, sanın, şöhtərini göylərə qaldıransan.

Dünya, səni ayıq başla anlamaq çox çətindir
Elə bil ki, nurun sönür, qara günün yəqindir
İnan mənə, belə getməz, Haqq nəzəri bizimdir,
Əvvəl-axır od içində alovlanıb yanansan.

Görən niyə bu dünya belə bədləşib? Hansı səbəbdən onun üzərində insanlar yox, həşəratlar üstündür? Oğul ataya asi, qızlar anaya qənim olublar. Əxlaqsızlıq həyadan yüksəkdir. Ən qorxulusu odur ki, mənəviyyat itməkdədir. Axı dünya yaxşılığa doğru dəyişməlidir. O, inkişafdadar. İnkişaf isə yalnız yüksəlişə tərəf olmalıdır.

Bütün bunların təsirində bu gün özümün dünyaya baxışımı yenidən yazmaq istədim və bir oturuma aşağıdakıları qələmə aldım.

Qalmayıb ümidim daha heç nəyə,
Bu dünya, qardaşım, düzəlməyəcək.
Çıxıb məhvərindən, dönüb səmtindən
Bu dünya, qardaşım, düzəlməyəcək.

Babamız Adəmlə, Həvvaya qədər
Müqəddəs torpaqda dolaşmazdı şər.
İnsanla bağlıdır dərd, qüssə, kədər
Bu dünya, qardaşım, düzəlməyəcək.

Oğullar olubdur nankor, biqeyrət
Qızlarda qalmayıb ar, həya, ismət
Pulla dəyərlənir sevgi, məhəbbət
Bu dünya, qardaşım, düzəlməyəcək.

Bu gün pul olubdur hər şeyə meyar,
Nə hörmət qalıbdır, nə də etibar,
Arxan, paran yoxsa, öl, canın qurtar,
Bu dünya, qardaşım, düzəlməyək.

Alimi nadana olubdur möhtac,
Yenə boş başlarda gəzdirilir tac,
Vallah, olmayacaq bizlərə əlac,
Bu dünya, qardaşım, düzəlməyəcək.

Kişilik məhfumu yox olub, itib
Başqa bir cür olub, rəngin dəyişib
«Samirlər, Rəhimlər» əlinə yetib
Bu dünya, qardaşım, düzəlməyəcək

Elə yaraşıqdır bu gün Röyalar
Rəqsanə, Nuralar, Fatma, Sevdalar
Xalqına dərs deyir efirdən onlar,
Bu dünya, qardaşım, düzəlməyəcək.

Söz tamam itirib gücün, dəyərin,
Dünya əlindədir yaltağın, bicin
Mərd dönüb quluna zalım namərdin
Bu dünya, qardaşım, düzəlməyəcək.

Hörmətdən düşübdür ağsaqqalımız
Nə dinimiz qalıb, nə imanımız
Tapdaq altındadır etiqadımız
Bu dünya, qardaşım, düzəlməyəcək.

Qardaşın bacıdan yoxdur xəbəri
Çəkmir qeyrətini halalca əri
Övladın da görmür bir ildən bəri
Bu dünya, qardaşım, düzəlməyəcək.

O, düşüb əlacsız çöllərə, düzə
Namusun qoyubdur pulla üz-üzə
Tanrıdan bir qeyrət gəlməsə bizə,
Bu dünya, qardaşım, düzəlməyəcək.

Görən, o dəyişib, dönə bilərmi?
Haqqı haqq yerində görə bilərmi?
Axan göz yaşların silə bilərmi?
Yox! Dünya, qardaşım, düzəlməyəcək.



Çünki bulanıb o, durulan deyil,
Çöhrəsi bozarıb, nurlanan deyil,
Əyilib qaməti, şax duran deyil,
Yox! Dünya, qardaşım, düzəlməyəcək.

Səhv düşüb, qarışıb ağı, qarası,
Zaylaşıb, turşlaşıb onun mayası,
Yaman dəyişibdir abı-şavası,
Yox! Dünya, qardaşım, düzəlməyəcək.

Nə ümidim qalıb, nə güman yerim,
Nə inamım qalıb, nə uman yerim,
Qırılıb iradım, son pənah yerim,
Yox! Dünya, qardaşım, düzəlməyəcək.

Şeiri qurtardım, əvvəlcə özlüyümdə, sonra isə bərkdən oxudum. H.Arifin «Bu dünya düzəlsə, dədəmə lənət» deməsini yadıma saldım.

Fikir və düşüncələrimi Yeni ilə istiqamətləndirməyə çalışıram. Hiss edirəm ki, getdikcə depressiyam silinib atılır. Özümdə yüngüllük hiss edirəm.

Bakı
05.12.2007.

* * *

27.12.2007-ci il tarixində mənim üçüncü nəvəm dünyaya göz açıb. Elcan zəng edib, anasını təbrik edəndən sonra mənimlə danışdı. Hamını təbrik etdi və gözaydınlığı verdi. Çox sevincli gündür. Nailənin isə şadlığının həddi-hüdudu yoxdur. Elcan anasına əziyyət vermək istəmədiyindən, Nailəni Pekinə göndərmədim.



Nəvəm Cəmilə

Bir də yayda özləri Bakıya dönəcəklər. Elcanın hər iki övladı gözlərini dünyaya Pekində açıb. Nigar və Elcana xəbər çatdırdıq ki, qızın adını özləri istədikləri kimi qoysunlar.

Nəvəmizin adı – Cəmilədir. Allah qismətini vermiş olsun. Bu gün yeni il axşamıdır. Qonaqlar gəlib adəti üzrə Nailəni ad günü münasibəti ilə təbrik ediblər. Biz də Kərimovlarla bir yerdə Yeni ili qarşılamağa gedəcəyik.

Bakı
31.12.2007.



Dəyişib dəyərin ölüm və həyat,
Biri asan olub, o biri çətin.
İtirib mənasın yaxşı hər nə var,
Ölüm üstələyib həyat sevgisin.

Həyatda məqsədlər çox bəsitləşib,
Əməllər, niyyətlər yaman bədləşib.
Qapanıb hisslər, xalq xudbinləşib,
Kədər üstələyib həyat sevgisin.

Mənasız olubdur ömür yaşamaq,
Bir ağac böyütmək, barını dadmaq.
Şərəf də gətirmir «Qala» ucaltmaq,
Haram üstələyib halal sevgisin.

Bakı
21.02.2008.

## MƏNİM DOĞMA VƏ ƏZİZ KAFEDRAM

Əgər səhv etmirəmsə, «Əmək kitabçam»da iki qeydiyyat vardır. Onların birincisi institutu bitirərək təyinat üzrə ilkin iş yerim olan Xüsusi Konstruktor Bürosu, ikincisi isə Azərbaycan Dövlət Neft Akademiyası (ADNA) ilə bağlıdır.

Əmək fəaliyyətimin ilk dörd ilindən bir qədər az müddəti istehsalatla bağlı olmuşdusa da, qalan hissəsi ADNA ilə bağlıdır.

ADNA-da «Maşınqayırma texnologiyası» kafedrasında boya-başa çatmağıma, elmi uğurlarımın əsasının orada qoyulduğuna baxmayaraq, əmək fəaliyyətim «Mühəndis qrafikası» kafedrası ilə bağlıdır. Kafedranın qısa tarixini, orada işləyən və mənə dərs deyən, sonradan isə həmkarlarım olan insanları yada salmağı, onlara öz minnətdarlığımı bildirməyi çox vacib hesab edirəm.

Əsası 1920-ci ildə qoyulan, neft elminin beşiyi hesab edilən Azərbaycan Dövlət Neft Akademiyasında mühəndis hazırlığında xüsusi yeri olan kafedralardan biri də «Mühəndis qrafikası» kafedrasıdır.

1924–1925-ci tədris ilinə qədər Azərbaycan Politexnik İnstitutu adını daşıyan bu ali məktəbdə, Tərsimi həndəsə və Rəsmxət fənləri institutun aparıcı professor-müəllim heyyətinə həvalə edilmişdi. Belə ki, Tərsimi həndəsə fənni professor D.N.Qolovin, B.Q.Pobedinski, L.İ.Yelkin, Rəsmxət fənni isə tanınmış mühəndislər A.Q.Babayev, B.A.Bayer, V.S.Qridin, B.Y.Starodub və başqaları tərəfindən tədris olunurdu. O zamanlar adları çəkilən fənlərə metodiki təminat və onların tədrisi ilə bağlı problemlərin həlli institutda yaradılmış Fənn komissiyaları tərəfindən həyata keçirilirdi. İnstitut inkişaf etdikcə, tələbə kontingenti artdıqca və bu fənlərin mühəndis hazırlığındakı vacibliyinin zəruriliyi nəzərə alınmaqla, onların tədrisinin konkret kafedralar tərəfindən aparılması aktuallaşmağa başlayır. Bu məqsədlə institutda 1924–1925-ci tədris

ilində «Maşın hissələri, yükqaldıran mexanizmlər, tərsimi həndəsə və rəsmxət» kafedrası yaradılır. Kafedrada Tərsimi həndəsə və Rəsmxət dərslərini V.F.Puzırevski, Ə.Məmmədov, K.Məmmədov və b. müəllimlər aparmağa başlayırlar. 1930–1931-ci tədris ilində kafedraya yeni gənc müəllimlər qəbul olunur. Bunların sırasında İ.İ.Qarayev, Ə.A.Əliyev və V.N.Qorsenskinin adlarını çəkmək olar.

1930-cu il may ayının 29-da Azərbaycan Politexnik institutu M.Əzizbəyov adına Azərbaycan Neft İnstitutuna (ANİ) çevrilir. Az sonra, 1932-ci ildə Dekanlar Şurasının qərarı ilə ilk dəfə olaraq «Tərsimi həndəsə və rəsmxət» adlı müstəqil kafedra yaradılır və kafedraya rəhbərlik V.F.Puzırevskiyə tapşırılır. Mən institutda oxuyanda bu insan haqqında əfsanəyə yaxın söhbətlər aparılırdı. O, böyük şəxsiyyət olmaqla bərabər, gözəl təşkilatçı, metodist-müəllim idi. Bütün tələbələr ondan çəkinərdilər. Həyat yoldaşı Rəisə Əyyubova bizim qrupa dərs deyirdi. Tələbkarlığı ilə fərqlənən bu xanımdakı səliqə və sahman məni tələbəlik illəri və sonrakı birgə fəaliyyətimiz dövründə həmişə heyran edirdi.

1934-cü ildə bu təhsil ocağının adı dəyişdirilərək Azərbaycan Sənaye İnstitutu (ASİ) adlandırılır. İnstitutda müəyyən struktur çevirmələri aparılır və kafedra yenidən «Maşın hissələri və maşınqayırma mexanizmləri» kafedrası ilə birləşdirilir. Bu vəziyyət 1938-ci ilə qədər davam edir. Sonradan kafedra müstəqil şəkildə öz fəaliyyətini bərpa edir və kafedraya rəhbərlik yenidən V.F. Puzırevskiyə həvalə edilir. Kafedranın formalaşmasında və inkişafında bu şəxsin böyük zəhməti və rolu olmuşdur. Məhz onun kafedraya rəhbərlik etdiyi dövrdə xüsusiləşdirilmiş auditoriyalar və laboratoriyalar təşkil olunmuş, dərs prosesləri coxlu sayda əyani və texniki vasitələrlə təchiz olunmuşdur. Onun rəhbərliyi ilə layihələndirilən, hazırlanan və tədris prosesində tətbiq olunan maketlər və vəsaitlər təkcə Azərbaycanda deyil, SSRİ miqyasında məlum idi. 1940-cı ildə Ə.Məmmədov, V.F.Puzırevski və K.Məmmədov tərəfindən

azərbaycan dilində «Tərsimi həndəsə» adlı ilk dərslik hazırlanıb nəşr olunmuşdur. Professor V.F.Puzırevskinin rəhbərlik etdiyi dövrdə respublikada tanınmış mühəndis və gənc mütəxəssislər, o cümlədən Ə.Hacıyev, A.Vəliyev, M.Qluskin, A. Buşnev, İ.Buşneva, M.Əliyeva, O.Rəhimov, Z.Əhmədov, C. İsmayılov, O.Qurbanov, R.Əyyubova, Ə.Mirzəbəyli, L.Mirantsev, V.Bernşteyn, B.Vetoxin kafedrada fəaliyyətə başlamışlar.

1962-ci ildə həmin kafedranın əsasında iki müstəqil kafedra təşkil olunması qərara alınır. O zamanlar institut M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu adlandırılırdı. Yeni və müstəqil «Tərsimi həndəsə» kafedrasına rəhbərlik etmək professor V.F.Puzırevskiyə həvalə edilir. «Rəsmxət» kafedrası isə dosent A.V. Dmitrevskinin rəhbərliyi altında fəaliyyətə başlayır. Bu şəxsiyyətlərin hər bir öz işinin gözəl biliciləri olmaqla yanaşı, yüksək səviyyəli təşkilatçı bacarığına malik idilər. Onlar ətraflarına topladıqları gənc və bacarıqlı mütəxəssislərin köməkliyi ilə kafedraların texniki bazasının yüksəldilməsinə, keçirilən dərslərin maraqlı olmasına yönəldilməsi istiqamətində böyük işlər həyata keçirə bilmişdilər.

Həmin illərdə Rəsmxət kafedrasına yeni müəllimlər cəlb edilir: R.Rəfiyev, B.Quliyev, İ.Çernikova, A.Cavadov, S.Baxışev, C.Əliyev.

Bu illərdə ilk dəfə olaraq təkcə Azərbaycanda deyil, keçmiş SSRİ məkanında da «Tərsimi həndəsə və rəsmxət» fənlərinin tədrisində elektrik əsasında işləyən cihazlar, maketlər və s. tədris vəsaitlərinin dərs prosesində tətbiqinə başlanılmışdır.

1965–1971-ci illər ərzində «Rəsmxət» kafedrasına dosent Qasım Bağırzadə rəhbərlik edir. O da mənə dərs demişdir. Onunla parallel bizim qrupda Xalidə Cavadova və Xədicə Babayeva dərs aparırdılar. Qasım müəllimin dövründə kafedraya böyük istehsalat təcrübəsi qazanmış, aspiranturanı bitirərək namizədlik dissertasiyası müdafiə etmiş mütəxəssislər kafedraya işə dəvət edilirlər. Bu sırada texnika elmlər nami-

zədləri S.Süleymanov, Ə.Əsədov, Y.Fərzanə, Q.Fukson, T.Dadaşova, M.Məmmədova, Q.Qirimov, Z.Kərimov, P.Məlikov, B.Qutman, eləcə də X.Babayeva, B.Sultanova, İ.Tsibulski, Z.Hacıməmmədova, K.Hüseynov, A.Hüseynov, M. İsmayılov, M.Balakişiyeva, M.Fətəliyeva, U.Datskovski, S.Məlikova, C.Camalov və X.Cavadovanı göstərmək olar.

Mən bu insanların çoxu ilə işlədiyimdən onların elmi səviyyələrinə və dünyagörüşlərinə yaxından bələd idim. Açıq etiraf etməliyəm ki, onların böyük əksəriyyəti, həqiqətən, şəxsiyyət idilər. Prinsipiallıq və peşəkarlıqları ilə seçilən bu insanlarda humanizm eyni dərəcədə yüksəkdə idi. Yadımdadır, 1-ci kursun qış sessiyasında Rəsmxət fənnindən məqbulu kafedranın baş müəllimi B.Quliyev qəbul edirdi. Qrafiki işləri tam və bütün tələblərə uyğun yerinə yetirdikdən sonra, dəfələrlə məqbulda iştirak edəndən sonra mən son nəticə olaraq müsbət qiymət ala bildim. Müəyyən vaxtdan sonra mən başa düşdüm ki, məhz bu tələbkarlığın qarşısında fənni örənə bildim. İndiki dövrdə nə tələbə, nə onun valideynləri, nə də fakültə dekanı belə vəziyyəti birmənalı qəbul etmirlər.

1971-ci ildə Rəsmxət kafedrasına professor Z.M.Əhmədov rəhbərlik etmişdir. 1975-ci ildə yenidən bu iki kafedra «Mühəndis qrafikası» adı altında birləşdirilir və ona rəhbərlik etmək professor Z.M.Əhmədova həvalə edilir. Bu illərdən başlayaraq kafedrada yenidənqurma işləri aparılır. Belə ki, kafedranın adının «Mühəndis qrafikası» qoyulması onun müasirləşdirilməsini və yeni statusa uyğun gəlməsini tələb edir. Kafedrada külli miqdarda təsərrüfathesablı elmi işlər yerinə yetirilir, tədris otaqlarındakı avadanlıqlar yeniləri ilə əvəz olunur, yeni dərs vəsaitləri və metodiki göstərişlərin nəşri qaydaya salınır. Eyni zamanda kafedraya yeni qüvvələr cəlb edilir: R.Səttarova, F.Səmədov, Ə.Babayev və N. Sadıqova.

1981–1986-cı illərdə kafedraya professor Ə.Həsənov rəhbərlik etmişdir. Bu müddətdə kafedrada böyük və güclü müəllim potensialı formalaşmış və onların bir qrupunun işti-

rakı ilə «Tərsimi həndəsə» kursu üzrə yeni dərsliyin nəşri üçün geniş işlər aparılmışdır. İlk dəfə olaraq tədris proqramlarına qrafiki proqramlaşdırma ilə bağlı mövzular daxil edilir.

Professor Ə.Həsənovun dövründə mən «Maşınqayırma texnologiyası» kafedrasından «Mühəndis qrafikası» kafedrasına keçirilmişdim. Səbəb kafedrada ixtisasın bağlanmsaı ilə dərs yükünün aşağı düşməsi idi. Kafedrada məni birmənalı qəbul etməsələr də, mən onların çoxu ilə xoş münasibət qura bilmişdim. Ruhən mənə yaxın olan insanların adlarını çəkməyi özümə borc bilirəm. Bu sıraya Ə.Əsədov, O.Qurbanov, X.Cavadova, N.Sadıqova daxildirlər.

Kafedrada işlədiyim müddətdə mən Moskvada namizədlik dissertasiyasını müdafə etdim. Bu işdə və sonrakı mərhələlərdə kafedranın heç bir köməkliyi olmasa da, maneələr tükənmək bilmirdi. Onlar haqda danışmaq istəmirəm.

1986–1992-ci illərdə kafedraya rəhbərlik dosent S.Bünyadova həvalə edilir. Bu dövrdən kafedrada tədris prosesində geniş şəkildə elektron hesablama maşınları tətbiq olunmağa başlayır. Kafedra o vaxtlar üçün müasir olan DBK-3 tipli fərdi kompüterlər ilə təchiz olunmuşdu. 1991-ci ildə institutun adı dəyişdirilir və o, universitet statusu alır – Azərbaycan Sənaye Universiteti (AzSU). Dosent S.Bünyadovun rəhbərliyi ilə 1991-ci ildə maşın qrafikası üzrə I Respublika elmi-metodiki konfrans keçirilmişdir. Kafedraya yeni müəllimlər cəlb olunur. Onlardan S.Mustafayev, Z.Nurməmmədova, S.Tağıyev, V.Məmmədov və R.Ərəbovu göstərmək olar.

S.B.Bünyadov bir insan kimi mülayim xasiyyətli olduğundan kafedrada birlik yaratmaq və söz-söhbətin qarşısını almaq kimi işlərdə çətinlik çəkirdi. Bu vəziyyət ondan sonrakı kafedra müdirinin vaxtında da davam edirdi. 1992–1994-cü illərdə kafedraya rəhbərlik edən professor S.İ.Bəxtiyarov kollektivi düzgün istiqamətləndirə bilmədiyindən onu idarə edə bilmirdi.



"Mühəndis qrafikası" kafedrası

1992-ci ildə Respublika Nazirlər Kabinetinin qərarı ilə AzSU-nun adı dəyişdirilərək Azərbaycan Dövlət Neft Akademiyası adlandırılır.

Bütün bu illər uzunu «Mühəndis qrafikası» kafedrası Neft-mexanika fakültəsinin tərkibində aparıcı təşkilatlardan biri olmuşdur. 1995-ci ildə müsabiqə yolu ilə «Mühəndis qrafikası» kafedrasına müdir təyin edildim. Bu proses asanlıqla keçmədi. Təkcə onu demək kifayətdir ki, 19 nəfərlik kollektivdən 9 nəfəri mənim əleyhimə səs vermişdilər. Mən bu insanların çoxusunun təsir altında olduğunu dərk edərək, ilk gündən onlarla birgə, lakin yeni tərzdə işləməyi təklif etdim. Çox qısa bir müddətdə təklifi qəbul etməyənlər getdilər və kafedrada qarşılıqlı hörmət prinsipi işə düşdü.






NMF-nin Elmi Şurasının üzvləri

Mən əsas vəzifəmi kafedranın tədris, metodiki, elmi-tədqiqat və digər sahələrində ciddi yenidənqurmada lazım bilərək işlərimi bu istiqamətə yönəltmişdim. Tədris prosesində kompüterləşmə işi, texniki və əyani vasitələrin tətbiqinə xüsusi yer verirdim. Kafedranın elmi fəaliyyət istiqaməti dəqiqləşdirilərək neft-mədən avadanlıqlarının layihələndirilməsində kompüter qrafikasının tətbiqi ilə əlaqələndirildi. Bu sahədə alınmış nəticələr mütəmadi olaraq elmi konfranslarda, mətbuatda, seminar və simpozumların materiallarında dərc olunmağa başladı. Kafedraya aspirant və dissertantlar qəbul olunmağa başladı və bunun sayəsində elmi-tədqiqat işlərinin intensivliyi ilbəil artdı.

Kafedrada tədris olunan fənnlərin mühazirələrinin konspektləri, dərslik, dərs vəsaitləri və müxtəlif metodiki təminatlar latın qrafikasında nəşr edilərək tələbələrin istifadəsinə verilməyə başlandı.

Müxtəlif mövzularda elmi-texniki konfransların keçirilməsi mütəmadi xarakter almışdı. Hər bir konfransın materialları və tezisləri dərc edilirdi.

Kafedranın kadr bazasının gücləndirilməsi istiqamətində daim böyük iş aparılır. Son illərdə kafedraya işə qəbul olunan gənc mütəxəssislərin sırasında dosentlər R.Məlikov və O.Mirzəyev, assistentlər E.İsmayılov və G.Bağırovanı göstərmək olar.

İllər boyu kafedrada tədris prosesinin yüksək səviyyədə təşkil edilməsində onun texniki işçilərinin də böyük zəhmətləri olmuşdur. Kafedranın əyani vasitələr bazasının genişlənməsində və tədris prosesinin texniki təminatının yüklədilməsində böyük xidmətləri olan M.S.Qorbunov və N.Mahmudzadəni göstərmək olar.

Hal-hazırda tədris prossesində və onun maraqlı keçməsində yaxından iştirak edən V.Yejkova, T.Sadıqova, L.Zeynalova, A.Qafarova və G.Qafarova bu sırada olan əməkdaşlardır. Bu xanımların köməyi olmadan işlərimi qura bilməzdim.

Mən adları çəkilən hər bir kəsə öz minnətdarlığımı bildirirəm. Çox sağ olun!

Bakı
15.05.2008.

* * *

Bu gündən nəvəm Fazilin məktəb həyatı başlanır. O, Bakının sayılıb-seçilən 134 saylı məktəbində təhsil alacaq. Hamımız onun ilk zəngində iştirak etmək üçün məktəbin həyətində yığışmışdıq. O, məktəbə qədər də hazırlıqlı idi. Mən onunla məşğul olurdum. Uşaq ensiklopediyasını tamam oxumuşduq. Çoxlu şeir və mahnılar bilirdi. Yadıma gəlir, onun sənədlərini məktəbə verərkən direktor onunla sadə sual-cavab aparmışdı. Fazil sualların hamısına cavab verəndən sonra direktora müraciət edərək dedi: – İstəyirsiz Sizə Günəş sistemi və bütün planetlər haqda danışım?

Ümumiyyətlə, Fazil məlumatları tez qavrayır. Çoxlu suallar verməyi xoşlayır. Onun bu xüsusiyyəti mənə Elcanın uşaqlığını xatırladır. O da çoxlu sualları ilə məni yorardı. Mənim tam əldən düşdüyümü görəndə isə deyərdi: Bir axırıncı sualım var, daha sual verməyəcəyəm.





Nəvəm Fazil

Nailənin sevinci çox böyükdür. Dəqiq yadımdadır, o, öz uşaqlarını məktəbin birinci sinfinə belə həvəslə aparmayıb.







Fazil nənəsi ilə

Məktəbə qədər bir dəfə onunla söhbətimdə o, məndən soruşdu: İnsanda ən yaxşı xüsusiyyət nədir? Mən ona dedim ki, bu suala bir kəlmə ilə cavab vermək münkün deyildir. Mövzu ətrafında söhbətimiz çox çəkdi. Mən bilirdim ki, o, bu mövzu ilə boş yerə maraqlanmır. Onun beynində nə isə bir fikir vardı.

Odur ki, söhbətimizdən sonra ondan soruşdum: İndi de görüm, bu sualı verməkdə nə məqsədin var və nəyi öyrənmək istəyirdin? O, cavabında dedi: İstəyirəm öz emblemim və devizim olsun. Evə qayıdandan sonra biz onunla emblem və deviz haqda çox düşündük. Devizimizi aşağıdakı kimi seçdik: «Səmimiyyət, ədalət və xeyirxahlıq».




Fazilin emblemi

Fazil təklif etdi ki, emblemdə Azərbaycanın bayrağının rəngləri öz əksini tapsın. Səkkiz guşəli ulduz və onun daxilində soyadının və adının baş hərfləri qeyd olunsun. Bu fikirlər əsasında bir neçə versiya işlənildi və sonda yuxarıda göstərilən emblem qəbul olundu.

Bu emblem onun gündəlik iş masasının üstündədər. Hər görüşümüzdə ondan devizini soruşuram.



Mənim fəxrim və vüqarım



Səni təbrik edirəm, mənim ağıllı balam! Allah nəzərlərini səndən əsirgəməsin! Xoşbəxt ol!

Bakı
15.09.2008.

* * *

Bu gün axşam Elcan ailəsi ilə birlikdə Çindən qayıdır. Bu dəfə onun məzuniyyəti 4 il üç ay çəkdi. Onları görmək, nəvələrimi qucaqlamaq arzusu son aylar mənim gündəlik tələbatlarımdan birinə dönüb. Nəvəm Nailəni görəndə onun bir yaşı vardı, indi o, 3 yaş beşaylıqdır. Kiçik nəvəm – Cəmiləni yalnız şəkillərində görmüşəm.

Səhər mən onunla danışanda onlar artıq Urumçi şəhərində idilər. Axşam $21^{30}$-da təyyarə Bakıya çatmalıdır.

İnşallah, hər şey yaxşı olar.

Bakı
01.12.2008.

* * *

Səhər işə gələndə gördüm ki, qapımın qarşısında bir qadın dayanıb. Salamlaşdıq. Mənə müraciət edərək, onu dinləməyi xahiş etdi. Mən onu iş otağıma dəvət etdim və problemin nədən ibarət olduğunu soruşdum. O, bir qədər susandan sonra oğlunun mənim tələbəm olduğunu, kafedrada tədris olunan fəndən çətinlik çəkdiyini dedi. Mən onun üzündəki kədəri və yorğunluğu ilk andan hiss etmişdim. Mənim yanıma belə xahişlərlə çox valideynlər gəlirlər. Onların hər biri öz problemi və çətinliklərindən danışırlar. Mən heç də bu məsələlərdən danışmaq istəmirəm, lakin bu qadının baxışlarındakı ağırlıq, səsinindəki ahəng, gözlərini bir nöqtəyə dikərək danışmağı məni ona diqqətlə qulaq asmağa məcbur etdi. Onun taleyinə, ağrı-acılarına, qeyrətinə biganə qalmaq olmazdı. Məndə ona qarşı doğma hisslərin yarandığını hiss etdim. İnqilablar və müharibələr dövründə, aclıq və səfalət içərisində övlad böyüdən nənələrimiz, ana və bacılarımız düşdü yadıma.

Bu dünyanın zərbələrin tez dadan,
Min ağrısın acısını yaşayan,
Gizli dərdin yastığına danışan,
Tənha qadın, belə imiş taleyin.

Sən dünyanı əhdə vəfa bilirdin.
Səadətim əbədidir deyirdin,
Öz-özünü yaman gözə gətirdin,
Tənha qadın, belə imiş taleyin.

Sevgini sən tam yaşaya bilmədin,
Tez tapmışdın, tez də onu itirdin.
Min oyundan bu, biridir fələyin,
Tənha qadın, belə imiş taleyin.

Yox əvvəlki təbəssüm də üzündə,
İndi kədər, qəm dolaşır üzündə,
Səndən qaçır sənlə deyib gülən də,
Tənha qadın, belə imiş taleyin.

Düz işin də gendən əyri görsənir,
Xoş sözlərin, zarafatın şərlənir,
Sən nə desən, başqa cürə səslənir,
Tənha qadın, belə imiş taleyin.

Ünvanına min söz də söyləyirlər,
Düzü yalan, haqqı nahaq çözürlər,
Göz süzdürüb «Bəxtəvərdir» deyirlər,
Tənha qadın, belə imiş taleyin.

Xoş günlərdən nişan qalan balalar,
Bu gün onlar sənə ümidvardırlar,
Səbr eylə, döz, çətin günlər sovuşar,
Tənha qadın, belə imiş taleyin.

Hər bir işçin gəl qınama zamanı
Sən gəl dostu tanı, düşməni tanı,
Bu dünyanı dəyişməyə güc varmı?
Tənha qadın, belə imiş taleyin.

Bakı
30.12.2008.

* * *

Adətən, Nailəni 31 dekabrda ad günü münasibəti ilə təbrik edirik, lakin bu dəfə biz onun ad gününü bir neçə gün qabaqcadan, 26.12.2008 tarixində qeyd etdik. Bu il onun 55 yaşı tamam olur. Yubileyi tez keçirməyimizin üç əsas səbəbi vardı:

1. Onu təmtəraqlı, tələsmədən və tam şəkildə keçirməyin vacibliyini, eləcə də ad gününün ilin son günü olduğundan və

təbrikə gələnlərin az müddətdən sonra Yeni ili qarşılamaq üçün evlərinə tələsmələri.

2. Bu il Məhərrəm ayı dekabrın 29-dan başlanır və belə günlərdə şənliklərin keçirilməməsi.

3. Bu günün Nailə üçün sürpriz kimi təqdim edilməsi.

Fazillə mən noyabr ayından bu günə hazırlıq işləri aparırıq. Yadımdadır onunla «Fəvvarələr» meydanında gəzərkən ona dedim ki, ilin sonunda nənənin ad günü olacaq və bu ad günü digərlərindən fərqlənir. Biz gərək onu elə keçirək ki, Naykanın yadında qalsın. Bir az gəzdikdən sonra o sevincək dedi: – İdadim (dil açandan məni belə çağırır), mənim bir neçə ideyam var. Və başladı sadalamağa. Deməliyəm ki, onun böyük fantaziyası var. Qərara gəldik ki, evə qayıdandan sonra bu təklifləri qeyd edək. Özünə məxsus və uşaqlıq dünyasına uyğun, Nənəsinə bağışlamaq və onun üçün etmək istədiklərini yaddan çıxarmamaq üçün mənə yazdırdı. Özü isə bütün bunların rəsmini çəkdi. Biz öz aramızda belə qərara gəldik ki, bunları Naykadan gizli saxlayaq.

Qaqaşın ideyaları və təklifləri məni Nailənin ad gününü onun üçün sürpriz etmək, onun tərcümeyi-halı ilə bağlı jurnal hazırlamaq, disk yazdırmaq qərarına gətirdi və bu işə başladım. Dekabr ayının 10-da «NAİLƏ» jurnalı və nəvələrin adından yazılmış «GÖZƏL NƏNƏ» müasir Azərbaycan nağılının diskini hazırladıq.

Fazilin və Naykanın sözləri əsasında bir gözəlləmə də yazdıq.

Gözəllərin gözəlisən,
Hamımızın əzizisən,
Nənələrin nənəsisən,
Mübarəkdir ad günün!

Babamızın bircəsisən,
Ürəklərin incisisən,
Sən Dünyanın sevincisən,
Mübarəkdir ad günün!

Atamızın anasısan,
Anamızın bacısısan,
Bacımızın bacısısan,
Mübarəkdir ad günün!

Biz bu günü çox gözlədik,
Sənə nəğmələr bəslədik,
Gül-çiçəyi dəstələdik,
Mübarəkdir ad günün!

Çöhrən daim nurla dolsun,
Üzün gülsün,nəbzin vursun,
Düşmənlərin qoy xar olsun,
Mübarəkdir ad günün!

Ad günü üçün 26 dekabr tarixini seçmişdim və bütün dəvət olunanlardan xahiş etmişdim ki, $18^{45}$-də «Orman» restoranında toplaşsınlar. Nailəyə isə demişdim ki, mənin bir dostum bizi ailəliklə restorana dəvət edir. Hər şey bizim fikirləşdiyimiz kimi alındı. Restoranın bizim üçün ayrılmış zalına girəndə Nailə işıqların yanması və qonaqların onu əl çalaraq qarşılamasından hara və nə üçün gəldiyini başa düşmürdü.

Ad günü çox şən keçdi. Kameraya bu anların bəzilərini çəkə bildik. Çox şadam ki, əzizim Nailəyə belə bir gün bağışlaya bilmişəm.

Bakı
27.12.2008.

## ƏZİZİM NAİLƏ!

Bu etiraf məktubunu mən çoxdan yazmaq istəyirdim, lakin zamanını düzgün müəyyən edə bilmirdim. Zaman baxımından bir qərinə birgə ömür yaşadığımıza baxmayaraq, bu gün mənim qərarım qətiləşdi və ürəyimdən keçənləri sənə açıq şəkildə bildirmək istədim.

İlkin olaraq onu deməliyəm ki, Nailə adı – mənim üçün həyatda iki müqəddəs addan biridir.



Nailə xanım – mənim əzizim

Bu adın daşıyıcısı övladlarımın Anası, məni ürəyinin bütün dərinliyilə sevən bir qadın və yaxın yoldaş olmaqla bərabər, mənim ömür-gün dostum, sarsılmaz dayağım və tükənməyən sevgi mənbəyimdir.

***Birinci etirafım:*** Sənə olan məhəbbətim əbədidir. Cismim yer üzərində gəzənə qədər, gözlərim bu dünyanı görənə qədər, nəfəsim boğazımdan keçənə qədər səni sevəcəyəm.

***İkinci etirafım***: Sənə olan hörmətim olduqca böyükdür və onun saxlanması üçün həmişə çalışacağam.

***Üçüncü etirafım***: Sən mənim ən yaxın dostumsan. Bizim aramızdakı münasibətlər məhəbbət və hörmət kimi mərhələləri yaşayaraq dostluq səviyyəsinə qədər yüksəlmişdir. Mən bilirəm ki, sənə 100% etibar etmək olar. Şükürlər olsun ki, bizim qarşılıqlı münasibətlərimizdə nifrət və biganəlikdən zərrə qədər əlamət belə olmayıb.

***Dördüncü etirafım:*** Xoşbəxt o adamdır ki, evində xoşbəxtdir. Mən də bu qisimdən olan insanam. Uzun müddətli birgə həyatımızda sevincli və kədərli, ağrılı və acılı, dəhşətli və gözəl, qazanclı və itkili, anlaşıqlı və anlaşılmaz günlərimiz olub. Bu keşməkeşli günlərin və illərin biz həmişə yaxşısını (bəzən onların çox az olmasına baxmayaraq) yadda saxlamışıq. Nifrət və biganəliyin yaranmasına, inkişaf etməsinə və həyatımıza hakim kəsilməsinə yol verməmişik. Bu məktubu bir az da geniş yaza bilərdim, lakin bu yerdə dayanmağı qərara aldım. İkinci etiraf məktubumuzu, əgər qismət olsa, birgə həyatımızın ikinci qərinəsində yazacağam. Səni mənim taleyimə yazdığına görə Ulu Tanrımıza şükür edirəm. Bizim ailəmiz üçün əziz olan bu gündə Səni ürəkdən təbrik edirəm. İnsan bu dünyaya xoşbəxt olmaq üçün gəlir. Mənə bəxş etdiyin xoşbəxtliyə görə Sənə öz minnətdarlığımı bildirirəm.

Böyük hörmət və minnətdarlıqla İbrahim

Bakı
31.12.2008.

* * *

Yenə növbəti zərbə, yenə alt-üst olan ümidlər və arzular. Heç kəsi və heç nəyi qınamıram. Şükür olsun Yaradanın məsləhətinə və kəramətinə.

Mən dərdimi kimə deyim,
Deyilməli dərddimi bu?
Mən bu dərdi kimlə bölüm,
Bölünəsi dərddimi bu?

Gör taleyim necə döndu.
Nə qurmuşdum hamı çökdü,
Sanki, Günəş, Ay da söndü,
İnanası işdimi bu?

Bakı
25.02.2009.

## ADNA-nın QARA GÜNÜ

30 aprel 2009-cu il Azərbaycan Dövlət Neft Akademiyasının tarixində ən dəhşətli gündür. Onu ancaq Qara gün kimi yadda saxlamaq olar.

Ölüm və həyat arasında zaman fərqi 20–25 saniyə imiş. Mən bunu dünən yox, bu gün dərk etməyə başlamışam. Şəxsi təcrübəmdə.

Səhər saat $9^{30}$ bir neçə tələbənin qaçaraq mənim otağıma girməyi, həyacanlarından özlərini tamamilə itirmiş oğlanların – «Müəllim, aşağı mərtəbədə güllə atırlar, bizi gizlədin» deməsinə inanmadım və onları sakitləşdirməyə çalışdım. Lakin dalbadal atılan iki güllənin səsi məni reallığa qaytardı. Koridora çıxanda orada çoxlu tələbələrin toplandığını gördüm. Tez onları yanımızdakı mühazirə zallarına sala bildim. Güllə səsi yenə eşidilirdi. Mən otağımın qapısını bağlayanda atəş səsi artıq bizim mərtəbədə eşidildi. Mən yenə də nəyin baş verdiyini anlaya bilmirdim. Tez akademiyanın prorektoru N. Şıxiyevə zəng çaldım. O dedi ki, tələbələri bayıra buraxmayım və özüm də içəridə olum. Bunları yazmaq və ya danışmaq zaman baxımından çox çəkir. Reallıqda isə qısa bir vaxt keçmişdi. Mən dözə bilməyib qapımı açaraq koridora çıxanda qapımın ağzında qan izləri gördüm. Koridor boş idi, lakin mərtəbəmizin ortasında yerə yıxılanlar var idi. Mən onlara tərəf istiqamətlənmək istədikdə bir nəfər əlisilahlı ilə rastlaşdım.

O, həyəcanla mənə dedi: Qorxma, mən polisəm! Otağıma qayıtmağı əmr etdi. Onun ardınca mərtəbəyə xüsusi geyimli polislər daxil oldular. Mən otağa qayıdıb tələbələri sakitləşdirməyə çalışırdım. Böyük təlaş var idi tələbələr arasında. ADNA-nın binası artıq polislərlə və maşınlarla əhatə olunmuşdu.

Növbəti dəfə otaqdan çıxarkən polislər tez mərtəbəni boşaltmağı tapşırdılar. Qan içində batan həmkarlarımızı gördükcə mərtəbələrində ağlayan, qışqıranların sayı hər dəqiqə artırdı.

Biz binadan çıxaraq onun ətrafında toplaşmışdıq. Hər birimiz yaralananlara köməklik göstərmək istəyirdik. Polislər bizi sakitləşdirərək deyirdilər ki, binanın içərisində kifayət qədər həkimlər və polislər var.

## CİNAYƏT HADİSƏSİ VAXTI ÖLƏN VƏ XƏSARƏT ALAN ŞƏXSLƏRİN AŞKAR EDİLDİYİ YERİN SXEMİ (XRONOMETRAJ)

| | | |
|---|---|---|
| 2 meyit | Bəndəliyev Yusif<br>Qədirov Fərda | **6 mərtəbə**<br>**$9^{50}$**<br>2 ədəd darağın doldurulması |
| 3 meyit<br>1 yaralı | Abdullayev Ramiz<br>Vahidov Məcnun<br>Əzizova Tamilla<br>Hüseynli Zemfira | **5 mərtəbə**<br>**$9^{45}$** |
| 2 meyit | Məmmədova Şəfa<br>Babaşov Ruslan | **4 mərtəbə**<br>**$9^{41}$** |
| 3 meyit<br>1 yaralı | Cabbarov Savalan<br>Bağırov Ayaz<br>Məmmədov Taleh<br>Qurbanova Səbinə | **3 mərtəbə**<br>**$9^{39}$** |
| 2 meyit<br>Yaralanlar | Aslanov Ceyhun<br>Abdullayev Emin<br>Şamiyev Elvin<br>Rüstəmbəyov Faiq<br>Cəfərov Bəxtiyar<br>Şirəliyev İlkin | **2 mərtəbə**<br>**$9^{34}$**<br>2 ədəd darağın doldurulması |
| 1 meyit | Qurbanova Aynə | **1 mərtəbə**<br>**$9^{33}$** |
| Yaralanlar | Mustafa Mohammed<br>Daas Muaviya<br>Seyid Əhməd Amiri | **Pilləkən**<br>**$9^{30}$** |

**Bütün meyitlər 1 ədəd güllə, yalnız Savalan Cabbarov – 6 ədəd güllə.**
**Cəmi: 18 güllə ölülərə, 13 güllə yaralılara.**

Binanın həyət qapıları bağlı idi, təkcə təcili yardım maşınlarını içəriyə buraxırdılar.

Ölən və yaralananların sayını səhərisi gün bildik. Artıq istintaq işi başlanmışdı. Biz müstəntiqlərə hər cür köməklik etməyə

çalışırdıq. Hadisələrin xronikasını tərtib etməkdə onlara yardımçı olduq. Bu sənədə baxanda dəqiqliklə bilirsən ki, qısa bir müddətdə bu yaramaz nə qədər insanın haqsız qanını töküb, ailələri göz yaşlarına, unudulmaz dərdlərə düçar edib.

Kim nə deyir, qoy desin. Mənim üçün bu bir terror aktıdır. Biz bundan mütləq bir nəticəyə gəlməliyik. Yox! İnanmıram! Biz unutqan bir xalqıq! Allah Sizlərə rəhmət eyləsin, əziz tələbələr və həmkarlarım.

Bakı
05.05.2009.

* * *

Ali məktəb müəllimi kimi həmişə gənclər arasında olduğumdan, qohum, tanış, eləcə də dost və qardaşlarımın uşaqları ilə apardığım söhbətlər zamanı cavan nəslin həyat prinsiplərinə, sənət və ixtisas seçiminə, gələcək ailələri ilə bağlı düşüncələrini dinlədikcə və onları analiz etdikcə məndə dəqiq cavablarını tapa bilmədiyim suallar yaranır.

Mən özümü müasir, vaxt və zamanı duyan bir şəxs hesab edirəm. Bu gün zahirən çox aydın və sadə görünən məsələlərdə müasir gənclərlə 20–25 il bundan əvvəlkilər arasında düşüncə və əməli addımlarda böyük fərq vardır.

Ən seçilən fərq indiki gənclərin təhsilə olan münasibətidir. Çoxları ali məktəbə ona görə daxil olur ki, belə lazımdır. Təhsil, qazanılan ixtisasın romantikası və həqiqi dəyəri onları bir o qədər maraqlandırmır.

Çoxları ailə qurmaq məsələsində maddi tərəfi mənəvi aspektlərdən ucada tutur. Məktəbin sonuncu sinfində oxuyanda mən də çoxları kimi ailə qurarkən ilkin olaraq mənzilin, maaşının, var-dövlət və sairənin olmasını arzulamışam. Bu arzular xəstə təkamül dərəcəsinə çatdırılmamışdı. Həmişə onları qazanmağa və əlimlə qurmağa üstünlük vermişəm. Kiminsə və ya nəyinsə hesabına məqsədə çatmaq prinsipi mənim üçün

yad və uzaq olumuşdur. «Dövran dəyişib, zaman həmin zaman deyildir» ifadələrini qəbul etmirəm. Bununla bağlı Aşıq Ələsgərin gözəl izahı var:

Zaman həmin zamandır,
Qocalmışıq biz bir az.
Mizrab həmin mizrabdır.
Kökdən düşüb saz bir az.

Bəli, biz dəyişmişik, lakin bu dəyişmənin hansı tərəfə istiqamətləndiyini birmənalı demək çox çətindir. Bu çətinliklərə baxmayaraq mən bir həqiqəti dəqiq bilirəm – hər bir şeyin əsasında zəhmət və xeyirxahlıq durur.

Dünyada iki qanun dəyişməzdir. Birinci – çəkilən zəhmət itmir və Ulu Yaradan onun əvəzini mütləq qaytarır. İkinci – xeyirxahlıq göstərmək Allahın bizə bəxş etdiyi ən dəyərli nemətdir və edilən yaxşılıq mütləq sənin özünə qayıdır.

İstərdim ki, bizim övladlarımız bunu dərk etsinlər və bu prinsiplərlə, qanunlarla yaşasınlar.

Bu düşüncələri sizlərlə bölüşərkən Nailəyə olan məhəbbətimi aşağıdakı şerlə bildirmək istəyirəm.

Sənsən mənim həyat eşqim,
Hər cümləmin əzəli sən, sonu sən.
Sənsən mənim duyan qəlbim,
Ruhum sənsən,
Cismim sənsən,
Nitqim sən.
Sənəsən mənim görən gözüm,
Onlar ilə bu dünyaya baxıram.
Sənsən mənim güman yerim,
Sənə olan, tükənməyən,
Sonu sonzuz, görünməyən
Məhəbbətlə yaşaram.
Sən ömrümə işıq saçan,
Günü-gündən alovlanan,

Daim artan, daim coşan
Odu sönməz,
Gücdən düşməz,
Nuru bitməz bir Məşəlsən.
Nəbzimin ahəngində də
Sənin adın səslənir.
Ürəyimin döyüntüsü sənin üçün bəslənir.
Əqlim, şüurum, cismim sənə qurban verilib
Qəbul eylə bu qurbanı,
Ruhu tərk etməmiş canı,
Həm bu günə,
Həm sabaha ümidimi yaşadansan.

Zaman belə ötüb keçsə,
Saç ağarsa, diz bükülsə,
Dərdlərimin üstünə min bəla gəlsə
Mənə həkim gərək deyil,
Ehtiyacım yox təbibə,
Heç loğman da kömək etməz,
Dava-dərman şəfa verməz,
Ümüd təkcə sənə qalıb,
Güman yerim təkcə sənsən.



Bircə kəlmə sözün bəsdir
Ruhum mənim təzələnsin.
Bir baxışın kifayətdir,
Həyat eşqim yeniləşsin,
Dünya başqa bir rəng alsın,
Həyat qaynasın, qarışsın.
Dost sevinsin, qoy şadlansın,
Düsmənə də bir pay düşsün.
Əsirgəmə o kəlməni,
Yan qaçırma o baxışını,
Puç eyləmə ümidləri,
Kəramətin azalmasın,
Qoy eşqimiz alovlansın,

Ümidlərimiz gül açsın,
Sevgimiz əbədi olsun,
Bu dünya durduqca dursun,
Zaman keçdikcə sönməsin,
Şölələnsin, şölələnsin,
Əbədi bir çıraq kimi.
Sənsən mənim uman yerim,
Sənsən mənim aman yerim,
Sənsən mənim inam yerim.

Bakı
30.07.2009.

## 70 İL, 7 AY VƏ 17 GÜN YAŞANAN HƏYAT

14.08.2009-cu il tarixində ən yaxın dostumu – Rafiq Kazım oğlu Quluzadəni itirdim. Tanıdığım gündən mən onu Tanrının mərhəməti, səxavəti və hədiyyəsi kimi qəbul etmişəm. Bu insan üçün təmənna, təkəbbür və paxıllıq kimi anlayışlar qəbul edilməz idi. Həyat kredosu yaxşılıq, xeyirxahlıq və səmimiyyət üzərində qurulmuşdu. Tanınmış bir nəslin övladı idi Rafiq. Onun atası Kazım müəllim gözəl insan, görkəmli alim və təşkilatçı idi. Mən AZİ-də oxuyanda o, bizim rektorumuz olub və mənim bu ali məktəbə işə qəbul olunma ərizəmə imza edibdir.

Rafiqi tələbəlik illərindən tanımağıma baxmayaraq, onunla yoldaşlıq, sonradan isə dostluq münasibətlərim 1990-cı ildən baylayır. Çində elmi ezamiyyətdə olduğum müddətdə oranın Texnoloji Universiteti ilə bizim ali məktəb arasında əməkdaşlıq müqaviləsinin bağlanması istiqamətində apardığım işlərin nəticəsi olraq 1990-cı ilin may ayında Çinə göndərilən nümayəndə heyyətinin tərkibində Rafiq müəllim də var idi və həmin vaxtdan bizim dostluq münasibətlərimiz yarandı. AZİ-də mənim karyeramın inkişafında onun xidməti çox böyük

olmuşdur. Şəxsi problemlərimin həllində, ailə üzvlərimin nişan, toy və digər hadisələrində doğma qardaş qədər mənə yaxın olan və hər cür dəstək verən Rafiq olub.

O bütün Bakını, onun elitasını fundamental tanıyırdı. Bu insanlar onun hər bir xahişini yerinə yetirməyə hazır idilər. O, özü üçün heç vaxt heç nə xahiş etməzdi, lakin dost və tanışları üçün tərəddüd etmədən hara lazımsa zəng edər və ya durub o işin dalınca şəxsən gedib onu həll edərdi.

Belə insanlar çox az olur yer üzərində. Bütün bunlara baxmayaraq, o tək idi. Ailə həyatı tez pozulmuşdu, oğlu Eldarı tək böyütmüşdü. Sonradan ailə qurmamışdı və oğlu da bu yolla gedərək evlənmədi. Bir sözlə Kazım müəllimin nəsli öz inkişafını tapa bilmədi.

Bakı
16.08.2009.

## KƏRİMOVLAR



Bu, böyük bir ailədir. Onun başında İlham Müzəffər oğlu Kərimov durur. Yaxınlıq baxımından İlham mənim qohumum, daha doğrusu bacanağımdır. Mən həmişə deyirəm: – Arvad qohumundan qohum olmaz, olsa-olsa dost olar. İlham mənim ən yaxın Dostumdur.

Qaynatam – Hacı Gərayev rəhmətə gedəndə Mətanətin 12 yaşı var idi. Nailə və mən yenicə ailə qurmuşduq. Mətanət daim bacısının yanında olardı. Mənim onunla olan münasibətim bizim subay vaxtlarımızdan başlanır. Nailə onu musiqi məktəbinə aparanda və ya görüşə gələndə özü ilə gətirərdi. Həmin günlərdən məndə Mətanatə qarşı kiçik bacı, doğma övlad hissləri yaranmışdı. O da bu hissləri bu günə qədər qoruyub saxlayır.

Hər dəfə Nailə mənə deyəndə ki, Mətanət üçün elçilər gəlmək istəyir, mən buna heç cür razılıq vermirdim. Mənim üçün hələ də o balaca uşaq idi. Baxmayaraq ki, o artıq bizim institutda oxuyurdu və işləyirdi. Müqavimətim çox davam etdi. İndiyə qədər İlham bu haqda çox danışır.

1985-ci ildə İhamla Mətanət ailə qurdular. Bu nikahdan onların iki övladı var: İlhamə və Tural. Hər ikisi ədəbli, əxlaqlı və tərbiləli övladdırlar. Aralarında iki yaş fərq olmasına baxmayaraq onlar eyni zamanda məktəbə gediblər və sonradan ali məktəbə daxil olublar. İlhamə ingilis dili üzrə tərcüməçi, Tural isə iqtisadçıdır.



İlham və Mətanətin toy günü

Mən bu yazıları yazdığım anda İlhamə artıq müstəqil ailə həyatı qurmuşdur və onun bir övladı vardır. Tural isə Azərbaycanda gömrük sahəsində tanınmış mütəxəssisdir. Halhazırda o, Bakı Dövlət Universitetində təhsilini davam etdirir. Gələcəkdə hüquqşünas olmaq arzusundadır.

İlhamə və Tural uşaqlıqdan bu günə qədər mənə «Baba» deyərək müraciət edirlər.



Fərid və İlhamənin toyları 2009-cu ilin yaynda baş tutmuşdur. Bu gün Fərid bizim hamımızın istəklisi və sevimlisidir. Fərid gözəl bir ailənin, nəslin övladı olub öz zəhmətsevərliyi, işgüzarlığı və hörmətcilliyi ilə fərqlənir. Qohum və tanışlarının bütün işlərində ürəkdən iştirak edir. İxtisasca diş həkimidir. Mən çox sevinirəm ki, İlhamə və Fərid bir-birini başa düşürlər.

İlhamə – gözümün qarşısında böyüyən bu qız artıq anadır, qayınanasına və qayınatasına hörmət və ehtiramlıdır. Ümumiyyətlə o çox mehriban bir qızdır.

2010-cu ilin aprel ayının 23-də Fəridlə İlhamənin bir qızı dünyaya göz açıb. Adı Leyladır onun. Hələ bir yaşı tamam olmayıb, lakin fərqli bir şirinlik vardır bu uşaqda. Özünü hamıya istədə bilir. Məni təbrik edənlər deyirlər: Gözün aydın olsun NƏTİCƏN olub. Amin! Amin! Amin.

Bu uşağın dünyaya gəlişi ilə İlham tamam dəyişib. Mətanətin sevinci birdirsə, İlhamda – beşdir, ondur və...

İlham həmişə mənə sataşaraq deyərdi: Bilirik nəvəni çox sevirsən, ancaq bunun həddi olmalıdır. Sən həddindən çox diqqət ayırırsan bu uşağa. İndi İlham bu işdə məni keçib.



Fərid və İlhamənin toy günü

Tural isə söz verib ki, 25 yaşından tez evlənməsin. İlhama qalmış olsa, onu çoxdan evləndirərdi.

Mən bir şeyi özüm üçün dəqiqləşdirmişəm – doğumla ölüm arasındakı məsafəni hərə bir cür yaşayır. Dünyaya göz açdığımız kimi, bir gün də gözlərimizi yumub, həyata əlvida

deyirik. Ancaq hər şey bununla bitmir. Elə insanlar var ki, dünyaya nə üçün gəldiklərini anlamırlar. Müəyyən şablonlarla yaşayırlar.



Leyla balamız

Mənim üçün həyatda dəyişməz və mütləq iki qanun vardır. Onların hər ikisini Allahımız Peyğəmbərimizin dili ilə bizə çatdırıb.

Birinci: – Dünya yaxşılığın üzərində qurulub. Hər bir kəs ancaq və ancaq yaxşılıq etməlidir. Əgər bunu edə bilmirsə, pislik də etməməlidir. İllər boyu belə insanlara rəhmət oxunur, gördüyü işlər minnətdarlıqla xatırlanır.

İkinci: – Çəkilən zəhmət itmir, mütləq onun əvəzi verilir. Halal zəhmətdən rahat bir şey tanımıram.

İlham, məhz bu iki qanun əsasında yaşayan insanlardandır. O, öz qohumlarına, tanışlarına köməklik göstərməklə yanaşı, ona müraciət edənlərin də qayğısını çəkir və hörmətlə münasibət bəsləyir.

Mən bu ailəyə xoşbəxtlik və uğurlar arzulayıram.

Bakı
21.03.2011.

Avropa və Asiyada neft sahəsi üzrə ilk texniki-ali məktəb olan **Azərbaycan Dövlət Neft Akademiyası** (ADNA) 1920-ci ildə yaradılıb. O vaxtdan bu günə kimi ADNA Azərbaycanın elmi-texniki fikrinin son dərəcə inkişafında xüsusi yer tutub. Bu ali məktəbdə keçmiş SSRİ və xarici ölkələr üçün yüksək-ixtisaslı mütəxəssislər yetişmişdir və bu proses bu gün də davam edir.

2010-cü ilin noyabr ayının 26-da təntənəli şəkildə ADNA-nın 90 illik yubileyi qeyd olundu. Yubiley ərəfəsində Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevin Fərmanı ilə ADNA-nın bir qrup əməkdaşları fəxri adlar, orden və medallarla təltif olundu. Bu sırada mən də vardım. Əməyinin və zəhmətinin dövlət tərəfindən qiymətləndirilməsi çox xoş haldır. Qazetlərdə bu təqdimat haqda məlumatı oxuduqda qürur hissi keçirdim. ADNA kimi böyük bir kollektivin içindən seçilənlərin sırasında olmaqdan məmnunam!





Görkəmli boksçu, Milli Olimpiya Komitəsinin
Baş Katibi, professor Ağacan Əbiyev



Əfsanəvi futbolçu Ələkbər Məmmədov



Köln Universitetinin professoru Rza Talibi

Bu yubiley haqqında, ADNA-nın tarixində yadda qalan bir gün kimi çox danışılacaq.

Bakı
30.11.2010.



* * *

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİYİNƏ SƏFƏRİM

Bu gün torpağında gəzmək, suyundan içmək, dənizində çimmək, insanları ilə tanış olmaq istədiyim və çoxdan arzuladığım ölkədə – Birləşmiş Ərəb Əmirliklərindəyəm (BƏƏ). İlkin olaraq bu ölkə haqqında qısaca məlumat vermək istəyirəm.

Birləşmiş Ərəb Əmirlikləri Ərəbistan yarımadasının şərq hissəsində, Fars və Oman körfəzləri sahilində yeləşir. Tərki-

bində yeddi əmirliyi – Abu-Dabi, Dubay, Şərca, Yəmən, Rəs-əl-Xeymə, Umm-əl-Qayveyn və Füceyrəni birləşdirən bir dövlətdir. Ölkə ərazisinin 93%-i Abu-Dabi və Dubay əmirliklərinin payına düşür. XX əsrin 50-ci illərinə qədər, BƏƏ-də neft yataqları kəşf olunanadək iqtisadiyyatının əsasını balıqçılıq və mirvari hasilatı təşkil edirdi. 1962-ci ildən əmirliklərdə neft aşkar olundu və Əbu-Dabinin mərhum hakimi şeyx Zahid neft sənayesi potensialını tez dərk etdi və neft ixracından gələn gəliri səhiyyəyə, təhsilə və milli infrastrukturun inkişafına yatıraraq, bütün əmirliklərin inkişafını təmin etdi. Milyardlarla dollar bu ölkənin imicini dəyişdi. BƏƏ – Fars körfəzi ölkələri sırasında mədəniyyət və inanclara qarşı dözüm nümayiş etdirən ən liberal ölkəyə çevrildi.



Bürc əl-Ərəbdə

Bizi aeroportda Sənan qarşıladı. O, Dubayda işləyir. Mən onu çoxdan tanıyıram. Atası və əmiləri ilə gənclik illərimizdən tanışıq. Sənan özü də mənim tələbəm olub.

Hotel «GRAND HYATT»da yerləşdik. Üç nəfərik – İlham Mətanətlə və mən. Bu səfəri İlham təşkil edib. O, hər dəfə hara isə gedəndə məni də dəvət edirdi. Mən isə işimlə əlaqədar olaraq təkliflərə etiraz edirdim. Bu dəfə isə həm mənim istəyim, həm də İlhamın qısa istirahəti üst-üstə düşdü.

Mən İlhama qabaqcadan səfərimin planını açıqlamışdım: Palma adasına getmək, Bürc əl-Ərəbi görmək, «Atlantis» otelindəki akvariumun tunelindən keçmək, dünyanın ən hündür tikintisi olan Bürc əl-Dubayın qarşısında şəkil çəkdirmək.

Axşamüstü Siti mərkəzə getdik. Möhtəşəm tikinti, nəhəng ticarət mərkəzi mənim çox xoşuma gəldi. İlhamın mənə Dubay haqqında danışıqlarına inanmağa başladım. Ticarət mərkəzinə gələnə qədər, küçələrdə gəzən bircə nəfərə belə rast gəlmədik, onun daxilində həyat qaynayırdı. İnsanlar buraya təkcə alış-verişə deyil, eyni zamanda istirahətə gəlirlər.

Sənan bizə buradan digər bir ticarət məkrəzinə getməyi təklif etdi – Dubay Moll. Onun sözlərindən məlum oldu ki, orada yeni fəvvarələr kompleksi inşa edilib. Hər gün axşam saat 19–22 arasında fəvvarələr saatda bir dəfə 5 dəqiqə müddətində təsəvvür olunmaz gözəlliklə rəqs edirlər.

Biz ora gəldik və o gün üçün fəvvarələrin son rəqsini gördük. İlahi nə gözəl bir mənzərə.

11.02.2011 tarixində Dubayın mərkəzi küçələrinə maşınla səyahətə çıxdıq. Mənim istəyimlə maşını Bürc əl-Ərəbın qarşısına sürdük. Sənan şəhəri çox yaxşı tanıdığından bizi qısa və rahat yollarla aparırdı.

Süni bir ada üzərində qurulmuş və «Yelkən otel» adı daşıyan bu bina, həm dünyanın ən yüksək oteli, həm də dünyada yeddiulduzlu ilk və tək oteldir. O, Dubayın simvoludur. Onun konstruksiyası yelkənli qayığa oxşayır və 220 ədəd ikili sütunla saxlanılır.



Akvariumun içərisində

Sonra «Palma» adasına getdik. İnsan zəkasının və mühəndis əməlinin nəticəsini gözümlə gördüm. «Atlantis» oteli bu ərazidədir. Çox əzəmətli bir binadır. Şam yeməyimizi Dubayın ən dəyərli yerlərindən olan Mədiynət qalasındakı «Anar» restoranında etdik.



12.02.2011-ci il tarixində səhər tezdən Festival Moll və Salam ticarət mərkəzlərində olduq. Yenə də şəhəri gəzdik.

Bu gün Bakıya qayıdırıq. Bir daha İhama və Mətanətə öz minnətdarlığımı bildirirəm.

Dubay, BƏƏ
13.02.2011.

* * *

İnsanın daxili dünyası çox vaxt onun yaşı ilə ayaqlaşmır. Əgər sağlamlıq imkan verirsə, onda 50 və ya 60 yaşında özünü 25–30 yaşlı gənc kimi hiss edirsən. Bir də deyirlər ki, kişilər öz həyatları boyu üç dəfə ağıllarını itirirlər: 18–20, 40–45 və 55–60 yaşlarında. Bu nə dərəcədə düzgündür, təsdiqləmək çox

çətindir. Bir şey həqiqətdir ki, insan ürəyi və ağlı, ruhu və cismi arasındakı anlaşılmazlıqlarla rastlaşır. Hər dəfə bir sual qarşısında durmağa məcbur olursan: Nə etməli? Ağlına qulaq asmalı, yoxsa ürəyinə?

Cabir Novruzun bir şeri var, onun bir bəndində deyilir:

İstəyimə yox dedim, qəlbim susdu, dinmədi.
Ağıllandı ürəyim, ağlım ürəklənmədi.

Bu mövzu ilə bağlı bir yazım var, onu sizin diqqətinizə çatdırmaq istəyirəm.

Bu nə hissiyatdır, bu nə duyğudur
Əqlimə, ruhuma hakim kəsilən?
Görən nə alovdur, bu nə atəşdir,
İçimdən boylanan, cismimdən gələn?

Bəlkə bu gəncliyin bir nişanəsi,
Taleyin son müjdə, son işarəsi,
Çözülməz sevginin ahu naləsi,
Həsrət yanğısıdır ürəkdən gələn?

Bəlkə də qəlbimdə gizli saxlanan,
Haçansa yanmayan, alovlanmayan,
Təkcə yuxularda mənə pay olan
Şirin xəyallardan xəbərdir gələn?

Anlaya bilmirəm özümü nədən,
Baş aça bilmirəm heç ürəyimdən,
Ruhum da çaşıbdır deyən gerçəkdən
Çətin sınaqlardan sədadır gələn.

Belə ola bilməz, bu düzgün deyil,
Vaxt da ötüb keçib, yaş o yaş deyil,
Yazın yaz yeri var, payız yaz deyil,
Çaşmış fəsillərdən soraqdır gələn.

Bu alov içimdə səngimək bilmir,
Bu həsrət gözümdən çəkilmək bilmir,
Bu duyğu qəlbimdən silinmək bilmir,
Sonsuz arzulardan nidadır gələn.

Mən bu duyğulardan qaça bilmirəm,
Atmaq istəsəm də ata bilmirəm,
Ağlımı qəlbimə sata bilmirəm,
Bir şeytan əməli, xətadır gələn.

Mənə kömək eylə Ulu Yaradan!
Qoyma üstün olsun ürək ağıldan.
Həyat yaşanıbdır, daha sonradan
Nə olsa Allahdan töhfədir gələn.

Bakı
02.02.2011.

* * *



İki gün öncə – 28 mart 2011-ci ildə qaynanam Aliyə Hacıbala qızı Osmanova dünyasını dəyişdi. Gözəl bir ananı, nənəni və insanı itirdik. Bu qadın həyatının böyük bir hissəsini əzab və əziyyətlər içərisində keçirmişdi. Ömrünün son ilini isə yataqda, ağır xəstəliklə mübarizə apararaq başa vurdu.

O, böyük bir nəsil, soyun, kökün qızı idi. Əliaçıqlığı, genişürəkliyi, səxavəti və xeyrxahlığı ilə seçilirdi. 1932-ci ildə Kürdəmirdə anadan olmuşdu. Doğmalarından bir qardaşı vardı – Sadıq. O, 2004-cü ildə rəhmətə getmişdi.


Sadıq Mustafayev

Onların arasında qarşılıqlı hörmət və ehtiram vardı. Anaları Aşa nənə xüsusi səliqə-sahmanlı, mehriban və işgüzar bir insan idi. Nəvəsi Nailəni çox sevirdi, mənim hörmətimi saxlayırdı. Oğlu Sadıqla nəfəs alırdı.

Sadıq öz diqqətcilliyi və qayğıkeşliyi ilə fərqlənirdi. Yaxında və ya uzaqda yaşamasından asılı olmayaraq bütün qohum-tanışı axtarar və tapardı. Qohumları da onu çox sevirdilər. İşlədiyi müəsissədə böyük hörməti vardı. Son iş yeri Bakı qaz emalı zavodu olub, oranın direktor müavini idi. Qaynatam Hacı Gərayevlə yaxın dost idilər.

Hacı Gərayev ağırtəbiətli insan idi. Azərittifaqda çalışırdı. Özünü çox sevən və özünə qarşı hörmət tələb edən idi. Onun birinci nikahdan olan qızı Sveta qaynanamın yanında böyüyüb və oradan gəlin köçüb. Yüksək insani keyfiyyətlərə malik bir xanımdır. Onun həyat yoldaşı Arif, övladları – Nigar və Azər öz zəhmətsevərliyi, mehribanlığı və qayğıkeşliyi ilə fərqlənirlər.

Arif və Svetanın nəvələri – Anar və Murad hal-hazırda İngiltərədə təhsil alırlar. Onların valideynləri – Rəsul və Nigar bu uşaqların təhsilinə xüsusi önəm verirlər.

Qaynatam dünyasını dəyişəndən sonra Aliyə xanım böyük əziyyətlərlə, lakin mərdlik və qeyrət göstərməklə övladlarını böyütdü. Qayınlarım Ağamirzə və Şahin cavan yaşlarında dünyalarını dəyişdilər. Aliyə xanım bütün diqqətini qızları və onların övladlarına ayırmışdı. Onun xarakterində bir fərqləndirici cəhət vardı – həmişə kürəkənlərinin tərəfini saxlayardı. Ailələrimizdə bir söz və anlaşılmazlıq olsa idi, mütləq qızlarını danlayardı, məni və İlhamı dəstəkləyərdi. Qızları həmişə onun hörmət və ehtiramını layiqincə saxlayırdılar. Son dəqiqəsinə qədər onun qayğısına qalır, istək və arzularını yerinə yetirirdilər.

Allah ona rəhmət eləsin!

## SON SÖZ

Bu gün mən uzun illərdən bəri başladığım bir işi başa çatdırıram. Mən düşündüklərimi qələmə almağa başlayanda güman etməzdim ki, bu qədər uzanacaq və böyük bir kitaba çevriləcək. Qeydlərim bəzən böyük fasilələrlə, bəzən isə çox qısa şəkildə yazlıb. Kitabın tərtibatı zamanı müəyyən mövzuları oradan çıxararaq ürəyimdə saxladım. Əlyazmalarımı isə yandıraraq, ancaq kitabdakılarla kifayətlənməyi qənaətbəxş hesab etdim. Belə ki, kitaba düşməyən yazılarım birmənalı qəbul edilməyən mövzulardan idilər.

Yaşadığım həyatda ağrılı və acılı, sevincli və kədərli, gülüşlü və gözüyaşlı günlərim olub. Mən bütün bu günləri xarakterindən və mahiyyətindən asılı olmayaraq sevərək yaşamışam. Əyar nişanından asılı olmayaraq qızıl həmişə qızıldır. Yaşanan həyatımı da eyni ilə qiymətləndirirəm. Yamanı yaxşıya, keçmişi gələcəyə dəyişmək istəmirəm. Onlar hamısı mənimdir və mənə əzizdirlər. Ona görə ki, xoş günlərim və anlarım məni şadlandırıb, pərvazlandırıb, ruh yüksəkliyi verib, çətin günlərim və anlarım isə məni mətinləşdirib, güc və iradəmi toplamağı öyrədib.

Valideyn sözü, nəsihəti və məsləhətinə ehtiramla yanaşmışam.

Dost, yoldaş və tanış anlayışlarına müvafiq şəkildə yanaşmışam.

Həmişə çalışmışam ki, yaxşılıq edəm, pislikdən qaçam, hər hansı bir şeyə nail olmaq üçün mütləq zəhmət çəkim.

Düzgünlüyü ümdə amal hesab edərək, haqqa dəstək verməyə çalışmışam.

Öz böyüklüyünə hörmət edənin qarşısında baş əymişəm, öz kiçikliyini dərk edənə dayaq olmuşam.

Var-dövlət qazanmağı həyatımın məqsədinə çevirməmişəm. Qazandığımı qoruyub saxlamağa çalışmışam, lakin itirəndə heyfislənməmişəm.

Allahımdan çox razıyam. O, kəramətini və mərhəmətini məndən əsirgəməyib. Ulu Tanrıdan bir istəyim var, qoy O, nəzərlərini mənim ailəmin, qohum-qardaşlarımım, balalarımın üzərindən əsirgəməsin.

Həyat davam edir. Qarşıda çox işlər ola bilər. Mən nələr olacaq, bilmirəm və bilmək də istəmirəm. Mən həmişə fikirləşmişəm ki, keçmişə toxunmaq və gələcəyi bilmək lazım deyildir. Keçmiş öz yerində qalmalıdır, onu təzələmək və ya dəyişdirmək istiqamətində atılan hər bir addım heç də uğurlu ola bilməz. Gələcəyi isə arzulamaq olar və bu arzuların həyata keçməsi istiqamətində addımlamaq lazımdır.

Kitabın adını da da məhz bu yanaşmaya əsasən seçmişəm – SEVƏRƏK YAŞADIĞIM HƏYATIM MƏNİM.

**Həyatım mənim, Mən səni çox sevirəm!**


Aminə
Alinə
Emil
Elçin
Elvin
Fazil
Camilə
Elşən
Elcan
Nailə
Elxan
Gülnisə
İbrahim
Nailə
Emil
Vaqif
Larisa
Lalə
Elgün
Elnur
Əbülfəz
Eldar
Gülnarə
Əbülfəz
Xədicə

Şərq
Qərb
1986-cı ildən

Buraxılışa məsul: *Rasim Müzəffərli*

Korrektor və
texniki redaktor: *Rövşən Ağayev*

Kompyuter səhifələnməsi: *Ələkbər Kərimov*

Üz qabığının dizaynı: *Elşən Qurbanov*

Çapa imzalanmışdır 31.05.2011.
Formatı 60×90 $^1/_{16}$. Fiziki çap vərəqi 10,5.
Sifariş N170. Tirajı 100.

"Şərq-Qərb" Nəşriyyat evində çapa hazırlanmış və çap olunmuşdur.
AZ 1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 370 68 03; 374 83 43
Faks: (+99412) 370 68 03; 370 18 49
www.eastwest.az